Xalqın qəzeti!

# Xalq qəzeti

№ 54 (31023) 2 aprel 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan mötəbər tərəfdaşlıq məkanıdır



**Azərbaycan, sözün əsl mənasında, etibarlı tərəfdaşdır, dostluq ənənələrinə həmişə sadiqdir və dostluğu yüksək qiymətləndirir. Məhz dostluq, qarşılıqlı anlaşma, strateji tərəfdaşlıq üzərində qurulmuş əlaqələr bir çox ölkələrin maraqlarını təmin edir və genişmiqyaslı regional əməkdaşlığa da güclü zəmin yaradır.**

**Xəzər dənizi, Qara dəniz, Aralıq dənizi, Avropa məkanı və Azərbaycan, Avropa İttifaqı əlaqələri – bütün bu istiqamətlər müsbət məcrada inkişaf edir və bizim gələcək planlarımız da bu istiqamətlərə xidmət göstərəcəkdir.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Səhifə ➩ 3

## Qlobal təhlükəsizlik və TDT ölkələri hökumət başçılarının Bakı görüşü



Səhifə ➩ 3

## İrəvanın boğazına dirənən “102-ci” bıçaq



Səhifə ➩ 4

## Ermənistan–Rusiya: “dəmir yolunda vidalaşma”




Səhifə ➩ 4

## Gürcüstanda demoqrafik “SOS!”



Səhifə ➩ 5

## ABŞ və NATO-nu hansı gələcək gözləyir?



Bir vaxtlar Birləşmiş Ştatlarla NATO-nun digər üzvləri arasında olan sıx münasibətlər artıq gərginliyin pik həddinə çatıb. Görünən odur ki, bundan sonra alyansdaxili əlaqələri əvvəlki səviyyəyə qaytarmaq mümkün olmayacaq.

*(ardı 7-ci səhifədə)*

## Kulevi terminalı genişləndirilir



Səhifə ➩ 8

## Güc və söz döyüşü davam edir



Səhifə ➩ 15

## Köləlik “ağalar”a qazanc, insanlığa utanc gətirir

*Azərbaycanın müstəmləkəçiliyə münasibəti ədalətə əsaslanır*



**XV–XIX əsrlər arasında müşahidə olunan transatlantik qul ticarəti bəşər tarixinin ən qaranlıq səhifələrindən biri kimi yadda qaldı. İnsan həyatının iqtisadi mənfəətə qurban verildiyi bu qəddar mexanizm iqtisadi münasibətlərdən əlavə, irqi, sosial və siyasi bərabərsizliklərin uzunmüddətli əsasını formalaşdırdı.**

*(ardı 7-ci səhifədə)*

## Böyük Qayıdışa qapı açan Aprel savaşı



Səhifə ➩ 5

## Yaxın Şərq böhranı dünya iqtisadiyyatını silkələyir



Səhifə ➩ 9

## Aİ qaz təchizatını şaxələndirir




Səhifə ➩ 8

# Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafının təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafı iqtisadiyyatın şaxələndirilməsi, sənayeləşmənin dərinləşdirilməsi, ixracın strukturunun genişləndirilməsi və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

Ötən illərdə həyata keçirilən islahatlar nəticəsində alüminium, qızıl, gümüş və misin sənaye istehsalının əsasları formalaşdırılmış, metal filizi ehtiyatlarının bir hissəsi sənayedə istifadəyə yönəldilmişdir. “AzerGold” Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə nəcib və əlvan metal yataqları üzrə sənaye hasilatı təşkil edilmiş, müasir emal infrastrukturu qurulmuşdur.

Daşkəsən və Gədəbəy rayonlarında filiz emalı müəssisələrinin yenilənməsi, habelə işğaldan azad edilmiş ərazilərdə perspektivli yataqların istismara verilməsi dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin istehsal və ixrac imkanlarını genişləndirmişdir. Bununla yanaşı, Qərb Sənaye Parkının yaradılması dəmir filizi ehtiyatlarının emalını genişləndirməyə və metallurgiya sənayesində dəyər zəncirini dərinləşdirməyə imkan yaradır.

Eyni zamanda, mövcud mineral-xammal bazasından səmərəli istifadə, hasilat və emal mərhələləri arasında istehsal əlaqələrinin gücləndirilməsi, infrastruktur və logistika qərarlarının uzlaşdırılması, eləcə də dövlət–özəl tərəfdaşlığının genişləndirilməsi istiqamətində əlavə tədbirlər görülməsi zəruridir.

Qlobal iqtisadiyyatda gedən enerji keçidi və yüksək texnologiyaların inkişafı fonunda metallara tələbatın yüksəlməsi bu sahənin strateji əhəmiyyətini daha da artırır. Azərbaycan Respublikasının zəngin mineral ehtiyatları, rəqabətqabiliyyətli enerji təminatı, sənaye təşviqi mexanizmləri və Orta Dəhliz üzərində yerləşməsi əlaqəli sənaye sahələrinin də dayanıqlı inkişafı üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin xammaldan son məhsula qədər dəyər zənciri üzrə inkişafının sürətləndirilməsi, mineral resurslardan səmərəli istifadə olunması və yüksək əlavə dəyər yaradan metal emalının genişləndirilməsi, habelə metallurgiya məhsullarının ixrac potensialının artırılması məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. “Azərbaycan Respublikasında 2027–2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı”nın (bundan sonra – Dövlət Proqramı) layihəsini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Dövlət Proqramının “Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın və “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı”nın hazırlanması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamının 1.1-ci bəndində nəzərdə tutulan “Azərbaycan Respublikasının 2027–2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın layihəsində əhatə olunmasını təmin etsin;

1.3. dağ-mədən (metal filizləri) və metallurgiya sahəsində özəl sektor tərəfindən hazırda icra olunan və ya icrası planlaşdırılan layihələrin Dövlət Proqramının layihəsində nəzərə alınmasını, habelə Dövlət Proqramı çərçivəsində dəstəklənməsi mexanizminin müəyyən olunmasını təmin etsin;

1.4. Dövlət Proqramında “Azəralüminium” Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal gücünün “xammal–emal–son məhsul” dəyər zənciri üzrə artırılması və ixrac imkanlarının genişləndirilməsi məqsədilə aşağıdakı tədbirlərin nəzərdə tutulmasını təmin etsin:

1.4.1. elektroliz zavodu layihəsinin tamamlanması və 2030-cu ilədək illik istehsal gücünün 100 000 (yüz min) tona çatdırılması;

1.4.2. alüminium yayma məhsullarının istehsalı layihəsinin davam etdirilməsi və 2030-cu ilədək illik istehsal gücünün 50 000 (əlli min) tona çatdırılması;

1.5. Azərbaycan İnvestisiya Holdinqi tərəfindən hazırlanan texniki-iqtisadi əsaslandırmaya uyğun olaraq, maliyyələşdirmə mənbələrinin müəyyən olunmasını və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə kalsinasiya və anodbişirmə zavodunun tikintisinin həyata keçirilməsini təmin etsin;

1.6. metallurgiya məhsullarının rəqabət qabiliyyətinin artırılması məqsədilə enerji və nəqliyyat tariflərinin təkmilləşdirilməsi, zərurət olduğu təqdirdə əlavə torpaq sahəsinin ayrılması və elektrik enerjisinə tələbatın ödənilməsi ilə bağlı tədbirlər görsün;

1.7. bu Sərəncamın 1.4-cü bəndində nəzərdə tutulan layihələrin, Azərbaycan İnvestisiya Holdinqi tərəfindən hazırlanan texniki-iqtisadi əsaslandırma nəzərə alınmaqla, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün zəruri tədbirlər görsün;

1.8. bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, “Azərbaycan alüminiumu” Açıq Səhmdar Cəmiyyətinin:

1.8.1. aktivlərinin “Azəralüminium” Məhdud Məsuliyyətli Cəmiyyətinin balansına verilməsini təmin etsin;

1.8.2. kreditor borclarının, habelə dövlət təşkilatlarına olan və “Azərbaycan Alüminiumu” Səhmdar Cəmiyyətini idarə etmək hüququna dair Müqavilə”nin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 31 mart tarixli 678 nömrəli Sərəncamına əsasən ödənilməsinə 25 il möhlət verilmiş, eləcə də Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu qarşısında yaranmış borclarının silinməsi ilə bağlı zəruri tədbirlər görsün;

1.8.3. Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi öhdəliyinə xitam verilməsi ilə bağlı zəruri tədbirlər görsün;

1.9. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**2.** “Azərbaycan alüminiumu” Açıq Səhmdar Cəmiyyəti ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, “Azərbaycan alüminiumu” Açıq Səhmdar Cəmiyyətinin qeyri-dövlət təşkilatları qarşısında təsdiq edilmiş borclarının qaytarılmasını Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti və ya qanunda nəzərdə tutulan digər maliyyə mənbələri hesabına müvafiq təsdiqedici sənədlər təqdim edildiyi tarixdən bir ay müddətində təmin etsin.

**4.** Azərbaycan İnvestisiya Holdinqi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 1 aprel 2026-cı il**

# DİN rəhbərinin Cəlilabadda vətəndaş qəbulu və sıra baxışı





**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov martın 31-də və aprelin 1-də Cəlilabad rayonunda növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Cəlilabad rayonunda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra Polis Şöbəsinin inzibati binasında Cəlilabad, Biləsuvar, Cəbrayıl, Salyan və Neftçala rayonlardan, eləcə də digər bölgələrdən qəbula gələn 356 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib.

Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 258 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***

# Portuqaliya Azərbaycanda səfirlik açacaq

**Aprelin 1-də xarici işlər naziri Ceyhun Bayramovla Portuqaliyanın dövlət və xarici işlər naziri Paulo Rangel arasında telefon danışığı aparılıb.**

Nazirlər telefon danışığı zamanı Azərbaycanla Portuqaliya arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini, eləcə də regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər.

Portuqaliya naziri ölkəsinin Azərbaycandakı diplomatik təmsilçiliyinin səviyyəsinin qaldırılması və ölkəmizdə səfirlik açmaq barədə qərar verildiyini diqqətə çatdırıb. Nazir Ceyhun Bayramov bu qərara görə təşəkkür edib.




Nazirlər ikitərəfli münasibətlərin inkişafı istiqamətində siyasi məsləhətləşmələr mexanizminin və qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıblar. İkitərəfli əməkdaşlığın iqtisadiyyat, enerji, ticarət, nəqliyyat və turizm sahələrində genişləndirilməsi üçün mövcud imkanlar nəzərdən keçirilib.

Tərəflər, həmçinin beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə toxunaraq qarşılıqlı dəstəyin davam etdirilməsinin vacibliyini qeyd ediblər. Nazirlər Yaxın Şərqdə artan hərbi eskalasiyadan narahatlıqlarını ifadə edib, münaqişənin diplomatik həllinin zəruri olduğunu diqqətə çatdırıblar.

***XQ***

# ŞKTC-nin Baş naziri YAP Mərkəzi Aparatında



**Aprelin 1-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri, Ulusal Birlik Partiyasının Sədri Ünal Üstelin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**

Görüşdə xalqlarımız arasında əlaqələrin tarixi ənənələrə, ortaq dəyərlərə və dostluq prinsiplərinə əsaslandığı qeyd olunub, son illərdə iki ölkə arasında sıx təmasların və qarşılıqlı fəaliyyətin gücləndirilməsinin əhəmiyyəti vurğulanıb.

ŞKTC-nin Türk Dövlətləri Təşkilatına müşahidəçi statusunda qəbul olunmasında Prezident İlham Əliyevin rolunun Şimali Kipr Türk xalqı tərəfindən yüksək qiymətləndirildiyi qeyd edilib.

Söhbət zamanı Türk dövlətlərinin hakim siyasi partiyaları arasında münasibətlərin genişləndirilməsinin də diqqət mərkəzində olduğu qeyd edilərək YAP-UBP əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

***XQ***

# Azərbaycanın TDT-yə sədrliyi təşkilatın nüfuzunu artıracaq



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 1-də Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev ilə görüşüb.**

Görüşdə Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın cari vəziyyəti və perspektivləri müzakirə olunub, təşkilatın çoxtərəfli platforma qismində artan rolu vurğulanıb.

Təşkilata üzv dövlətlər arasında siyasi, iqtisadi, nəqliyyat, enerji və humanitar sahələrdə əməkdaşlığın son illər ərzində əhəmiyyətli dərəcədə genişləndiyi qeyd edilib.

Görüşdə Azərbaycanın TDT-yə sədrliyi dövründə əməkdaşlığın daha da inkişafı, təşkilatın beynəlxalq nüfuzunun artırılması istiqamətində səylərin davam etdiriləcəyi bildirilib.

***XQ***

# Baş nazirin Şimali kiprli həmkarı ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 1-də Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında bir sıra sahələrdə əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Yüksəksəviyyəli qarşılıqlı səfərlərin intensivliyi, parlamentlərarası və siyasi partiyalar xətti ilə əməkdaşlığın inkişafı müsbət qiymətləndirilib.

Humanitar sahədə, xüsusilə mədəniyyət və turizm istiqamətlərində əlaqələrin genişləndirilməsinin vacibliyi qeyd olunub.

Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın önəmi vurğulanaraq, Şimali Kipr Türk Cümhuriyyətinin müşahidəçi statusunda təşkilatın fəaliyyətinə verdiyi töhfələr qeyd edilib.

Bakıda keçirilən Türk Dövlətləri Təşkilatına Üzv Dövlətlərin Hökumət Başçılarının/Vitse-Prezidentinin Görüşünün əhəmiyyətinə toxunulub.

Tədbirin TDT çərçivəsində hökumətlərarası koordinasiyanın gücləndirilməsi və dövlət başçıları tərəfindən müəyyən edilmiş prioritet sahələr üzrə ortaq gündəliyin daha səmərəli şəkildə irəli aparılması baxımından önəmi vurğulanıb.

***XQ***

# Baş prokuror Gürcüstan Vəkillər Kollegiyasının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ölkəmizdə səfərdə olan Gürcüstan Vəkillər Kollegiyasının sədri İrakli Kandaşvilini qəbul edib.**

Görüşdə dövlət başçılarının birgə səyi və siyasi iradəsi sayəsində Azərbaycan ilə Gürcüstan arasında dostluq münasibətlərinin dinamik inkişafı xüsusi vurğulanıb.

Qeyd edilib ki, iki ölkə arasında mövcud olan strateji tərəfdaşlığın yüksək səviyyəsi və dövlətlərarası dialoqun davamlı xarakteri siyasi, iqtisadi, nəqliyyat-logistika və humanitar sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi üçün möhkəm zəmin yaradır. Bu münasibətlər, həmçinin hər iki ölkənin hüquq sistemləri və praktiki hüquqşünasları arasındakı əlaqələrin möhkəmləndirilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

Baş prokuror Kamran Əliyev xarici tərəfdaşlarla əlaqələrin inkişaf etdirilməsinin Baş Prokurorluq üçün mühüm əhəmiyyət kəsb etdiyini qeyd edərək ölkələrimizin hüquq-mühafizə orqanları, eləcə də vəkillik və məhkəmə qurumlarının təmsilçilərinin qarşılıqlı təcrübə mübadiləsinin hüquq sistemlərinin inkişafı baxımından mühüm töhfə verməsini vurğulayıb.

Gürcüstan Vəkillər Kollegiyasının sədri İrakli Kandaşvili göstərilən qonaqpərvərliyə görə təşəkkürünü ifadə edib, ölkələrimizin həm vəkillik qurumları, həm də hüquq-mühafizə orqanları arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirib.

Görüşdə iştirak edən Azərbaycan Respublikasının Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədri Anar Bağırov prokurorluq orqanları və vəkillər kollegiyaları arasında mövcud olan yüksək əməkdaşlıq əlaqələrinə toxunub, İrakli Kandaşvilinin Gürcüstan Vəkillər Kollegiyasının sədri kimi ilk rəsmi səfərinin Azərbaycana edilməsinin yüksək qiymətləndirildiyini qeyd edib.

Görüş zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında, o cümlədən hüquq və qanunvericilik sistemində həyata keçirilmiş islahatlar və tətbiq edilən yeni hüquq institutları barədə fikir mübadiləsi aparılıb.

Daha sonra qonaqlar Baş Prokurorluğun cari fəaliyyəti, həmçinin Tarix muzeyi ilə tanış olub.

***XQ***

# Ağdərədə mina partlayışı

**İşğaldan azad edilmiş Ağdərə rayonunun Suqovuşan qəsəbəsi yaxınlığında aprelin 1-də mina hadisəsi baş verib.**

Bu barədə Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Minatəmizləmə Agentliyi birgə məlumatında bildirilib ki, Ağdərə rayonunun Hacıqərvənd kənd sakini 1982-ci il təvəllüdlü Mahir Məhərrəmov keçmiş təmas xəttində minalardan təmizlənməmiş ərazidə piyadaəleyhinə mina partlayışı nəticəsində sağ ayağından xəsarət alıb.

Faktla bağlı Tərtər Rayon Prokurorluğunda araşdırma aparılır.

***XQ***

# TDT Bakı görüşünün iştirakçıları Azərbaycanda



**Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hökumət başçılarının Bakı görüşündə iştirak edən TDT Baş katibi Kubanıçbek Ömüralıyev, Özbəkistan Respublikasının Baş naziri Abdulla Aripov, Qırğız Respublikasının Baş naziri Adılbek Kasıməliyev, Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini Nökerquli Ataquliyev, Şimali Kipr Türk Cümhuriyyətinin Baş naziri Ünal Üstel aprelin 1-də Azərbaycan Respublikasına səfərə gəliblər.**

Qonaqları Heydər Əliyev Beynəlxalq Aeroportunda iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, xarici işlər nazirinin müavini Samir Şərifov, XİN-in idarə rəisi Gürsel İsmayılzadə və digər rəsmi şəxslər qarşılayıblar.

*XQ*

# Hindistanın yeni səfiri XİN-də



**Aprelin 1-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Hindistanın ölkəmizə yeni təyin olunmuş səfiri Abhay Kumarla görüşüb.**

Görüşdə iki ölkə arasında mövcud münasibətlərin cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. Tərəflər Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr mexanizminin əməkdaşlıq məsələləri ilə yanaşı, iki ölkə arasında fikir ayrılığı təşkil edən məsələlərin müzakirəsi baxımdan faydalı olacağını qeyd ediblər.

Görüşdə enerji sahəsində əməkdaşlığa toxunularaq, Hindistanın "ONGC Videsh" şirkətinin Azərbaycanın "Azəri-Çıraq-Günəşli" yataqlar blokunda və BTC boru kəmərində paya sahibliyinin ikitərəfli iqtisadi əlaqələrin mühüm istiqamətlərindən biri olduğu bildirilib.

Görüş zamanı, həmçinin Yaxın Şərqdə mövcud gərginlikdən narahatlıq ifadə olunub. Hindistan səfiri ölkəsi adından İran ərazisindən Hindistan vətəndaşlarının təxliyəsi zamanı göstərilən dəstəyə görə Azərbaycan tərəfinə dərin təşəkkürünü bildirib.

Səfir Abhay Kumar görüşə görə təşəkkürünü bildirərək, fəaliyyəti dövründə Azərbaycan-Hindistan münasibətlərinin bütün istiqamətlər üzrə genişləndirilməsinə töhfə vermək niyyətində olduğunu xüsusi vurğulayıb.

# Azərbaycan mötəbər tərəfdaşlıq məkanıdır

## *Ölkəmiz Şərqdən Qərbə, Şimaldan Cənuba əməkdaşlığa açıqdır*



**Bir qayda olaraq, dövlətin kimliyi kənar ölkələrin, qlobal güc mərkəzlərinin ona necə yanaşması ilə ölçülür. Məhz bu meyar əsasında respublikamız olduqca nadir təcrübə qazanıb. Ölkəmiz dürüstlük və şəffaflıq kimi tarixi prinsiplərinə sadiq qalaraq sabitliyini qoruyub saxlayır. Əsas məqam ondan ibarətdir ki, ətrafında cərəyan edən beynəlxalq proseslər Azərbaycanın qlobal miqyasda aparıcı ölkəyə çevrilməsini təsdiqləyir.**

Respublikamız heç vaxt kənar qüvvələrin siyasi alətinə çevrilmədən, fərqli sivilizasiyaları, ziddiyyətli iqtisadi maraqları, müxtəlif hərbi blokları eyni masada cəm etməyi bacarır. Şərqin ənənəvi müdrikliyi ilə Qərbin praqmatizmi arasında qurulmuş qızıl körpü milli iradənin, sarsılmaz siyasi xəttin məntiqi nəticəsidir. Daxili qüdrət əsasında formalaşan inam dövlətimizi beynəlxalq sistemin etibarlı dayağına çevirir.

*

Mərkəzi Asiya respublikaları üçün Azərbaycan Qərbə açılan nəqliyyat qapısı, siyasi sabitlik mənbəyi, eləcə də vahid geoiqtisadi məkanın ayrılmaz hissəsidir. Ötən ilin noyabrında Daşkənd şəhərində keçirilən Mərkəzi Asiya Dövlət Başçılarının 7-ci Məşvərət görüşü çərçivəsində mövcud inteqrasiya tamamilə yeni mərhələyə qədəm qoydu. Rəsmi Bakının aktiv iştirakı sayəsində Mərkəzi Asiyanın ənənəvi formatı əhəmiyyətli dərəcədə genişlənərək təkamül prosesi keçdi, nəticədə Azərbaycan "altıtərəfli" müştərək qütbün yaradılmasında həlledici ölkəyə çevrildi. Həm tranzit imkanları baxımından, həm də müştərək təhlükəsizlik arxitekturasının qurulmasında hökumətimizin rolu əvəzedilməz xarakter daşıyır.

Mərkəzi Asiya regionunun liderləri Xəzər dənizinin şərq sahilindən Qərbə gedən yolda əsas qarant kimi məhz respublikamızı görürlər. Trans–Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun strateji əhəmiyyəti artdıqca, Şərq dövlətləri Asiyadan Avropaya uzanan yolu sarsılmaz ittifaqın əsas təməl daşı hesab edirlər. Çin sərhədlərindən başlayan karvanlar, qatarlar məhz həmin dəhliz vasitəsilə ən qısa müddətdə Avropa bazarlarına çatdırılır. Orta Dəhliz çərçivəsində yatırılan müştərək investisiyalar, liman infrastrukturunun qarşılıqlı modernləşdirilməsi, logistika mərkəzlərinin yaradılması regional asılılığı aradan qaldıraraq müstəqil iqtisadi manevr məkanını formalaşdırır.

Türk Dövlətləri Təşkilatı çərçivəsində ölkəmiz fərqli, lakin daha dərin mənəvi-siyasi missiya daşıyır. 2025-ci ilin oktyabr ayında Qəbələ şəhərində keçirilən 12-ci Zirvə Toplantısı həmin missiyanın pik nöqtəsi idi. Təşkilatın sədrlik estafeti rəsmi Bakıya keçdi. Hazırkı mərhələdə respublika Türk dünyasının qlobal güc mərkəzinə çevrilməsi istiqamətində əsas lokomotiv vəzifəsini uğurla icra edir. Hərbi, iqtisadi, mədəni əməkdaşlığı ehtiva edən təşəbbüslər mütəmadi olaraq artır. Şuşa Bəyannaməsindən başlayan yol, indi Qəbələ sənədləri əsasında ortaq təhlükəsizlik mexanizmlərinin yaradılması, kosmik tədqiqatlar aparılması, ortaq türk peykinin istehsalı, həmçinin vahid iqtisadi məkanın formalaşdırılması kimi strateji hədəflərlə davam edir.

Təşkilata sədrlik müddətində müdafiə və regional təhlükəsizlik istiqamətindəki fəaliyyətlər tamamilə yeni institusional çərçivəyə keçid edir. Dövlət başçısının təşəbbüsü ilə təhlükəsizlik şuraları, hərbi sənaye kompleksləri arasındakı inteqrasiya maksimum səviyyəyə çatdırılıb. Cari il üçün planlaşdırılan müştərək hərbi təlimlər, kibertəhlükəsizlik məkanının qurulması Türk dünyasının artıq tamhüquqlu hərbi-siyasi ittifaq olduğunu təsdiqləyir. Qlobal miqyasda cərəyan edən ziddiyyətlər fonunda məzkur addımlar türk respublikalarının toxunulmazlığını təmin edən dəmir qalxana çevrilir. Sədrlik missiyası çərçivəsində qarşıya qoyulan müştərək həmrəylik sarsılmaz qüvvə yaradır prinsipi bütün üzv dövlətlərin suverenliyini qoruyan qarant funksiyasını yerinə yetirir.

*

Çin Xalq Respublikası ilə genişlənən əlaqələr xüsusi önəm daşıyır. 2024-cü ilin iyulunda Astana şəhərində imzalanmış bəyannamə ilə münasibətlər hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldi. Şanxay Əməkdaşlıq Təşkilatında artan nüfuzumuz isə Şərq–Qərb ticarət yollarının şaxələndirilməsində rolumuzu gücləndirir. 2025-ci ildə imzalanan "Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyanat" bu əməkdaşlığı daha da möhkəmləndirdi. Çin Azərbaycana sənaye, texnologiya və "yaşıl enerji" sahələrində etibarlı tərəfdaş kimi yanaşır. İnvestisiyalar və texnoloji transferlər qeyri-neft sektorunun inkişafına təkan verir. Bu əməkdaşlıq, beynəlxalq təchizat zəncirindəki risklər fonunda, Azərbaycanın dayanıqlılığını gücləndirir və tərəflər arasında qarşılıqlı faydaya əsaslanan strateji əməkdaşlığın nümunəsinə çevrilir.

*

Qərb dünyası, xüsusən Avropa İttifaqı üçün rəsmi Bakı sıradan enerji təchizatçısı sayılmır, bütövlükdə, qitənin enerji təhlükəsizliyinin əsas qarantlarından hesab edilir. Cənub Qaz Dəhlizinin davamlı şəkildə genişləndirilməsi, həmçinin, "yaşıl enerji" ixracı sahəsində yatırılan beynəlxalq investisiyalar dövlətimizin iqtisadi rıçaqlarını daha da möhkəmləndirir. Avropa rəsmiləri açıq şəkildə etiraf edirlər ki, rəsmi Bakı mürəkkəb geosiyasi şəraitdə həmişə verdiyi sözə sadiq qaldığını sübuta yetirir. Qara dənizin dibi ilə çəkilməsi planlaşdırılan alternativ enerji xətləri Qafqaz dağlarının zəngin resurslarını "qoca qitə"nin təməl ehtiyaclarına bağlayır. Qərb paytaxtları çox yaxşı anlayırlar ki, qarşıda duran kəskin rəqabət fonunda etibarlı, suveren, xaricdən idarə olunmayan güclü hökumətlə tərəfdaşlıq mütləq şərtdir.

Eyni zamanda, Yaxın Şərq dövlətləri üçün ölkəmiz sülh, balanslaşdırılmış siyasət, həmçinin sivilizasiyalararası dialoq məkanı kimi çıxış edir. Qanlı münaqişələrin, bitməyən geosiyasi toqquşmaların tüğyan etdiyi həmin coğrafiyadan fərqli olaraq, dövlətimiz Yaxın Şərq ərəb dövlətləri, eləcə də İsrail hökuməti ilə eyni vaxtda yüksək səviyyəli siyasi-iqtisadi tərəfdaşlıq quraraq beynəlxalq təhlükəsizliyə davamlı töhfələr verir. İslam həmrəyliyinə sadiq qalan, Fələstin xalqının haqlarını qoruyan, müxtəlif humanitar layihələr həyata keçirən xarici siyasət idarəmiz paralel şəkildə Təl-Əviv ilə hərbi, aqrar, texnoloji əməkdaşlığını məharətlə idarə edir.

Qlobal iqlim dəyişmələri kimi mühüm problemlərin müzakirəsində də oxşar proseslər ön plana çıxır. 2024-cü ilin noyabr ayında Bakıda uğurla təşkil edilmiş qlobal miqyaslı iqlim sammiti – COP29 siyasi əzmkarlığın, beynəlxalq idarəetmədəki fəallığın bariz nümunəsinə çevrildi. Bu konfrans dünyanın inkişaf etmiş Şimal ölkələri ilə qlobal Cənub cəmiyyətlərini ortaq məxrəcə gətirməyi bacaran möhtəşəm diplomatik qələbə idi. Hökumətin formalaşdırdığı inkişaf modeli sübut edir ki, xarici hərbi alyansların kölgəsinə sığınmadan milli qüdrəti artırmaq mütləq mənada mümkündür.

Sülhsevər xarici siyasət kursu sübuta yetirir ki, ölkə rəhbərliyi yalnız milli maraqlara söykənərək praqmatik balans yaradır. Sabitlik, iqtisadi qüdrət, həmçinin müstəqil qərarvermə sistemi sayəsində respublika qlobal xaosun mərkəzində sülh diyarı kimi fərqlənir. Məhz göründüyü kimi olan Azərbaycan xarici qüvvələrin alətinə çevrilmir, əksinə, cərəyan edən proseslərin axarını dəyişdirərək müxtəlif mədəniyyətləri, iqtisadiyyatları, fərqli geosiyasi qütbləri eyni masada cəm etməyi yüksək səviyyədə bacarır. Şərqin müdrikliyi, Qərbin praqmatizmi arasında qurulmuş möhtəşəm körpü məhz milli iradənin, sarsılmaz siyasi xəttin məntiqi nəticəsidir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Qlobal təhlükəsizlik və TDT ölkələri hökumət başçılarının Bakı görüşü

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin hökumət başçılarının Bakıda keçirilən ikinci görüşü təşkilatın institusional inkişafında və geosiyasi rolunun artmasında mühüm mərhələ kimi qiymətləndirilə bilər. TDT son illər siyasi, iqtisadi və təhlükəsizlik komponentləri olan regional əməkdaşlıq mərkəzinə çevrilmək istiqamətində hərəkət edir.**

Beynəlxalq təşkilatların inkişaf təcrübəsi göstərir ki, hər bir regional təşkilat əvvəlcə humanitar və iqtisadi əməkdaşlıq platforması kimi formalaşır, daha sonra siyasi koordinasiya mexanizmləri meydana çıxır. Türk Dövlətləri Təşkilatı da eyni institusional inkişaf trayektoriyasını keçir. Əvvəl ortaq mədəniyyət, dil və tarix üzərində qurulan əməkdaşlıq sonradan nəqliyyat, enerji və ticarət layihələri ilə genişləndi, hazırda isə siyasi koordinasiya və təhlükəsizlik məsələləri gündəliyin əsas mövzularından birinə çevrilməkdədir.

Bu baxımdan Bişkekdə keçirilən hökumət başçılarının birinci görüşü təşkilatın icraedici səviyyədə əməkdaşlıq mexanizmlərinin formalaşdırılması baxımından mühüm mərhələ idi. Bişkek görüşü daha çox strukturun qurulması, əməkdaşlıq istiqamətlərinin müəyyən edilməsi və hökumətlər səviyyəsində koordinasiya mexanizmlərinin yaradılması ilə yadda qaldı. Bakı görüşü isə mahiyyət etibarilə fərqli mərhələni ifadə edir. Əgər Bişkek mexanizmlərin yaradılması mərhələsi idisə, Bakı artıq həmin mexanizmlərin işləməsi, konkret layihələrin koordinasiyası, iqtisadi və nəqliyyat təşəbbüslərinin icrasının sürətləndirilməsi və siyasi gündəliyin uzlaşdırılması mərhələsi kimi qiymətləndirilə bilər.

Bakı görüşünün əhəmiyyətini kəskin şəkildə artıran əsas amillərdən biri regionda təhlükəsizlik mühitinin sürətlə dəyişməsi və qeyri-müəyyənliyin artmasıdır. İran ətrafında baş verən müharibə və onun yaratdığı geniş geosiyasi dalğalanma Cənubi Qafqaz, Mərkəzi Asiya və ümumilikdə türk coğrafiyası üçün yeni risklər və çağırışlar formalaşdırır. Bütün bu reallıqlar Türk Dövlətləri Təşkilatını əvvəlki passiv koordinasiya modelindən daha çevik və reaksiya verə bilən siyasi platformaya çevrilmək zərurəti ilə üz-üzə qoyur.

Son bir ay ərzində müşahidə olunan intensiv diplomatik aktivlik sistemli reaksiyanın tərkib hissəsidir. Xüsusilə Naxçıvana pilotsuz uçuş aparatları ilə hücumun və Türkiyəyə raket atılmasının pislənilməsi TDT daxilində formalaşmaqda olan siyasi həmrəyliyin praktiki təzahürü kimi qiymətləndirilə bilər. Belə reaksiyalar, hələ ki, kollektiv təhlükəsizlik mexanizmi səviyyəsində olmasa da, ortaq siyasi mövqe formalaşdırmaq baxımından mühüm siqnaldır.

Burada diqqətçəkən digər mühüm məqam isə gündəliyin strukturunda baş verən dəyişiklikdir. Əgər əvvəlki mərhələlərdə nəqliyyat, ticarət və enerji layihələri əsas prioritet idisə, hazırda təhlükəsizlik, risklərin idarə olunması və siyasi koordinasiya paralel və bəzən dominant istiqamətə çevrilir.

Bakı görüşü məhz bu keçid mərhələsində xüsusi əhəmiyyət daşıyır. Çünki burada müzakirə olunan məsələlər hökumətlər səviyyəsində konkret mexanizmlərə çevrilə bilər. Təhlükəsizlik sahəsində məlumat mübadiləsi, fövqəladə vəziyyətlərə koordinasiyalı reaksiya, kritik infrastrukturun qorunması və regional risklərin birgə qiymətləndirilməsi kimi istiqamətlər məhz bu səviyyədə praktik məzmun qazana bilər. Digər tərəfdən, bu proses TDT-nin gələcək institusional arxitekturası üçün də ipucları verir. Əgər hazırkı dinamika davam edərsə, təşkilat daxilində daha sistemli təhlükəsizlik məsləhətləşmə mexanizmlərinin, bəlkə də xüsusi koordinasiya strukturlarının formalaşması istisna deyil.

Bakı görüşünün gündəliyində əsas mövzulardan birinin nəqliyyat və logistika layihələrinin genişləndirilməsi olması birbaşa Orta Dəhliz – Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə bağlıdır və əslində Türk Dövlətləri Təşkilatının iqtisadi inteqrasiyasının əsas sütunlarından birini təşkil edir.

Son illər qlobal ticarət marşrutlarında ciddi dəyişikliklər baş verir. Rusiya–Ukrayna müharibəsi Şimal marşrutunun etibarlılığını azaltdı, Yaxın Şərqdə gərginlik və dəniz yollarında təhlükəsizlik riskləri isə ənənəvi dəniz ticarət marşrutlarının sabitliyini sual altına aldı. Belə bir şəraitdə Avropa ilə Asiya arasında alternativ və daha təhlükəsiz quru nəqliyyat marşrutlarına maraq kəskin şəkildə artıb. Məhz bu geosiyasi və geoiqtisadi dəyişikliklər Orta Dəhlizin strateji əhəmiyyətini əvvəlki dövrlərlə müqayisədə xeyli artırıb.

Orta Dəhlizin xəritəsinə diqqət yetirdikdə aydın olur ki, bu marşrut əslində türk dövlətlərini vahid iqtisadi xətt üzrə birləşdirir: Mərkəzi Asiya – Xəzər dənizi – Azərbaycan – Gürcüstan – Türkiyə – Avropa xətti boyunca uzanan bu dəhliz investisiya, sənaye əməkdaşlığı, logistika mərkəzləri və rəqəmsal ticarət platformaları üçün yeni imkanlar yaradır.



Lakin Orta Dəhlizin real iqtisadi gücə çevrilməsi yalnız infrastrukturun tikilməsi ilə mümkün deyil. Burada əsas məsələ koordinasiyadır: gömrük prosedurlarının sadələşdirilməsi, vahid tranzit sənədləri, rəqəmsal logistika platformaları, tariflərin optimallaşdırılması, sərhəd keçidlərinin sürətləndirilməsi kimi məsələlər həlledici rol oynayır. Məhz bu məsələlər hökumətlər səviyyəsində razılaşdırılmalı olduğu üçün Bakı görüşü xüsusi əhəmiyyət kəsb edir.

Digər mühüm məqam isə ondan ibarətdir ki, nəqliyyat layihələri adətən zamanla siyasi inteqrasiyanı da sürətləndirir. Tarix göstərir ki, əvvəl iqtisadi əlaqələr dərinləşir, daha sonra siyasi koordinasiya güclənir. Avropa İttifaqının formalaşma modeli də məhz kömür və polad birliyindən başlayaraq siyasi birliyə doğru inkişaf etmişdi. Türk Dövlətləri Təşkilatında da, müəyyən mənada, oxşar iqtisadi inteqrasiya məntiqi müşahidə olunur və Orta Dəhliz bu inteqrasiyanın əsas alətlərindən biri kimi çıxış edir.

Türk Dövlətləri Təşkilatının son illərdə keçdiyi transformasiyada ən diqqətçəkən istiqamətlərdən biri təhlükəsizlik məsələlərinin təşkilatın gündəliyində getdikcə daha çox yer tutmasıdır. Regional risklərin artması bu prosesi sürətləndirən əsas amillərdən biridir. Yaxın Şərqdə müharibə, Cənubi Qafqazda hələ tam sabitləşməyən təhlükəsizlik mühiti, Mərkəzi Asiyada təhlükəsizlik riskləri, enerji və nəqliyyat infrastrukturunun qorunması məsələləri türk dövlətlərini təhlükəsizlik sahəsində daha sıx əməkdaşlığa sövq edir. Çünki Orta Dəhliz, enerji kəmərləri, nəqliyyat marşrutları və rəqəmsal infrastruktur kimi layihələr təhlükəsizlik məsələsidir.

TDT çərçivəsində siyasi həmrəylik və koordinasiya mexanizmlərinin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hələ ki, təşkilat çərçivəsində hərbi ittifaqın yaradılması və ya kollektiv müdafiə mexanizminin formalaşdırılması gündəmdə deyil və yaxın perspektivdə belə bir model real görünmür. Türk dövlətlərinin fərqli hərbi doktrinaları, müxtəlif təhlükəsizlik tərəfdaşlıqları və fərqli geosiyasi mühitləri buna imkan vermir. Lakin bu o demək deyil ki, təhlükəsizlik sahəsində əməkdaşlıq mümkün deyil. Əksinə, daha real model siyasi koordinasiya, təhlükəsizlik məsləhətləşmələri, kəşfiyyat məlumatlarının mübadiləsi, terrorizm və kiber təhlükələrə qarşı əməkdaşlıq, fövqəladə vəziyyətlərdə koordinasiya kimi sahələrdə əməkdaşlığın genişləndirilməsidir. Uzunmüddətli perspektivdə isə bu proses TDT-nin daha koordinasiyalı siyasi platformaya çevrilməsi ilə nəticələnə bilər.

Bakı görüşünün digər mühüm tərəfi onun geosiyasi mesajı ilə bağlıdır. Azərbaycan son illərdə Türk dünyasının geosiyasi və geoiqtisadi xəritəsində əsas tranzit və əlaqələndirici mərkəzlərdən birinə çevrilib. Xəzər dənizi üzərindən keçən nəqliyyat marşrutları, Bakı–Tbilisi–Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, enerji kəmərləri və logistika infrastrukturu Azərbaycanı faktiki olaraq Mərkəzi Asiya ilə Türkiyə və Avropanı birləşdirən əsas qovşağa çevirib.

Son olaraq qeyd edək ki, müxtəlif regional platformalarda təşəbbüslərlə çıxış etməsi, nəqliyyat və enerji layihələrinin təşviqi, regional əməkdaşlıq formatlarının dəstəklənməsi Azərbaycanın xarici siyasətində regional əməkdaşlıq arxitekturasının formalaşdırılmasında iştirak etmək ambisiyasının göstəricisidir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İrəvanın boğazına dirənən “102-ci” bıçaq

## *Parlament seçkiləri Moskvanın təsir gücünü də aşkar edəcək*

**Ermənistanda iyunun 7-də keçiriləcək parlament seçkilərinə az qalıb. Budəfəki seçkilər ölkənin gələcək strateji kursunu müəyyən etməklə yanaşı, həm də İrəvanın “müdhiş” böhran ssenarisinə, yoxsa sabitlik mərhələsinə qədəm qoyacağını müəyyənləşdirəcək. Siyasi arenada əsas fiqurlar artıq bəllidir: martın 30-da hakim “Mülki müqavilə” partiyası ölkənin baş naziri Nikol Paşinyanın namizədliyini rəsmən təsdiqləyib.**




Ondan əvvəl isə əsas müxalif güc hesab edilən “Ermənistan Alyansı” tərəfdən Robert Koçaryan, həmçinin rusyönümlü mövqeyi ilə seçilən “Güclü Ermənistan” koalisiyası tərəfdən Samvel Karapetyan mübarizəyə qoşulub. Sosial sorğuların nəticələrinə görə, Paşinyan hazırda rəqiblərinə nisbətən seçicilərin gözündə daha çox “persona-qrata” statusunda görünsə də, bu üstünlük həlledici deyil. Mövcud reallıqlar hakim partiyanın təkbaşına hökumət qurmaq üçün yetərli səs toplaya bilməməsi ehtimalını gücləndirir ki, bu da seçkidən sonra ölkəni mürəkkəb koalisiya danışıqlarının gözlədiyindən xəbər verir.

*

Ölkənin qarşısında duran ən ciddi və təhlükəli təhdid kənar müdaxilə ilə bağlıdır. Parlament seçkiləri yaxınlaşdıqca, prosesə kənar güclərin mümkün müdaxiləsi gündəmin əsas müzakirə mövzusuna çevrilib. Xüsusilə Gümrüdə yerləşən Rusiyaya məxsus 102-ci hərbi baza seçkilərin nəticələrinə təsir edə biləcək kritik rıçaqlardan biri hesab olunur. Bu seçkilər Ermənistan üçün onilliklər boyu sığındığı “Rusiya təhlükəsizlik çətiri”ndən tamamilə uzaqlaşıb-uzaqlaşmayacağını müəyyən edən strateji sınaq olacaq. Hazırda Gümrü ətrafında intensivləşən informasiya savaşı və artan siyasi gərginlik göstərir ki, sözügedən hərbi baza ölkənin daxili siyasi xəritəsini yenidən cızmaq potensialına malikdir. Kremlin bu təsir vasitəsindən hansı məqamda və formada istifadə edəcəyi hələlik müəmmalı qalsa da, hərbi mövcudluğun kölgəsi seçki prosesinin üzərində ciddi təhlükə faktoru kimi dayanmaqdadır.

Xüsusilə revanşistmeyilli media resurslarının iddiaları və 102-ci bazanın daxilindəki gizli kampaniya barədə yayılan xəbərlər Moskvanın artıq hərəkətə keçdiyinə dəlalət edir. İddialara görə, bölmə komandirləri yerli vətəndaşlarla aparılan söhbətlər zamanı onları Samvel Karapetyanın “Güclü Ermənistan” partiyasına səs verməmələri təqdirdə işdən çıxarılacaqları ilə hədələyirlər. Bu ssenarini Rusiyanın Ermənistan daxilində özünə sadiq siyasi elita yetişdirmək və Paşinyan administrasiyasının Qərbə meyilli kursunu sarsıtmaq cəhdi kimi qiymətləndirmək olar. Yeri gəlmişkən, digər tərəfdən, baş nazirliyə iddialı Samvel Karapetyanın heç kəsə sirr olmayan Rusiya vətəndaşlığı Moskvaya böyük manevr imkanı yaradır. 2024-cü ildən bəri Rusiya Dövlət Dumasında xaricdəki Rusiya vətəndaşlarını qorumaq üçün ordudan istifadəyə icazə verən qanun layihəsini müzakirə edir ki, bu da kandarda dayanan təhlükəni daha da real edir. Layihə qəbul olunacağı təqdirdə, 102-ci hərbi baza “öz vətəndaşını qorumaq” adı altında Karapetyan üçün xüsusi əməliyyat keçirə bilər ki, bu da Ermənistanın suverenliyi üçün birbaşa təhdid mahiyyəti daşıyır.

O da bəllidir ki, Samvel Karapetyanın “hakimiyyəti ələ keçirməyə çağırış” ittihamı ilə bir ilə yaxındır ki, ev dustaqlığında saxlanılır. Bu müddətin mütəmadi uzadılması Moskvanın hərəkətə keçməsi üçün əlverişli bəhanə rolu oynaya bilər. Görünən odur ki, Kreml vəziyyətə uyğun “siçan tələsi” quraraq pusquda gözləyir, ehtiyac yarandığı təqdirdə Ermənistanı öz orbitində saxlamaq üçün kobud güc ssenarisini işə salmaqdan çəkinməyəcək. Qısaca, hazırkı mənzərədə Ermənistanın “zəif bənd" statusu dəyişməz qalmaqdadır. Rəsmi İrəvanın ardıcıl və qətiyyətli müstəqil siyasət yürüdə bilməməsi ölkəni çıxılmaz küncə sıxışdırıb. Ermənistanın 16-cı baş nazirinin “real Ermənistan”ın heç bir kənar qüvvədən asılı olmadığı barədə bəyanatlarına rəğmən, reallıq ölkənin Qərb ilə Rusiya arasında gedib-gələn “yelləncək” vəziyyətində olduğunu göstərir. Bu kontekstdə Gümrüdəki 102-ci hərbi baza İrəvanın boğazına dirənmiş siyasi bıçaq funksiyasını yerinə yetirir. Seçki nəticələrinin Rusiyanın maraqları ilə kəskin ziddiyyət təşkil edəcəyi təqdirdə, “xaosun idarə olunması” və ya “ordu ilə xalqın birliyi” kimi şüarlar altında müdaxilələr Ermənistanın müstəqilliyini faktiki olaraq ləğv edə, onu yalnız kağız üzərində qalan formal sənədə çevirə bilər.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Ermənistanda seçkiqabağı daxili siyasi vəziyyət son dərəcə gərgin xarakter alıb və bu gərginliyin artan templə davam edəcəyi proqnozlaşdırılır. Müxalifət qüvvələri və siyasi partiyalar Nikol Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq məqsədilə öz səylərini birləşdirmiş, eyni zamanda, Erməni Kilsəsi də mövcud iqtidarla münasibətlərini kəsərək müxalif cəbhəyə meyillənmişdir.

Prosesin xarici amillərlə bağlı tərəfində isə Rusiyanın müxalif qruplaşmaları dəstəkləyən fəallığı və Gümrüdəki 102-ci hərbi bazasından dolayı təsir vasitəsi kimi istifadə etmək niyyəti aydın şəkildə müşahidə olunur. Hərbi personajların birbaşa siyasi fəaliyyəti hüquqi baxımdan məhdud olsa da, onların müxalifət nümayəndələri ilə qurduğu yaxın münasibətlər və “kulisarxası” fəaliyyətlər hakimiyyət dəyişikliyinə yönəlmiş strateji addımlar kimi qiymətləndirilməlidir.

Belə bir şəraitdə Paşinyan administrasiyası təbliğat resurslarını daha güclü şəkildə səfərbər etməli və müxalifətin təzyiqlərinə qarşı preventiv tədbirlər görməlidir. Çünki mümkün hakimiyyət dəyişikliyi regiondakı kövrək sabitliyin pozulmasına və gərginliyin yeni müstəviyə keçməsinə səbəb ola bilər. Bu mənada, Ermənistanın hazırkı rəhbərliyi mövcud riskləri dərindən analiz etməli və yaranmış vəziyyətdən ciddi siyasi nəticələr çıxarmalıdır.

# Ermənistan–Rusiya: “dəmir yolunda vidalaşma”

## *Bu məsələ hüquqi, iqtisadi və geosiyasi manevr hədəfinə çevrilir*

**Rusiyanın nəqliyyat naziri Andrey Nikitin rəsmən bildirib ki, Moskva Ermənistanın dəmir yolu şəbəkəsinin idarə edilməsi üzrə konsessiyanı Qazaxıstana və ya hər hansı üçüncü tərəfə vermək niyyətində deyil: “Biz konsessiyanı təhvil verməyi planlaşdırmırıq və bu məsələ rəsmi səviyyədə heç vaxt müzakirə olunmayıb”. O, həmçinin Astana ilə hər hansı təmasın olmadığını, Rusiyanın bu mühüm infrastruktur aktivindən könüllü imtina etməyəcəyini bəyan edib.**




2008-ci ilin fevralında imzalanmış müqaviləyə əsasən, Ermənistanın dəmir yolu sistemi 30 il müddətinə “Rusiya Dəmir Yolları” ASC-nin törəmə müəssisəsi olan “Cənubi Qafqaz Dəmir Yolu”nun (CQDY) idarəçiliyinə verilib. Bu razılaşma regional nəqliyyat şəbəkəsi üzərində Moskvanın strateji təsirini təmin edən mühüm mexanizmdir. Lakin 2025-ci ilin sonunda Ermənistanın baş naziri Nikol Paşinyan rusiyalı tərəfdaşlardan Türkiyə və Azərbaycanla sərhədlərə aparan sahələrin qısa müddətdə bərpası üçün müraciət edib. Bu sahələr regional inteqrasiyanı hədəfləyən “Tramp marşrutu” (TRIPP) layihəsi üçün həyati əhəmiyyət kəsb edir. Paşinyan martın 26-da idarəçiliyin Qazaxıstan tərəfinə verilməsi variantına ümid etdiyini açıqlasa da, göründüyü kimi, Moskva bu təşəbbüsə yaşıl işıq yandırmayıb.

Şübhəsiz ki, İrəvanın mövqeyi ölkənin regional nəqliyyat layihələrinə inteqrasiyasını süni şəkildə ləngidən mövcud idarəetmə modelindən qaynaqlanır. Yeni tranzit marşrutları formalaşan bir dövrdə struktur problemlər və “Rusiya faktoru” beynəlxalq aktorların Ermənistandan yan keçən alternativ xətlərə üstünlük verməsinə səbəb olur, bu isə uzunmüddətli iqtisadi təcrid riskini artırır. Ermənistanın təklif etdiyi “üçüncü tərəf” modeli Moskva ilə münasibətləri tam qoparmadan sahəni diversifikasiya etməyə və Qərb investorları üçün daha şəffaf platforma yaratmağa imkan verir. Bu təşəbbüs TRIPP və digər regional nəqliyyat layihələri ilə sıx bağlıdır və Ermənistanın strateji manevrləri üçün vacibdir. Paşinyan da bunda maraqlıdır.

Məsələnin hüquqi həlli mexanizmi də mövcuddur. Müqavilənin ən kritik və zəif bəndi CQDY-nin Türkiyə və Azərbaycanla sərhəd açılışları halında 1,3 milyard dollar əlavə investisiya öhdəliyidir. Ekspertlər bildirirlər ki, hazırda ciddi sanksiyalar və iqtisadi çətinliklərlə üzləşən Rusiyanın bu vəsaiti qısa müddətdə ayırmaq imkanı yoxdur. Bununla bağlı erməni politoloq Ruben Meqrabyan Moskvanın mövqeyini belə qiymətləndirir: “Onlar hesab edir ki, vəziyyət istədikləri kimi inkişaf edə bilər, çünki Ermənistan hökuməti açıq mövqe sərgiləmir, kəskin məsələləri yumşaldır”.

Meqrabyan Paşinyanın açıqlamasını şərh edərkən bildirib ki, hələlik Rusiyadan heç bir razılıq cavabı yoxdur: “Rusiya Dəmir Yolları”nın büdcəsində böyük boşluq var. Onlar özlərini talayıblar və indi rus hökumətindən pul tələb edirlər. Ermənistanda niyə xərcləməlidirlər? Bu suala cavab yoxdur”. O, həmçinin şirkətin gələcək fəaliyyətinə diqqət çəkərək sual edir: “Biz bu geridəqalmış şirkətin dəmir yollarımızda mövcudluğuna nə qədər dözməliyik?” Politoloq strukturu belə xarakterizə edir: “1970-ci illərin Brejnev dövrünün Sovet standartları ilə işləyən və öz ölkəsində özünü talayan bir qurum – Rusiya Dəmir Yolları şirkəti Ermənistandan çıxmalıdır”.

Ermənistanın dəmir yollarının idarəçiliyi ətrafında yaranmış gərginlik həm regional layihələr, həm də Rusiya–Ermənistan münasibətlərində yeni hüquqi mübarizə mərhələsinə çevrilib. Yəni İrəvan üçün asılılıqdan müəyyən çıxış yolu var. Müqaviləyə əsasən, respublikanın dəmir yolu infrastrukturu 2038-ci ilə qədər Rusiya tərəfinin operativ idarəçiliyinə verilib. Amma son geosiyasi dəyişikliklər bu modelin səmərəliliyini şübhə altına qoyub. Müqavilənin zəif bəndlərindən biri CQDY-nin sərhəd açılışları halında 1,3 milyard dollar əlavə investisiya öhdəliyidir ki, bu da İrəvan üçün hüquqi arqument yaradır: yerinə yetirilməmiş öhdəlikləri əsas gətirərək müqaviləyə birtərəfli xitam vermək mümkündür.

Müqavilənin digər mühüm bəndi tərəflər arasındakı mübahisələrin Paris Ticarət Palatasının Beynəlxalq Arbitraj Məhkəməsində həllini nəzərdə tutur. Arbitrajda qalib gələcəyi təqdirdə idarəetmə hüququ tamamilə Ermənistan Dəmir Yollarına qaytarılır və Moskva regiondakı infrastruktur təsirindən məhrum olur. Amma vaxtından əvvəl geri alınma mexanizmi isə Ermənistan üçün maliyyə baxımından ağırdır: 2038-ci ilə qədər CQDY-nin çəkdiyi faktiki xərclər və itirilmiş mənfəət tam kompensasiya edilməlidir. Konsessiyanın üçüncü tərəfə ötürülməsi isə həm İrəvanın, həm də Moskvanın razılığını tələb edir. Rusiya da buna hazır deyil.

Ermənistan üçün yeganə real çıxış yolu ya yüz milyonlarla dollarlıq kompensasiya yükünü qəbul etmək, ya da Paris Arbitrajında Rusiyanın investisiya öhdəliklərini yerinə yetirmədiyini sübut edərək müqaviləni təzminatsız ləğv etməkdir. Hazırkı vəziyyət 2008-ci il müqaviləsini regional logistika diplomatiyasının ən mürəkkəb düyünü kimi saxlayır. Paris Arbitrajı və sərhəd açılışlarının nəticələri Ermənistan–Rusiya münasibətlərinin gələcəyini müəyyən edəcək. Bunu da yaxın gələcək göstərəcək.

İndiki halda bu iqtisadi və hüquqi məhdudiyyətlər İrəvanın manevr imkanlarını çətinləşdirir, lakin ölkə hərbi-texniki sahədə diversifikasiyanı gücləndirir. Hindistan və Fransa ilə əməkdaşlıq Rusiya asılılığını mərhələli şəkildə azaltmaq məqsədini güdür, lakin enerji təhlükəsizliyi “Qazprom” və ölkədə Rusiya hərbi bazasının mövcudluğu səbəbindən hələ də məhdudiyyətlər qalır.




Bu səbəblərdən də Ermənistanın Qazaxıstan, BƏƏ və ya Qətər kimi “neytral” tərəfdaşları prosesə cəlb etməsi həm Moskva ilə münasibətləri qorumağa, həm də Qərb investorları üçün şəffaf platforma yaratmağa xidmət edir. Bu strategiya İrəvanın strateji, iqtisadi və hüquqi manevr imkanlarını artırır, regional tranzit layihələrində mövqeyini gücləndirməyə imkan verir.

Deməli, Ermənistanın hazırkı siyasəti kəskin geosiyasi qopmadan daha çox “idarə olunan və riskləri hesablanmış transformasiya” kimi qiymətləndirilməlidir. Analitik Beniamin Poqosyanın sözlərinə görə, Avropa ilə tam inteqrasiya və Rusiyadan radikal uzaqlaşma qısa müddətdə real görünmür. İrəvanın əsas məqsədi qlobal qeyri-müəyyənlik şəraitində manevr imkanlarını artırmaq, müxtəlif güc mərkəzləri ilə balanslaşdırılmış münasibətlər qurmaq və heç bir xarici aktorun ölkənin proseslərinə mütləq təsir imkanına malik olmamasını təmin etməkdir. Ermənistanın strateji manevrlərinin iqtisadi, siyasi və geosiyasi dividendləri isə tərəflərin yaxın aylardakı konkret addımlarından asılı olacaq.

Beləliklə, Ermənistanın dəmir yolu şəbəkəsinin idarəçiliyi yalnız nəqliyyat və iqtisadi aspekt daşımır. Bu həm də bu, regionda geosiyasi güc balansının və müxtəlif qlobal aktorların strategiyalarının sınağa çəkildiyi mürəkkəb bir meydan oxuma çevrəsinə çevrilib. Rusiya konsessiyanı qoruyaraq strateji təsirini saxlayır, Ermənistan isə müxtəlif tərəfdaşlarla manevr edərək regional inteqrasiya və investisiya imkanlarını artırmağa çalışır. Bu gərginliyin yaxın gələcəkdə ciddi nəticələr doğuracağı istisna edilmir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# TRIPP və Mirzoyanın qeyri-müəyyənlik tonu

## *Yaxud Naxçıvan yolunda maneə(sizlik)*

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan jurnalistlərə açıqlamasında bildirib ki, “Tramp marşrutu”nun tikintisinə ilin sonuna qədər başlanmasının nə dərəcədə real olduğunu bilmir. Onun mövzuya dair başqa nələrdən söz açdığına diqqət yetirəcəyik. Hələlik bəzi məqamlara nəzər salaq.**

Birincisi, ötən il avqustun 8-də Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzaladıqları Birgə Bəyannamədə əksini tapmış “Beynəlxalq sülh və rifah naminə Tramp marşrutu” (TRIPP) Bakı-İrəvan sülhünün ən real indiqatoru rolundadır. Yəni hansı səmtdən yanaşsaq, məhz bu layihə barış mühitinin qarantıdır. Çünki mahiyyətində iqtisadi dividend var. Amma məsələ təkcə bunda deyil.

Əlbəttə, barış mühiti indi də hökm sürməkdədir və onu böyük ölçüdə, təmin edən Azərbaycandır. Azərbaycan üçüncü ölkələrdən Ermənistana daşımalar üçün tranzit funksiyasını yerinə yetirir, həmçinin özünün neft məhsullarını qonşusuna ixrac edir. Yeri gəlmişkən, bu ixrac nəticəsində Ermənistanda benzinin qiymətində nəzərəçarpacaq azalma qeydə alınıb. Deməli, haylar sülhdən faydalanmaqdadırlar.

İkincisi, TRIPP Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Ermənistan ərazisindən keçməklə nəqliyyat əlaqələrinin açılmasını nəzərdə tutur. Rəsmi Bakı üçün prinsipial məsələ budur. Ən prinsipial məqam isə Naxçıvana yolun maneəsizliyidir və bu məqam Birgə Bəyannamədə əksini tapıb. Amma…

Yada salaq ki, 44 günlük müharibənin yekunlarını təsdiqləyən Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın da Naxçıvana yolun maneəsizliyinin vurğulandığı müddəası var. Deməli, rəsmi İrəvan üzərində dayandığımız prinsipiallığın sülhün başlıca simgəsi olduğunu nəzərə almalıdır. Elə isə Mirzoyanın dediklərinə diqqət yetirək.

“TRIPP məsələsinə gəldikdə, biz hazırda sənədlərin razılaşdırılması mərhələsindəyik… Nəticədə, güman edirəm ki, hökumətlərarası sazişə bənzər bir sənəd ortaya çıxmalıdır. Bundan sonra isə pay bölgüsü ilə erməni-amerikan birgə müəssisəsi yaradılacaq və investorlar cəlb olunacaq. Biz demişdik ki, ilin sonuna, hətta ilin ikinci yarısında müəyyən tikinti işlərinə başlamaq istəyirik. Bunun nə dərəcədə real olduğunu bilmirəm, bu, sadəcə istək idi”, – deyən Mirzoyan əlavə edib ki, Yaxın Şərqdə vəziyyətin gərginləşməsindən sonrakı son 30 gün ərzində İran sərhədinə yaxın ərazidə çəkilməsi planlaşdırılan “Tramp marşrutu” ilə bağlı fikir mübadiləsi aparılıb.

Erməni XİN rəhbərinin dediklərinin müəyyən qismi əvvəl də erməni rəsmiləri tərəfindən səslənib. Mirzoyanın “sadəcə istək” məntiqinə gəlincə, məsələ istəməkdə yox, öhdəliyin yerinə yetirilməsindədir. Əlbəttə, ABŞ və İsraili İrana qarşı hərbi əməliyyatları nəticəsində yaranmış durumun gərginliyini dərk edirik. Müharibə hədinə çatmış vəziyyətin nə vaxtadək sürəcəyi, sabitləşib-sabitləşməyəcəyi qeyri-müəyyəndir.

Amma söhbət Naxçıvana maneəsiz yoldan, təxminən 40 kilometrdən bir qədər artıq məsafədən gedirsə, bunun üçün nəyisə gözləməyə ehtiyac yoxdur. Başqa sözlə desək, Mirzoyanın haqqında söz açdığı erməni-amerikan birgə şirkəti sonra da yaradıla bilər. Əsas olan sözügedən yolun funksionallığının təmin edilməsidir. Çünki bu funksionallıqdan sülhün özü asılıdır. Nəzərə alaq ki, Azərbaycanın Ermənistan üçün daşımalarda tranzit funksiyasını yerinə yetirməsi heç bir sənəddə əksini tapmır. Ölkəmiz bunu xoşməramlı jest kimi edir.

Bəli, 8 avqust 2025-ci il tarixli Vaşinqton Birgə Bəyannaməsi barış mühiti baxımından beynəlxalq təminat deməkdirsə, belə bir mühitin prinsipial tərəfi bilavasitə həmin sənədə istinad olunmadan da dərk edilməlidir. Yəni bu, mümkündür. A.Mirzoyanın dediklərindən gəlinən qənaət isə belə deməyə əsas verir ki, İrandakı müharibə şəraiti uzandıqca, Naxçıvana yol məsələsi də uzanacaq. Yolverilməzlik bundadır. O zaman aydındır ki, Azərbaycan vasitəsilə Ermənistana yüklərin daşınması da daimi ola bilməz.

Sözümüz ondadır ki, Azərbaycan və Ermənistan öz aralarında danışıq aparıb Naxçıvana maneəsiz yol yarada, o cümlədən regional kommunikasiyaların açılması xüsusundakı digər məsələləri həll edə bilərlər. Sərhədlərin delimitasiyasını və demarkasiyasını həyata keçirdikləri kimi. Bunun üçün kiməsə və ya nəyisə gözləməyə ehtiyac yoxdur.

Bir daha bildirək ki, söhbət 40 kilometrdən bir qədər artıq olan məsafədən gedir. O məsafə ki, Azərbaycan onun suveren Ermənistanın ərazisi olduğunu tanıyır. Mövcud durumda Ermənistanın üzərinə düşən Azərbaycanın Naxçıvana maneəsiz yol haqqını tanımaqdır, əməli addımlar atmaqdır. Burada anlaşılmayacaq hansısa durum yoxdur. Vəziyyəti mürəkkəbləşdirməyə dəyməz.



Vəziyyəti mürəkkəbləşdirməyin lazımsızlığını əbəs yerə vurğulamadıq. Məsələ ondadır ki, Ermənistan 2020-ci ildən başlayaraq həmişə bunu edib. Çalışıb ki, Azərbaycanın Naxçıvana maneəsiz yolu olmasın. Bu məqsədlə ölkənin ərazi bütövlüyünün və suverenliyinin toxunulmazlığı klişelərini uyduran da rəsmi İrəvan olub. Erməni hakim dirələri, hətta, Azərbaycanı işğalçı qismində təqdim etməyə cəhd göstərib, mövcud istiqamətdə beynəlxalq böhtan kampaniyaları da aparıblar.

Bundan başqa, Ermənistan hakimiyyətinin Azərbaycana qarşı “Dünyanın kəsişməsi” avantürasını ortaya atmasından da xəbərdarıq. O avantüra ki, məqsədi Naxçıvana maneəsiz yola qarşı çıxmaq idi. Rəsmi İrəvanın təmsilçilərinin “Dünyanın kəsişməsi”ni necə əsaslandırmalarından, nə cür bəzək-düzək vermələrindən asılı olmayaraq, mahiyyət bu idi.

Bildirdiklərimizin fonunda A.Mirzoyanın məğzində Naxçıvana maneəsiz yolun dayandığı TRIPP barədəki qeyri-müəyyənlik tonu, istər-istəməz, şübhə yaradır. Elə təəssürat formalaşır ki, İrandakı müharibə rəsmi İrəvan üçün qlobal layihəni reallaşdırmamaq üçün bəhanədir. Halbuki, belə yanaşma tam yolverilməzdir. Ona görə yolverilməzdir ki, Naxçıvana maneəsiz yolun olmaması sülh mühitini şübhə altına alır. Bu yerdə Ermənistanın baş naziri Nikol Paşinyanın ölkəsinin xəritəsinin əks olunduğu döş nişanını taxıb sülh çarçısı kimi küçə-küçə gəzməsinin əhəmiyyəti qalmır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Böyük Qayıdışa qapı açan Aprel savaşı

## *Döyüşlərdə xüsusi təyinatlılar düşmənə ağır zərbə vurmuşdu*



**2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərə gedən yolda ilk addım kimi qəbul edilən Aprel döyüşlərinin 10-cu ildönümü tamam olur. Həmin döyüşlər özünün miqyasına görə 1994-cü il mayın 12-də əldə edilmiş atəşkəs haqqında sazişdən sonra Ermənistan–Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş ən böyük hərbi qarşıdurma idi.**

2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunurdu. Doğrudur, rəsmi İrəvan danışıqlardan vaxt qazanmaq, status-kvonu möhkəmlətmək üçün istifadə edirdi. İllərdir davam edən danışıqların hansısa real nəticə verəcəyinə Azərbaycan cəmiyyətində ümid get-gedə azalırdı. Ancaq bununla belə, şiddətli döyüşlərin baş verəcəyi də az ehtimal olunurdu. Üstəlik, həmin günlərdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın o vaxtkı prezidenti, bədnam Serj Sarkisyan ABŞ-da Nüvə Təhlükəsizliyi Sammitində iştiraklarını başa vuraraq geri qayıdırdılar. Belə bir məqamda – aprelin 1-dən 2-nə keçən gecə və gün ərzində bütün cəbhə boyu mövqelərimiz və yaşayış məntəqələrimiz işğalçı ordunun və onun Qarabağdakı əldəqayırma xunta rejiminin "müdafiə ordusu"nun qüvvələri tərəfindən güclü artilleriya atəşinə məruz qaldı. Nəticədə dinc sakinlərdən 2-si həlak oldu, 10 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri aldı. Ağdərə–Tərtər–Ağdam və Xocavənd–Füzuli istiqamətində yerləşən birliklərimizin, artilleriya bölmələrimizin və digər qoşun növlərimizin birgə, əlaqəli fəaliyyəti nəticəsində qısa müddətdə işğalçı ordunun bölmələrinə qarşı cavab tədbirləri həyata keçirildi. Yeri gəlmişkən, qeyd edək ki, müdafiə naziri, general-polkovnik Zakir Həsənov 2019-cu ildə verdiyi müsahibədə Azərbaycan Ordusunun düşmənin illər ərzində qurduğu "Ohanyan səddi"ni cəmi 18 dəqiqəyə yardığını bildirmişdi.

Döyüşlər ordumuzun qəti qələbəsi ilə nəticələndi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan və ermənilərin "Madagiz" yarlığı yapışdırdıqları Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində bəzi mövqelər düşməndən azad olundu. Bununla da Ermənistanın hərbi cinayətkar rəhbərlərinin keçilməz erməni səngərləri haqqında mifləri alt-üst edildi. İşğalçı ordu aprelin 4-də itirilmiş mövqelərini geri qaytarmaq məqsədilə Ağdərə–Tərtər və Xocavənd–Füzuli istiqamətlərində mövqelərimizə yenidən hücum etdi, təmas xəttinə yaxın yaşayış məntəqələrimizi intensiv atəşə tutdu. Amma hərbçilərimizin şücaəti qarşısında düşmən məqsədinə nail ola bilmədi. Onların əlavə qüvvələr göndərməklə hücumu davam etdirmək planı da uğursuzluğa düçar oldu. Hazırlıqlı bölmələrimiz tərəfindən düşmənin strateji baxımdan əhəmiyyətli Suqovuşan məntəqəsindəki hərbi bazasının qərargahına və erməni könüllülərini daşıyan avtobusa zərbə endirildi. Əməliyyat zamanı Ermənistan silahlı qüvvələrinin Ağdərə, Suqovuşan və digər yaşayış məntəqələrindən hərəkətə gətirmək istədiyi ehtiyat qüvvələri bölmələrimiz tərəfindən önləyici zərbələrlə dağıdıldı.

*

Əlbəttə, Aprel döyüşlərindəki qələbə bütövlükdə Azərbaycan xalqının, onun nizami ordusunun qələbəsidir. Döyüşlərdə Quru Qoşunlarının 1-ci və 2-ci ordu korpusları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri iştirak ediblər. Onların sıralarında şücaət göstərən, qazi olan və şəhidlik zirvəsinə ucalan Vətən övladları var. Aprel döyüşləri həmin vaxtadək fəaliyyəti ictimaiyyətə əsasən gizli qalan Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) də nəyə qadir olduğunu ölkəmizin vətəndaşlarına, işğalçı Ermənistana və xaricdəki havadarlarına aydın şəkildə nümayiş etdirdi. Ordumuzun xüsusi qoşun növü olan XTQ-nin vəzifəsi Azərbaycan dövlətinə qarşı müharibəyə hazırlaşan respublikanın sərhədləri daxilində, hərbi əməliyyatlar aparan ölkələrin ərazisində və düşmən arxasında xüsusi tapşırıqları yerinə yetirməkdir. XTQ 1999-cu il aprelin 30-da ulu öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycan Ordusunun ən çevik və yüksək döyüş qabiliyyətinə malik bölmələrindən biri kimi yaradılıb. XTQ-nin formalaşmasında Birinci Qarabağ müharibəsinin iştirakçıları olan zabit və gizirlər fəal iştirak ediblər. Ulu öndər tərəfindən vahid komandanlıq altında birləşdirilən Azərbaycan Ordusunun bu bölmələri Türkiyə Silahlı Qüvvələri və onun Xüsusi Təyinatlı Qüvvələri ilə sıx əməkdaşlıq şəraitində formalaşdırılıb. Müdafiə Nazirliyinin saytında yerləşdirilmiş materialda bildirilib ki, XTQ-nin şəxsi heyəti 2012–2016-cı illərdə həm təmas xəttində, həm də düşmən arxasında qarşıya qoyulmuş bütün döyüş tapşırıqlarını uğurla icra edib, düşmənin çoxlu sayda canlı qüvvəsi və texnikasını məhv edərək misilsiz qəhrəmanlıqlar göstəib, onun döyüş ruhunu sarsıdaraq ciddi psixoloji gərginlik və təşviş yaradıb. Aprel döyüşləri zamanı isə XTQ mənsubları düşmənin təxribatlarına cavab olaraq keçirilən əməliyyatlarda mühüm vəzifələri yerinə yetirib, düşmənin çoxsaylı canlı qüvvəsini məhv edərək geri çəkilməyə məcbur edib. Həmin vaxt işğal altında olan Ağdərə rayonunun hektarlarla ərazisinin, mühüm mövqelərin və yüksəkliklərin azad olunmasında, eləcə də bir neçə hektar ərazinin ordumuzun nəzarətinə keçməsində XTQ mühüm rol oynayıb. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev XTQ-yə yüksək diqqət yetirir. Onların fəaliyyəti, təchizatı, gündəlik məşqləri mütəmadi nəzarətdədir. XTQ komandanlığındakı kurslara namizədlərin seçimi və qəbulu xüsusi prosedurlara uyğun könüllülük əsasında həyata keçirilir. Qəbul zamanı namizədlərin mənəvi-psixoloji keyfiyyətləri, sağlamlıq vəziyyəti, fiziki hazırlığı və nəzəri biliklərinin qiymətləndirilməsi aparılır. XTQ-nin şəxsi heyəti yüksək döyüş hazırlığı, fiziki dözümlülük, çeviklik, analitik düşüncə və qətiyyət nümayiş etdirməklə, çətin şəraitdə uğur əldə etməyə qadirdir. Onlar döyüşdə təkcə silah gücünə deyil, eyni zamanda, taktiki düşüncə, peşəkarlığa və mənəvi-psixoloji dayanıqlılığa əsaslanaraq uğurlar əldə ediblər. XTQ-də əlbəyaxa döyüş, dərin kəşfiyyat, düşmən arxasına keçmə, həyatdaqalma, mühəndis, atəş, psixoloji, desant, dalğıc, tibbi, asimmetrik döyüş və sair kimi hazırlıqlar üzrə təlimlər keçirilir. Mübaliğəsiz demək olar ki, XTQ-nin şəxsi heyəti Aprel döyüşlərində Azərbaycan hərb tarixinə yeni qəhrəmanlıq səhifələri yazıblar.

Ali Baş Komandan İlham Əliyev 2022-ci il aprelin 30-da – XTQ-nin yaradılmasının 23-cü ildönümü münasibətilə XTQ-nin "N" saylı hərbi hissəsinin şəxsi heyəti qarşısında çıxışı zamanı deyib: "İyirmi üç il əvvəl ulu öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycanda Xüsusi Təyinatlı Qüvvələr yaradılmışdır. Ulu öndər bu fərmanı imzalamaqla növbəti dəfə böyük uzaqgörənlik göstərmişdir. Xüsusi Təyinatlı Qüvvələrin yaradılması İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərimizdə də özünü sübut etdi. Ulu öndərin ordu quruculuğu sahəsində gördüyü işlərin nəticəsində Azərbaycan Ordusu demək olar ki, sıfırdan yaranmağa başlamışdır və illər keçdikcə ordumuz öz gücünü artırmışdır. Bunu biz işğal dövründə müxtəlif zamanlarda görmüşük, o cümlədən Aprel döyüşlərində. Aprel döyüşləri işğalçılar üçün bir mesaj, bir siqnal idi ki, işğala son qoyun, torpaqlarımızdan çıxın, rədd olun. Bizim Aprel döyüşlərindəki qələbəmizdə xüsusi təyinatlıların çox böyük xidmətləri olmuşdur. Ancaq əfsuslar ki, Aprel hadisələri işğalçılar üçün dərs olmadı. Onlar işğalı əbədiləşdirmək üçün öz səylərini davam etdirdilər və işğalı əbədi etmək üçün Azərbaycana, Azərbaycan Silahlı Qüvvələrinə hədə-qorxu gəlməyə davam etdilər..." Onu da bildirək ki, xüsusi təyinatlılara verilən tapşırıqlar hər zaman çətin və riskli olması ilə seçilir. Onlar dağlıq, meşəlik və sərt iqlim şəraitində, düşmən arxasında, gizli şəkildə yüksək səviyyəli tapşırıqları uğurla yerinə yetirərək öz peşəkarlığını sübut ediblər. XTQ-nin bir qrup şəxsi heyəti Milli Qəhrəman və Vətən Müharibəsi Qəhrəmanı adlarına layiq görülüb, həmçinin çox sayda orden və medallarla təltif olunublar. XTQ istənilən döyüş tapşırığını icra etməyə, Vətənə və Ali Baş Komandana sədaqətlə xidmət göstərməyə hazır və qadir qüvvədir.

***Səxavət HƏMİD***
***XQ***

# Gürcüstanda demoqrafik "SOS!"

**Son illər region ölkələrində demoqrafik proseslər ciddi müzakirə mövzusuna çevrilib. Əhali artımının zəifləməsi, doğum səviyyəsinin aşağı düşməsi və orta yaş həddinin yüksəlməsi yalnız sosial deyil, həm də iqtisadi və milli təhlükəsizlik məsələsi kimi qiymətləndirilir. Xüsusilə Gürcüstanda müşahidə olunan tendensiyalar bu baxımdan diqqəti cəlb edir və gələcək üçün ciddi siqnallar verir.**



Rəsmi statistik məlumatlar vəziyyətin düşündüyümüzdən də ciddi olduğunu göstərir. 2025-ci ildə Gürcüstanda cəmi 37 min 867 uşaq doğulub ki, bu, son 32 ilin ən aşağı göstəricisidir və əvvəlki ilə nisbətən 1 616 nəfər azdır. Müqayisə üçün qeyd edək ki, ölkədə doğumun pik həddi 2014-cü ildə qeydə alınıb və həmin il 60 min 635 uşaq dünyaya gəlib. Sonrakı illərdə doğum səviyyəsi, demək olar ki, hər il azalma tendensiyası göstərib, ölüm halları isə artıb. Nəticədə ölüm və doğum arasında ciddi fərq yaranıb: 2025-ci ildə 44 min 319 ölüm halı qeydə alınıb, yəni ölüm halları doğumu 6 min 452 nəfər üstələyib. Beləliklə, artıq son illər Gürcüstanda ölüm səviyyəsi doğumu üstələyir və bu fakt ümumi demoqrafik geriləməni dərinləşdirir.

Diqqətçəkən məqamlardan biri odur ki, təbii artım yalnız Tbilisi, Acariya və Kvemo Kartli bölgələrində müşahidə olunur. Digər bütün regionlarda isə ölüm halları doğumları üstələyir. Ən böyük mənfi fərq İmereti regionunda qeydə alınıb və təxminən 2,9 min nəfərdir. Samqrelo-Zemo Svaneti bölgəsində bu rəqəm 2,2 min, Kaxetidə isə 1,4 min nəfər təşkil edib.

Mütəxəssislər doğum səviyyəsinin azalmasının əsas səbəblərindən biri kimi reproduktiv yaşda olan əhalinin xaricə miqrasiyasını göstərirlər. Gənc ailələr daha yaxşı iqtisadi imkanlar axtararaq ölkəni tərk edir və uşaqlarını xaricdə dünyaya gətirirlər. Bu isə bir tərəfdən Gürcüstanın demoqrafik statistikasında itkilərə, digər tərəfdən isə əhalinin yaş strukturunun dəyişməsinə və qocalma prosesinin sürətlənməsinə səbəb olur.

Urbanizasiya də vəziyyəti ağırlaşdıran amillərdəndir. Əhalinin böyük hissəsinin Tbilisi və Batumi kimi iri şəhərlərdə cəmləşməsi və mənzil qiymətlərinin sürətlə artması gənclərin ailə qurmasını və çoxuşaqlı olmasını çətinləşdirir. Regionlarda isə kəndlərin boşalması və iqtisadi fəallığın azalması müşahidə olunur.

Bu barədə **sosioloq və iqtisadçı Paata Aroşidze** XQ-yə bildirdi ki, ölkədə pensiya yaşında olan insanların sayı sürətlə artır, yeni nəsil isə əmək bazarında azalır. Bu isə həm iqtisadi, həm də demoqrafik itkilərə səbəb olur. Aroşidze qeyd etdi ki, yaşlı insanların sayı əhalinin ümumi sayında artdıqca ölkə qocalır və yeni doğulan uşaqlar bu prosesi kompensasiya edə bilmir: "Son 5 ildə pensiyaçıların sayı 4 faiz artıb. Əgər bu temp davam edərsə, 15–20 ildən sonra vəziyyət ciddi narahatlıq doğuracaq". O əlavə etdi ki, kənd təsərrüfatı sahəsi xüsusilə təsirlənib, çünki gənclər kəndləri tərk edib şəhərlərə köçür, yeni işçi qüvvəsi isə fermer təsərrüfatlarına gəlmir. Nəticədə kəndlər əsasən 60–65 yaşdan yuxarı insanlar üzərində formalaşır və məhsuldarlıq azalır.

Aroşidze onu da vurğuladı ki, bu tendensiya məktəblərə, təhsil müəssisələrinə, müdafiə qabiliyyətinə və ümumilikdə iqtisadi inkişafın müxtəlif sahələrinə mənfi təsir göstərəcək: "Əgər proses dönüşsüz olarsa, bir neçə il ərzində gürcü millətinin mövcudluğu sual altında qala bilər. Xüsusilə, gürcülər xaricə gedir və onların yerinə xaricilər gəlir".

Bununla yanaşı, repatriasiya məsələsi də gündəmdədir. Hakimiyyət xaricdə yaşayan etnik gürcülərin geri qayıtmasına çalışır və onların vətəndaşlıq alması prosesini sadələşdirir. Lakin ekspertlər hesab edirlər ki, bu, demoqrafik vəziyyəti köklü şəkildə dəyişməyə kifayət etməyəcək, çünki geri qayıdanların əksəriyyəti artıq Qərb həyat tərzinə uyğunlaşmış və ənənəvi çoxuşaqlı ailə modelindən uzaqdır. Müasir mərhələdə demoqrafik dinamika təkcə doğum və ölüm göstəriciləri ilə məhdudlaşmır; əmək miqrasiyası da əsas təsir amilinə çevrilib. Əvvəllər əhali azalması əsasən doğumun azalması və ölüm hallarının artması ilə izah olunurdusa, indi miqrasiya faktoru daha qabarıq hiss olunur.

Gürcü demoqrafları artıq bir neçə ildir həyəcan təbili çalır və hakimiyyəti demoqrafik fəlakətin qarşısını almaq üçün zəruri tədbirlər görməyə çağırırlar. Miqrasiyanın əhali azalmasına təsir göstərdiyini ekspertlər dəfələrlə vurğulayıblar. Demoqraf Avtandil Sulaberidze bildirir ki, təhsil üçün xaricə gedən gənclərin böyük hissəsi vətənə qayıtmır, xaricdə işləməyi üstün tutur ki, bu da ölkənin həm demoqrafik, həm də iqtisadi vəziyyətinə mənfi təsir göstərir.

Demoqraf Tamara Çiburdanidze isə bütün media vasitələrini bu problemi ictimaiyyətə çatdırmağa çağırıb. "Ölkə böyük milli təhlükə ilə üz-üzədir" – deyən ekspert bildirib ki, hazırda uşaq doğmaq yaşında olan qadınların sayı təxminən iki dəfə azdır. Gürcüstanda ümumi doğum əmsalı 1,61 səviyyəsindədir ki, bu da əhalinin sadə təkrar istehsalı üçün tələb olunan minimumdan xeyli aşağıdır. Bu amillərin təsiridir ki, ölkədə gürcülərin sayı azalır. Bunu rəqəmlər də təsdiqləyir. Məsələn, 1989-cu ildə Gürcüstanda 3 milyon 787 min gürcü yaşayırdısa, 2014-cü ildə onların sayı 3 milyon 224 min nəfərə düşüb.

Gürcüstanda demoqrafik vəziyyətə təsir edən əsas amillərdən biri də etnik azlıqların, xüsusilə azərbaycanlıların miqrasiyasıdır. SSRİ dağılandan sonra baş verən sosial-iqtisadi dəyişikliklər və siyasi transformasiyalar bu prosesə ciddi təsir göstərib. 1990-cı illərdə iqtisadi böhran, işsizliyin artması və kənd təsərrüfatında geriləmə azərbaycanlıların geniş miqrasiyasına səbəb olub. Dil baryeri və inteqrasiya problemləri də mühüm rol oynayıb. Torpaq islahatları da əhali strukturuna təsir edən əsas amillərdəndir. 1990-cı illərdə azərbaycanlı ailələrin daha az torpaq payı alması onların iqtisadi dayanıqlılığını zəiflətdiyi kimi, miqrasiyanı da sürətləndirib. Eyni zamanda, inzibati və siyasi qərarlar, o cümlədən toponimlərin dəyişdirilməsi və bəzi hallarda siyasi təzyiq etnik azlıqlar arasında narahatlıq yaratmışdır.

Ümumiyyətlə, azərbaycanlı əhalinin Gürcüstandan miqrasiyası təkcə sosial-iqtisadi deyil, həm də siyasi və institusional amillərin təsiri altında formalaşmış kompleks prosesdir. Bu amillər uzunmüddətli perspektivdə ölkənin demoqrafik strukturuna təsir göstərib, regionlar üzrə əhali balansının dəyişməsinə və ümumi demoqrafik dinamikanın zəifləməsinə səbəb olub. Əgər 1989-cu ildə bu ölkədə 377 min 556 azərbaycanlı yaşayırdısa, 2014-cü ildə onların sayı 233 min 24 nəfər təşkil edib.

Proqnozlar isə daha narahatedicidir. Mütəxəssislərin hesablamalarına görə, mövcud tendensiya davam edərsə, 2050-ci ilə qədər Gürcüstan əhalisi təxminən 28 faiz azalacaq. Bu azalma əsasən etnik gürcülərin payına düşəcək ki, bu da hakimiyyət tərəfindən milli miqyaslı təhlükə kimi qiymətləndirilir. Mövcud vəziyyətin ən narahatedici tərəfi isə problemin miqyasına adekvat tədbirlərin yetərincə görülməməsidir. Dövlət səviyyəsində vəziyyətin ağır olduğu etiraf edilsə də, səbəblər və həll yolları ətrafında vahid və sistemli yanaşma formalaşmayıb.

Bütün bunların fonunda aydın olur ki, demoqrafik böhran spontan şəkildə həll olunan məsələ deyil. Bu, uzunmüddətli, kompleks və məqsədyönlü dövlət siyasəti tələb edir. Beynəlxalq təcrübə göstərir ki, ailələrin sosial rifahını artıran, gənclərin ölkədə qalmasını stimullaşdıran və doğumu təşviq edən real iqtisadi mexanizmlər olmadan vəziyyəti dəyişmək mümkün deyil.

***P.ƏFƏNDİ***
***XQ***

*Replika*

# Balanssız harmoniya

## Yaxud endirilən bayraqlar

**Əksər hallarda bir ölkənin siyasi məkanında müşahidə olunan proseslər tədricən dərinləşən parçalanmanın izlərini aşkara çıxarır. Həmin izlər bəzən institusional qərarların dəyişməsində və simvolların yenidən mənalandırılmasında özünü göstərir. Eynilə Fransada bələdiyyə binalarından Avropa İttifaqı bayraqlarının endirilməsi kimi.**

Hadisə tarixin və ideologiyanın qovşağında yaranan "fransızsayağı xəyanət" anlayışının müasir təcəssümü kimi də dəyərləndirilə bilər. Ölkənin xarici işlər naziri Jan-Noel Barro bu addımı "xəyanət" kimi qiymətləndirərkən, əslində, bütöv bir fəlsəfi problemi işarələyir. Nəzərə alsaq ki, Avropa



İttifaqı Fransanın iradəsi ilə qurulub, onu inkar etmək Avropanın özünü inkar etməsi anlamına gəlir.

Görünür, son dövrlər Fransada yüksələn "Milli Birlik" kimi partiyaların ideoloji xətti immiqrasiya və suverenlik mövzuları ilə yanaşı, simvolların yenidən mənalandırılması məsələsini də diqqətdə saxlayır. Təsadüfi deyil ki, partiyanın seçilmiş nümayəndələri Kristof Bartes, Brayn Masson və Karla Muti kimi fiqurlar da bələdiyyə binalarında tək Fransa bayrağını saxlamaqla yeni siyasi simvolika yaradırlar. Əslində, fransız siyasi düşüncəsində xəyanət anlayışı çox zaman dövlətə, respublikaya və ya kollektiv ideala qarşı yönəlmiş davranışları təsvir edir. İndi "xəyanət" anlayışı artıq ideoloji müstəviyə keçib.

Bu məqamda ədəbiyyata müraciət etmək yerinə düşər. Fransız nəsrinin ən güclü metaforlarından biri "Səfillər" əsərində Viktor Hüqonun təsvir etdiyi daxili mübarizə ölkədəki vəziyyətlə qismən üst-üstə düşür. Jan Valjanın keçmişi ilə gələcəyi arasındakı mübarizəsi bütöv bir cəmiyyətin vicdanını təmsil edir. Daha dəqiq desək, bu gün Fransa Aİ ilə münasibətlərində sanki Jan Valjan kimi keçmişi ilə hesablaşır. Əsərdə Jan Valjanın özünü yenidən kəşf etməsi daha çox yeni bir kimlik yaratması kimi təqdim olunur. Bu baxımdan, bələdiyyə binalarından Aİ bayrağının endirilməsi də oxşar interpretasiyaya açıqdır.

Barrot iddia edir ki, Avropa kimliyi milli kimliyi ləğv etmir. Məlumdur ki, praktik siyasətdə balansın qorunması hər zaman mümkün olmur. Xüsusilə də populist dalğaların gücləndiyi dövrdə kimlik siyasəti emosiyaların üzərində qurulur, rasionallıq kölgədə qalır. Diqqətçəkən başqa bir məqam isə simvollar arasındakı mübarizədir. Aİ bayrağı ideologiyanın konsentrat forması hesab olunur və sülh, inteqrasiya, kollektiv güc ideyasını təmsil edir. Onun endirilməsi isə bu ideyaların sorğulanmasıdır. Yaxud bir növ vizual bəyanatdır. Amma hadisəni, sadəcə, Fransanın daxili siyasəti kimi qiymətləndirmək də yanlış olardı. Çünki prosesin arxasında Avropa böhranı gizlənir. "Qoca qitə" artıq öz daxilində parçalanma potensialını daşıyır.

Ümumən tarix bizə öyrədir ki, hər böyük birliyin daxilində ziddiyyətlər kifayət qədərdir. Roma imperiyası da belə idi, Sovet İttifaqı da. Bu baxımdan, Aİ də sözügedən tarixi qanunun istisnası deyil. Bütün bunlarla yanaşı, fərqli fikirlər yenə də mövcuddur. Maraqlıdır ki, bəzi analitiklər prosesi demokratik ifadə azadlığının təzahürü kimi qiymətləndirir. Axı seçilmiş merlər öz bələdiyyələrində öz baxışlarını tətbiq edirlər. Məsələ ondadır ki, fərdi seçim ilə kollektiv simvolun inkarı arasında incə bir məqam gizlənir. Həmin məqam gözardı edildikdə proses qlobal əhəmiyyət kəsb etməyə başlayır.

Fransa uzun illərdir ki, universalizm ideyasını müdafiə edir. Həmin ideya insanın milli, dini və ya etnik kimliyindən daha üstün bir "ümumi insanlıq" anlayışını irəli sürür. Lakin universalizm, bəzən yerli kimliklərin təzyiq altında qalmasına səbəb olur. Nəticədə əks reaksiyalar yaranır və bu reaksiyalar çox zaman "xəyanət" kimi damğalanır. Yəni Barrotun "xəyanət" ittihamlarının özü də bir ritorik vasitədir.

Belə hadisələr təkcə Fransada cərəyan etmir. Polşada Beata Şidlonun dövründə Aİ bayrağı rəsmi strukturlardan kənarlaşdırılmışdı. Yəni sözügedən tendensiya artıq qitə miqyasında müşahidə olunan siyasi fenomenə çevrilib. Görünür, biz böyük bir ideoloji dönüşə şahidlik edirik. Bu dönüş bir növ "kimliklərin qarşılıqlı təzyiqi" kimi də xarakterizə oluna bilər. Milli kimlik Avropa kimliyinə qarşı çıxır, Avropa kimliyi isə milli kimliyi inteqrasiya etməyə çalışır. Nəticədə balanssız harmoniya yaranır. Bu harmoniya bəzən dağılır, bəzən yenidən qurulur, amma heç vaxt tam sabit olmur.

Sonda belə bir dilemma yaranır. Cərəyan edən hadisələr həqiqətən xəyanətdirmi, yoxsa, sadəcə, Avropanın özünü yenidən kəşfetmə prosesinin bir hissəsidirmi? Bəlkə də bu sualın cavabı nə tam bir "hə"dir, nə də tam bir "yox"...

***Nəzrin ELDARQIZI***
***XQ***

# Regional və qlobal əməkdaşlıqda Azərbaycan təcrübəsi



## II MƏQALƏ

### Regional miqyasda təcrübə

Azərbaycan Prezidentinin dövlətimiz üçün regional təhlükəsizliyin çox önəmli olduğu haqqında tezisi irəli sürməkdə tam əsası vardır. Çünki təcrübə sübut edir ki, rəsmi Bakı praktiki fəaliyyətində bu məsələyə böyük diqqət yetirmişdir. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi müddətində regional təhlükəsizliyi xarici siyasətin əsas istiqamətlərindən biri kimi müəyyən etmişdir. Prezident İlham Əliyev xarici siyasətin bu özəlliyini uğurla inkişaf etdirmişdir. Buna görədir ki, dövlət başçısının XIII Qlobal Bakı Forumunda ifadə etdiyi aşağıdakı fikirlərin çox əsaslı semantik anlamı vardır.

Prezident İlham Əliyev demişdir: "Biz Ermənistanla sülhə nail olduq, – biz deyərkən Azərbaycanı nəzərdə tuturam, – israr etdik ki, bunu vasitəçilərsiz təmin edək. Özlərini Minsk qrupu adlandıran vasitəçilərin 28 illik fəaliyyəti bir fəlakət idi. Həmsədrlərin məqsədi münaqişəni dondurmaq, onu əbədiləşdirmək və hər iki ölkəyə qarşı təzyiq aləti kimi istifadə etmək idi. Biz qərara gəldik ki, bu dırnaqarası vasitəçilikdən qurtulmalıyıq və ikitərəfli formatda – heç bir üçüncü tərəf olmadan fəaliyyətə başlayan kimi sülhə nail olduq. Beləliklə, bu bir təcrübədir və bu, sadəcə, nəzəriyyə deyil, bu, bizim yaşadığımız, indi isə şahid olduğumuz bir reallıqdır. Hesab edirəm ki, mövcud münaqişələrin həlli istiqamətində çalışarkən bu məsələ mütləq nəzərə alınacaq".

Azərbaycan lideri bir xüsusiyyəti ayrıca vurğulayır: Azərbaycan dövlət olaraq sülhə nail olmaq xəttini seçmişdir: "biz deyərkən Azərbaycanı nəzərdə tuturam". Həmin məqsədə nail olmaq üçün isə ölkə rəhbəri konkret fəaliyyət istiqamətini dəqiq müəyyən etmişdir – ATƏT-in artıq keçmiş olan Minsk Qrupunun yararsız vasitəçiliyindən qurtularaq, birbaşa ikitərəfli formata keçmək. Bunun üçün öncə hərb meydanında təcavüzkarı məğlub etmək lazım idi. Azərbaycan buna nail oldu. Postmüharibə mərhələsində isə dərhal ikitərəfli formatda, yəni heç bir üçüncü tərəf olmadan Ermənistanla münasibətləri normallaşdırmaq fəaliyyətinə başladı və sülhə nail oldu.

Sözün həqiqi mənasında, bu, çox qiymətli siyasi təcrübədir, indi... şahid olduğumuz bir reallıqdır". Həmin keyfiyyətdə Azərbaycanın sülhə nail olmaq təcrübəsi hərtərəfli surətdə "mövcud münaqişələrin həlli istiqamətində çalışarkən ...mütləq nəzərə alınacaq"!

Burada siyasi baxımdan çox qiymətli məqamlardan biri Azərbaycanın dövlət olaraq məcburən tətbiq etdiyi hərbi güc aspektindən məharətlə siyasi-diplomatik fəaliyyət müstəvisinə keçid edərək, sülhü bütün region üçün qazandırmaq qabiliyyətinə malik olması ilə bağlıdır. Belə bir transformasiya müasir müstəqil dövlətçilikdə "güc" anlayışına da yeni məna çaları verir.

### Dövlətin "sülhyaratma gücü"

Müstəqil dövlətin sülhyaratma gücü anlayışının məna transformasiyasına uğradığı şübhə doğurmur. Ümumiyyətlə, müasir mərhələdə dövlətin hərbi gücü tam olaraq onun gücünü ifadə etmir. Burada əsas prinsip dövlətin hərbi gücünün qarşıya qoyulan məqsədə çatmaq üçün yetərli olması ilə bağlıdır. Dövlət hərbi faktordan səmərəli istifadə edib uğur qazanırsa, bu, artıq ciddi təməl təşkil edir.

Lakin indiki mərhələdə dövlətin sülhyaratma gücünə onun siyasi, diplomatik, psixoloji, təbliğati, informasiya və təşviqi məharətləri də daxildir. Vurğulanan faktorlar sistem halında müstəqil dövlətin sülhyaratma gücünü təşkil edirlər.

Burada hərbi mərhələdən siyasi-diplomatik fəaliyyət istiqamətinə keçid edəndə dövlət çox dəqiq və birbaşa hədəfə yönəlmiş addımlar atmalıdır. Prosesin sülhyaratma kontekstində çox mühüm mərhələsi bu cür keçidi liderin necə reallaşdırması ilə bağlıdır. Bu mənada, sülh liderin nailiyyətidir və dövlətin qazancıdır.

Belə alınır ki, Cənubi Qafqazın lider dövlətinin sülhyaratma gücü bütövlükdə regional təhlükəsizliyin təmininin təməl faktorudur! Həmin keyfiyyətdə Azərbaycanın təcrübəsinin dünya miqyasında öyrənilməsi son dərəcə aktual məsələdir. Araşdırmaların çox müxtəlif kontekstləri ola bilər. Onların sırasında dövlətin hərbi qələbədən sülhyaratma səviyyəsinə keçidinin davamlı nəticəsi kimi, ümumiyyətlə, regionda sülhü təmin etmək aspekti xüsusi anlama malikdir. Bu məqamda siyasi təcrübə baxımından çox önəmli olan bir xüsusiyyəti vurğulamaq gərəkdir.

### Dayanıqlı sülh mühitinə keçid

Sülhə nail olmaq mərhələsini keçərək dayanıqlı sülh mühitinə regional miqyasda keçid etmək ayrıca siyasi-diplomatik məharət tələb edir. Çünki hərbi qələbəni region deyil, orada yerləşən konkret bir dövlət əldə edir. Deməli, hər şeydən öncə, hərbi qələbə fərdi xarakterli məsələdir. Lakin onun geosiyasi müstəviyə proyeksiyası həmin hərbi qələbənin fərdi kontekstdən çıxarılıb, regional səviyyədə ayanılaşmasını tələb edir. Bu o deməkdir ki, ayrıca bir dövlətin hərbi qələbəsi fərdi özünümüdafiə hadisəsidirsə, onun geosiyasi məna yükü əlavə faktorları da mütləq surətdə özündə ehtiva edir. Regional miqyasda dayanıqlı sülh yalnız hərbi qələbənin bu istiqamətdə uğurlu proyeksiyası sayəsində mümkündür.

Ancaq hərbi qələbənin regional miqyasda uğurlu "geosiyasiləşməsi" liderliyin ən çətin istiqamətlərindən biridir. Bu mənada, dövlətin davamlı və dayanıqlı sülh mühiti yaratmaq təcrübəsi ayrıca anlam kəsb edir.

Azərbaycan Prezidentinin irəli sürdüyü aşağıdakı tezislər vurğulanan mənada dayanıqlı sülh mühitini politoloji dərketmənin mərkəzi punktunu təşkil edir. Dövlət başçısı forumda ifadə etmişdir: "Üçüncü təcrübə isə sülh təcrübəsidir – sülhə necə nail olmaq olar. Bu isə asan iş deyil. Biz görürük ki, uzunmüddətli münaqişələr davam edir və qlobal xəritədə yeni gərginlik nöqtələri yaranır. Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması da nadir bir vəziyyətdir: 2023-cü ilin sentyabrında baş verən son qanlı toqquşmadan 2025-ci ilin avqustunda sülhün əldə edilməsinə qədər müddət iki ildən az çəkdi. Hesab edirəm ki, bu, normallaşmanın görünməmiş sürətidir və güclü siyasi iradənin mövcudluğu və düşmənçiliyin əbədiyyətə qədər davam edə bilməyəcəyinin, müharibənin sona çatmalı olduğunun dərk edilməsi sayəsində mümkün oldu. Bu, iki ölkə tərəfindən verilmiş bir qərar idi və indi biz, qeyd etdiyim kimi, yeddi aydır sülh şəraitində yaşayırıq. Biz artıq sülhün üstünlüklərini görürük. Mən bunu dəfələrlə demişəm və bir daha təkrar edəcəyəm: sülhdən daha yaxşı heç nə yoxdur".

Bu, dövlətin sülhyaratma kontekstində siyasi fəaliyyəti ilə bağlı möhtəşəm qənaətdir. Həm də konkret bir mərhələnin yekunudur. Onun regional sülhyaratma prosesindən qlobal əməkdaşlığa keçid mexanizmləri aspektində aktual cəhətləri mövcuddur. Onları araşdırmaq üçün siyasi təcrübənin vurğulanan üç növünün ortaq semantik sahəsini müəyyən etmək gərəkdir.

### Təməl prinsiplər

Azərbaycan lideri müasir mərhələdə ölkənin siyasi təcrübəsinin formalaşmasının təməl prinsiplərini müəyyən etmişdir. Birinci təməl prinsip XXI əsrdə Azərbaycanın qazandığı siyasi təcrübənin ümumi cəhətini ifadə edir. Həmin prinsip aşağıdakı kimidir.

Birinci prinsip: "İşğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış, suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş, daha sonra isə o zaman məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə olmağımız - hesab edirəm ki, bu, beynəlxalq ictimaiyyətlə paylaşa biləcəyimiz nadir bir təcrübədir. Mən dəfələrlə demişəm ki, biz Ermənistanla sülhü yalnız kağız üzərində əldə etməmişik, sülh sazişi yeddi ay əvvəl paraflandı və birgə bəyanat qəbul olundu. Lakin biz artıq real həyatda sülhü təmin etmişik. Sərhədimizdə sakit vəziyyət hökm sürür, atəş açılmır, artıq heç bir qurban və itki yoxdur" (Azərbaycan Prezidenti İlham Əliyev).

**Bu prinsipin ilk tezisinin semantikası üç hissədən ibarətdir:**

*- işğala, etnik təmizləməyə və soyqırımına məruz qalmış ölkə;*

*- suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini güc tətbiqi ilə bərpa etmiş ölkə;*

*- məğlub olmuş düşmənə sülh təklif etmiş ölkə.*

Onun semantikası təcavüzə məruz qalmış ölkənin güc tətbiqi ilə suverenliyini, ərazi bütövlüyünü və ləyaqətini bərpa etmiş ölkə olmağa transformasiyası və sonrakı mərhələdə məğlub olmuş düşmənə sülh təklif etmiş ölkəyə çevrilməsi ilə bağlıdır.

Deməli, ümumi səviyyədə prosesin semantikası belədir: haqsızlığa uğramış ölkə əvvəlcə suverenliyini, ərazi bütövlüyünü və milli ləyaqətini bərpa etmiş və həmin təməl üzərində məğlub etdiyi ölkəyə "sülh əlini uzatmışdır".

Prinsipin ikinci hissəsinin semantikası isə praktiki gerçəklikdə sülh mühitinin təmin edilməsi ilə əlaqəlidir. Bu əlaməti aşağıdakı cümlə ifadə edir: "...biz artıq real həyatda sülhü təmin etmişik".

Beləliklə, birinci təməl prinsipdə Azərbaycanın siyasi təcrübəsində konseptual səviyyədə müəyyən edilmiş semantik sahənin praktiki müstəviyə uğurlu tətbiqi əksini tapmışdır. Bu cür ümumi başlanğıc özəllikdən digər üç prinsip alınır.

İkinci prinsip: "Biz Ermənistana müxtəlif istiqamətlərdən malların daşınmasına qoyulmuş bütün məhdudiyyətləri aradan qaldırdıq. Hətta Ermənistanla ticarəti bərpa etmişik. Onlar üçün həyati əhəmiyyət kəsb edən neft məhsullarının ixracına başladıq və bununla da göstərdik ki, biz uzunmüddətli deyil, əbədi sülhə sadiqik. Bu, bizim strategiyamız və siyasətimizdir və bir daha onu nümayiş etdirir ki, Azərbaycan sülhsevər ölkədir. İkinci Qarabağ müharibəsi və daha sonra antiterror əməliyyatı zamanı bizi ittiham edənlər ya uzaqgörən deyildilər, ya da qərəzli idilər. Çünki bizim gördüyümüz hər bir iş beynəlxalq hüquqa uyğun idi, biz gücdən istifadə edərək sülhə nail olduq və bu gün bunu nümayiş etdiririk" (Azərbaycan Prezidenti İlham Əliyev).

Siyasi təcrübənin sülh mühitində ayrıca əhəmiyyətli faktoru Azərbaycanın müxtəlif istiqamətlərdən Ermənistana mal daşınmalarının sərbəstləşməsi ilə bağlıdır. Bu proses ümumilikdə regional miqyasda kommunikasiyaların açılmasının qlobal əməkdaşlığa keçid etməyə xidmət göstərməsi fonunda çox maraqlı təsir bağışlayır. Bunu Azərbaycan beynəlxalq hüquqa tam uyğun formada etməkdədir və eyni zamanda, əməkdaşlığın yeni mərhələsinə keçid üçün tam zəmin hazırlamışdır.

Onu vurğulayaq ki, ikinci təməl prinsipin regional miqyasda bir əhəmiyyətli xüsusiyyəti də vardır. O, regional miqyasda sülh, təhlükəsizlik və əməkdaşlığın sintezidir. Sülhə nail olduqdan sonra regional miqyasda əməkdaşlığın elə istiqamətinə üstünlük verilir ki, qlobal əməkdaşlıq üçün geniş yol açılır. Ermənistan hərb meydanında məğlub olduqdan sonra Azərbaycan nəqliyyat-loqistika sferasında ona iki istiqamətdə geniş imkanlar yaratmaq təşəbbüsü ilə çıxış edir.

Birincisi, Ermənistana mal daşınmasındakı məhdudiyyətləri aradan qaldırır.

İkincisi, nəqletmə və loqistika strukturunu elə qurur ki, regional sabitlik və təhlükəsizlik qlobal miqyasda əməkdaşlığa imkanlar yaradır.

Yəni Azərbaycan liderinin ikinci prinsipi Ermənistanla münasibətlərin birbaşa qlobal səviyyəyə yüksəlməsinin sivil "kompası"dır!

Buradan qlobal miqyasda özünü göstərən proseslərin iki mühüm aspektinə aid maraqlı konseptual və realpolitik keçid imkanı meydana gəlir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Ermənistan, sülh təbliğatı və parlament seçkiləri

## *İqtidar nə deyir, müxalifət nə?*

**Sülh. Beynəlxalq aləmin kifayət qədər qarışıq məcrada olduğu, az qala Üçüncü Dünya müharibəsi təhlükəsinin yaşandığı hazırkı zaman kəsiyində Cənubi Qafqaz coğrafiyasında onun mövcudluğunu görmək böyük divididenddir. Ancaq sülhün sabitliyi önəmlidir. Məqsədimiz Ermənistan hakim dairələrinin barış mühiti ilə bağlı ritorikalarına diqqət yetirməkdir. Əlbəttə, başqa məqamlara da nəzər salacağıq.**



Baş nazir Nikol Paşinyan və ətrafındakı şəxslər çox tez-tez regionda sülhün qərarlaşdığını vurğulayırlar. Məlumdur ki, bu cür deyimlər qarşıdan gələn parlament seçkilərinə hesablanıb. O seçkilərə ki, indidən ölüm-dirim mübarizəsinə çevriləcəyi aşkardır və mübarizənin Paşinyana zidd qütbü hazırkı barış şəraitinin etibarlı olmadığından dəm vurur. Bu qütbün nümayəndələri, həmçinin Ermənistanın sabiq iqtidar nümayəndələrinin zamanındakı durumun sülh baxımından daha tutarlı olduğunu əsaslandırmağa çalışırlar. Arqumentləri isə budur ki, ölkələri torpaq itkisi ilə üzləşməmişdi.

Əlbəttə, torpaq itkisi dedikdə yada Qarabağ salınır. Daha doğrusu, bölgədəki separatçı rejim. Paşinyana əks düşərgənin təmsilçiləri bildirirlər ki, guya həqiqi sülh mühitinin mövcudluğu şəraitində "Azərbaycan cürət edib Qarabağı Ermənistandan qopara bilməzdi". Şübhəsiz, belə sərsəm deyimlər də sırf parlament seçkilərinə hesablanıb və məqsəd ölkədəki revanşist və şovinist kəsimi hərəkətə gətirməkdir. Məqsəd, eyni zamanda, erməni cəmiyyətinin canından çıxmamış anti-Azərbaycan ab-havasını diri saxlamaqdır. Paşinyan isə...

Sözsüz ki, Nikol fikirlərində haqlıdır. Çünki Ermənistanda eks prezidentlər Robert Koçaryan və Serj Sarkisyanın iqtidarda olduqları illəri ölkə üçün sərfəli sülh dövrü kimi qələmə verənlərin ortaya düşmələri əbəsdir. O illəri ki, Ermənistan Rusiyanın dirijor çubuğu ilə idarə olunurdu və "itlər" arabanın kölgəsini öz gölgələri sanırdılar. Hərçənd, o illər də Azərbaycan onlara lazımi dərs verirdi. Elə dərslər ki, hər biri ölkəmizin torpaq itkisi ilə barışmayacağının mesajları idi.

Hazırda necə deyərlər, it də gedib, ip də. Ona görə Paşinyan "eks"lərin ona qarşı sülhün etibarsızlığına dair təbliğatını heçə endirmək üçün bildirir ki, Ermənistanın sabiq rəhbərlərinin zamanında hər il yüzlərlə itki verilirdi. İndi isə Bakı ilə İrəvan arasındakı "sülh artıq de-yure əsasa malikdir". Nikol fikrini əsaslandırmaq üçün 2024-cü ildə iki ölkə arasında delimitasiya komissiyalarının fəaliyyətinə dair reqlamentin ratifikasiya olunmasını nümunə göstərib. "Bu sənədlə tərəflər Almatı Bəyannaməsini əsas prinsip kimi tanıyıblar. Bu o deməkdir ki, Ermənistan və Azərbaycan qarşılıqlı surətdə sovet dövründəki ərazilərini ali hüquqi səviyyədə tanıyıblar. Sülhün təməli budur", - deyən Paşinyan Ermənistan vətəndaşlarını əldə olunmuş sülhə sahib çıxmağa çağırıb. Başqa sözlə desək, baş nazir sadə erməniləri parlament seçkilərində rəhbərlik etdiyi partiyaya etimad göstərməyə səsləyib ki, onun son dövrlərdəki, demək olar, bütün çıxış və bəyanatlarının məğzində məhz bu dayanır.



Ermənistanın baş naziri son "Facebook" paylaşımlarının birində bildirib ki, ölkəsi müstəqillik qazandığı dövrdən bəri ilk dəfədir Azərbaycanla tam sülhə nail olub. Amma məsələyə bir qədər geniş yanaşmaq da mümkündür. Məsələ ondadır ki, erməni varlığı Cənubi Qafqazdakı mövcudiyyəti dövründə ilk dəfədir ki, nə iləsə kifayətlənmək yolu tutub. Paşinyan belə bir proqressivliyə nail olan liderdirmi, xeyr. Onun da səhvləri var və məsələyə sonda qayıdacağıq. Ümumən isə hər şeyi zaman göstərəcək.

Əlqərəz, 2025-ci ilin avqustunadək olan dövrdə ölkəsinin heç vaxt Azərbaycanla indiki sülh mühitində yaşamadığını dilə gətirən Paşinyan onu da bildirib ki, "2025-ci il Ermənistanın Azərbaycanla atışmalar nəticəsində itki vermədiyi ilk təqvim ilidir. 2024-cü ilin fevralından bəri sərhəddə ölüm və yaralanma halı qeydə alınmayıb". Yeri gəlmişkən, N.Paşinyan paralel olaraq özündən əvvəlki dövrü də yada salıb.

Deməli, erməni hökumət rəhbəri sülhü parlament seçkilərində başlıca silaha çevirir. Görünür, o, ölkə cəmiyyətinin canındakı müharibə qorxusunu hiss edir. Nikol, habelə, müxaliflərin Azərbaycanla barış mühitinin etibarlı olmadığına dair təbliğat apardıqlarının da fərqindədir. Mövcud trayektoriyadakı başlıca cəhət əks düşərgə təmsilçilərinin hakimiyyətə yiyələnəcəkləri təqdirdə sülhü daha institusional hala gətirəcəklərinə dair vədləridir. Vəd deyəndə ki, ortada elə bir şey yoxdur. Müxaliflər araba kölgəsi axtarışındadırlar.

Bəli, Paşinyan bu kimi təbliğatlara qarşı çıxır və bildirir ki, öz hakimiyyətindən əvvəlki dövrün sabitlik ab-havasına "sülh" yox, "müharibənin təxirə salınması" demək lazımdır.

Sonda Paşinyanın haqqında söz açdığımız səhvlərinə qayıdaq. O səhvlər ki, onu qarabaqara izləməkdədir. Onun hələ 2019-cu ilə aid "Qarabağ Ermənistandır, nöqtə" sərsəmləməsini bir kənara qoyuruq. Nikol 2021-ci ildə keçirilmiş növbədənkənar parlament seçkiləri zamanı da Qarabağ prioritetini elan etmişdi. Deməli, indiki əks durum, yumşaq desək, qeyri-ciddilikdir və peşəkar siyasət adamına yaraşmır.

Digər yandan, Ermənistan hakimiyyətinin 2020-2025-ci illəri əhatə edən sülh yolu heç də rəvan olmayıb. Ötən ilin avqustunadək rəsmi İrəvan manipulyasiyalarına ara verməyib. Bütün bunlar, istər-istəməz, erməni cəmiyyətinə də təsirini göstərib. O cəmiyyət ki, xəstəlikdən qurtulmayıb və özündə destruktiv çağırışlara boyun əymək zəifliyini yaşadır.

Yəni Paşinyan və komandasının sülh yolunda qətiyyətli davranması lazımdır və qətiyyət yalnız parlament seçkilərində qalib gəlmək naminə göstərilməməlidir. Çünki həqiqi sülhün Ermənistan üçün hiss ediləcək dividendləri qeydə alınmasa, xəstə cəmiyyətin yenidən hərəkətə keçməsi Paşinyanın sonunu gətirəcək. Onun sonu və hazırkı müxaliflərin hakimiyyətə yiyələnmələri isə Ermənistan üçün əsl fəlakət, erməni dövlətçiliyi üçün həqiqi iflas olacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

*Azərbaycan–Çin diplomatik münasibətləri – 34*

# “İpək yolu” üzərində möhkəmlənən dostluq və əməkdaşlıq

**1992-ci il aprel ayının 2-də Bakıda Çin və Azərbaycan hökumət nümayəndələrinin səfirliklər səviyyəsində diplomatik münasibətlərin qurulması haqqında imzaladıqları birgə kommünike ölkələrimiz arasında münasibətlərdə yeni mərhələnin başlanğıcını qoydu. Ötən bu 34 il ərzində beynəlxalq vəziyyətin dəyişkənliyinə baxmayaraq, Çin ilə Azərbaycan arasında münasibətlər inkişaf dinamikasını qoruyub saxlamış, dövlətlər arasında bərabərhüquqlu münasibətlərin və əməkdaşlığın nümunəsinə çevrilmişdir. Xüsusilə son illərdə Çin Xalq Respublikasının Sədri Si Cinpin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi ilə ölkələrimiz ikitərəfli əlaqələrdə yeni tarixi səhifə açmışlar.**



Liderlər diplomatiyası Çin-Azərbaycan münasibətlərində əsas rol oynayır. Çin Xalq Respublikasının Sədri Si Cinpin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səmərəli işgüzar və şəxsi dostluq münasibətləri quraraq ikitərəfli əlaqələrin inkişafını şəxsən istiqamətləndirirlər. 2003-cü ildən etibarən Prezident İlham Əliyev ölkəmizə 8 dəfə səfər etmiş, rəhbər şəxslərlə 10-dan artıq görüş keçirmiş və Çin xalqının böyük və sadiq dostuna çevrilmişdir. 2024-cü ilin iyul ayında Sədr Si Cinpin və Prezident İlham Əliyev Astanada keçirilən ŞƏT sammiti çərçivəsində görüş keçirmiş və Çin ilə Azərbaycan arasında strateji tərəfdaşlığın qurulduğunu birgə bəyan etmişlər. Ötən il dövlət başçıları iki dəfə görüşərək Çin və Azərbaycan arasında hərtərəfli strateji tərəfdaşlığın qurulduğunu birgə bəyan etmiş, həmçinin müxtəlif sahələrdə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı bir sıra mühüm razılaşmalar əldə etmişlər. Əldə olunan razılaşmalara əsaslanaraq tərəflər yüksək səviyyəli təmasları möhkəmləndirir, siyasi etimadı dərinləşdirir, əməkdaşlıq potensialını üzə çıxarır, xalqlar arasında yaxınlaşmanı təşviq edir və Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlığını keyfiyyətcə yeni və hərtərəfli inkişaf mərhələsinə doğru aparırlar.

Qarşılıqlı maraqlara söykənən məsələlərdə qəti və ardıcıl dəstək göstərilməsi Çin - Azərbaycan ənənəsi olmaqla yanaşı, strateji tərəfdaşların üzərinə düşən öhdəlikdir. Prezident İlham Əliyev Çin hökumətinin milli birliyə nail olunması istiqamətində həyata keçirdiyi bütün səyləri dəstəklədiyini ifadə etmişdir. Azərbaycan tərəfi dəfələrlə aydın şəkildə bildirmişdir ki, “vahid Çin” prinsipinə sadiqdir və Tayvanın müstəqilliyini təşviq edən separatçı qüvvələri qətiyyətlə pisləyir. Çin tərəfi isə bundan sonra da Azərbaycanın öz milli şəraitinə uyğun inkişaf yolunu seçmək, eləcə də ölkənin əsas maraqlarının qorunması, suverenliyi, təhlükəsizliyi və ərazi bütövlüyünün təmin edilməsi istiqamətində səylərini qətiyyətlə dəstəkləyəcək.

Ümumi konsepsiyalar və əldə olunmuş konsensusdan ibarət möhkəm təməl olmadan, ikitərəfli münasibətlərin davamlı inkişafı mümkün deyil. Prezident İlham Əliyev birmənalı şəkildə bəyan etmişdir ki, Çin Xalq Respublikasının Sədri Si Cinpinin irəli sürdüyü bəşəriyyətin ortaq tale cəmiyyətinin qurulması konsepsiyası və 4 qlobal təşəbbüs dünyada sülhə, sabitliyə və rifaha töhfə verir. Azərbaycan tərəfi bu təşəbbüsləri yüksək qiymətləndirir və fəal şəkildə dəstəkləyir. Çin və Azərbaycan “Qlobal Cənub”un üzvləri kimi, dünyada çoxqütblülüyün təşviqi və birtərəfli təzyiq siyasətinə qarşı çıxmaq istiqamətində ortaq missiya daşıyırlar. Tərəflər BMT, ŞƏT və AQFETM kimi çoxtərəfli mexanizmlər çərçivəsində səmərəli əməkdaşlıq həyata keçirir, dayanıqlı inkişaf, iqlim dəyişiklikləri və insan hüquqları da daxil olmaqla qlobal idarəetmə məsələlərində bir-birini daim dəstəkləyir, həqiqi multilateralizmi birgə təşviq, beynəlxalq bərabərliyi və ədaləti müdafiə edirlər.

Praktiki əməkdaşlıq ikitərəfli münasibətlərin inkişafı üçün maddi əsas yaradır. Çin və Azərbaycanın iqtisadi strukturları bir-birini tamamlayır, əməkdaşlıq konsepsiyaları isə üst-üstə düşür. Hər iki ölkə “Kəmər və yol” təşəbbüsünün birgə həyata keçirilməsini əsas xətt kimi götürərək, hərtərəfli praktiki əməkdaşlığı dərinləşdirir ki, bu da Çinin yüksək keyfiyyətli istehsal potensialı ilə Azərbaycanın inkişaf ehtiyaclarının uzlaşdırılmasına imkan yaratmışdır. İkitərəfli ticarət dövriyyəsi diplomatik münasibətlərin qurulduğu dövrdə bir neçə milyon ABŞ dollarından 2025-ci ildə 4,87 milyard ABŞ dollarına qədər artmışdır. Çin Azərbaycanın ən böyük idxal mənbəyinə və üçüncü ən iri ticarət tərəfdaşına çevrilmişdir. Tərəflər qarşılıqlı əlaqələndirmə, “yaşıl enerji”, yüksək texnoloji istehsal və informasiya-kommunikasiya texnologiyaları kimi sahələrdə əməkdaşlığı davamlı şəkildə inkişaf etdirir. Azərbaycan ərazisindən keçən “Çin-Avropa” beynəlxalq yükdaşıma marşrutları çərçivəsində Trans-Xəzər qatarları qlobal istehsal və təchizat zəncirlərinin sabitliyinin təmin olunmasında mühüm rol oynayır. Çin şirkətləri Azərbaycan əhalisinin 70 faizini simsiz şəbəkə rabitəsi ilə təmin edir və Çin tərəfi Azərbaycanda Cənubi Qafqazda ən iri olan fotoelektrik və külək enerjisi, keramika plitələri və elektrik avtobuslarının istehsalı üzrə layihələri həyata keçirmişdir.

Azərbaycan tərəfi Çinin altı şəhərində ticarət evləri açmışdır. “Made in Azerbaijan” markası ilə təqdim edilən getdikcə daha çox yüksək keyfiyyətli məhsullar Çin bazarına daxil olaraq istehlakçılar arasında böyük rəğbət qazanmaqdadır.

Mədəni-humanitar mübadilələr xalqları yaxınlaşdıran mühüm bağlayıcı həlqədir. Böyük İpək Yolunun tarixinə qədər uzanan, xalqlarımızın qəlbində dərin kök salmış qarşılıqlı anlaşma və hörmət Çin-Azərbaycan münasibətlərinin möhkəm təməllərini qorumağa imkan yaradır. Hazırda iki xalqın bir-birinin mədəmiyyətlərinin qarşılıqlı surətdə öyrənilməsinə olan marağı misli görünməmiş səviyyəyə çatmışdır. Azərbaycanda “Çinə maraq” və “çin dilinin öyrənilməsi bumu” getdikcə genişlənir: çin dilini öyrənən və qeydiyyatdan keçmiş tələbələrin sayı 8000 nəfəri ötüb. Pekin Universiteti, Tsinxua Universiteti və Çin Sosial Elmlər Akademiyası kimi ali təhsil müəssisələri və analitik mərkəzləri Azərbaycan üzrə tədqiqatları fəal şəkildə həyata keçirir. 2015-ci ildə Pekin Xarici Dillər Universitetində “Azərbaycan dili” ixtisası yaradılmışdır. Həmçinin Azərbaycan ənənə ilə müasirliyin, Şərq və Qərb mədəniyyətlərinin vəhdətini əks etdirən, özünəməxsus cəlbediciliyilə getdikcə daha çox çinli turistin qəlbini fəth edir. Vizasız rejim sayəsində ötən il Azərbaycana 60 mindən artıq Çin vətəndaşı səfər etmişdir ki, bu da tarixi rekord deməkdir. Elm və texnologiya, mədəniyyət, gənclər sferasında iki ölkə arasında təmaslar getdikcə daha da sıxlaşır ki, bu da resursların birləşdirilməsinə və ikitərəfli münasibətlərin inkişafı üçün ictimai dəstəyin möhkəmləndirilməsinə xidmət edir.

Azərbaycana gəlişimdən ötən bir il ərzində müxtəlif dairələrin nümayəndələri ilə geniş fikir mübadilələri aparmış, ölkənin bir çox regionlarına səfərlər etmişəm ki, bu da mənə Çin ilə Azərbaycan arasında dostluğun nəsildən-nəslə ötürüldüyünü və zaman keçdikcə daha da möhkəmləndiyini bütün dolğunluğu ilə hiss etdirir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Çin ilə münasibətlərin inkişafını xarici siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edərək Çin-Azərbaycan əlaqələrinin uzunmüddətli, sağlam və sabit inkişafı üçün möhkəm təməl yaratmışdır. Prezident İlham Əliyev Ümummilli liderin Çinlə dostluğun möhkəmləndirilməsi siyasətini hərtərəfli şəkildə davam və inkişaf etdirmişdir. Birinci xanım və Heydər Əliyev Fondu da Çin ilə Azərbaycan arasında dostluğun möhkəmləndirilməsi işində fəal iştirak edir. Azərbaycan nümayəndələri ilə ünsiyyət zamanı onların Çinə olan xüsusi diqqətini və dərin marağını aydın şəkildə hiss etdim. Mən çin dilini sərbəst bilən bir çox azərbaycanlı dostlarla tanış oldum: onların arasında həm yaşlı nəsli təmsil edən sinoloqlar, həm orta və gənc nəsil nümayəndələri var. Bu, əyani şəkildə göstərir ki, iki ölkə arasında dostluq davamlı olaraq inkişaf edəcək və möhkəmlənəcək.

2026-cı il Çində 15-ci beşillik planın icrasının ilk ilidir və bu il Çinlə Azərbaycan arasında münasibətlərin qurulmasının 34-cü ildönümü qeyd olunacaq. 15-ci beşillik dövründə Çin yeni inkişaf modelinin formalaşdırılmasını sürətləndirəcək, yüksək keyfiyyətli inkişafın təşviqini genişləndirəcək, “Kəmər və yol” təşəbbüsünün birgə həyata keçirilməsini irəli aparmaqla dünyaya daha çox sabitlik və müəyyənlik gətirməyə davam edəcək. Çin Azərbaycannın ölkəmizin sürətli inkişafına qoşulmaq, qabaqcıl elmi-texniki nailiyyətlərindən birgə istifadə etmək, ekoloji cəhətdən təmiz energetikaya keçidi həyata keçirmək və innovativ inkişafın ön sıralarında yer almaq istəyini alqışlayır.

Gələcək perspektivdə Çin ilə Azərbaycan arasında hərtərəfli strateji tərəfdaşlığın qarşısında geniş imkanlar və böyük perspektivlər açılır. Çin tərəfi iki ölkə rəhbərlərinin mühüm razılaşmalarını rəhbər tutaraq Azərbaycan tərəfi ilə birgə səylər göstərməyə, qarşılıqlı dəstək və dostluq ənənələrini inkişaf etdirməyə, qarşılıqlı faydalı əməkdaşlıq əsasında yeni inkişaf üfüqləri açmağa və əl-ələ verərək bəşəriyyətin ortaq tale cəmiyyətini qurmağa hazırdır.

Diplomatik münasibətlərin qurulmasının 34-cü ildönümü münasibətilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı sayca onuncu səfiri kimi, Azərbaycan xalqına, xüsusilə Çin-Azərbaycan dostluğunu dəstəkləyən və ona qayğı göstərən cəmiyyətin bütün təbəqələrindən olan dostlara səmimi salamlarımı və ən xoş arzularımı çatdırıram.

***Lu MEY,***
***Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri***

# ABŞ və NATO-nu hansı gələcək gözləyir?

**(əvvəli 1-ci səhifədə)**

Hər şey İrana qarşı başladılan ABŞ/İsrail hərbi əməliyyatlrından sonra üzə çıxdı. Ağ Evin ən yaxın hərbi müttəfiqlərinin bu münaqişəyə qoşulmaq istəməməsi səbəbindən ABŞ–NATO münasibətləri təhlükəli şəkildə gərginləşir. Əvvəlcə Almaniya öz donanmasını Hörmüz boğazına göndərməkdən imtina edərək sərt mövqe nümayiş etdirdi. Ardınca London Dieqo Qarsianın strateji bazasına girişi təmin etməkdən imtina etdi və bu, Trampla Starmer arasında gərgin fikir mübadiləsinə səbəb oldu. Fransa prezidenti Makron isə ölkəsinin İranla müharibəni seçmədiyini və buna görə də Hörmüz boğazını qorumaq əməliyyatında iştirak etməyəcəyini açıqladı.

Bunların müqabilində ABŞ Prezidenti Donald Tramp ölkəsinin NATO-dan çıxması imkanını ciddi şəkildə nəzərdən keçirdiyini bəyan etdi. Britaniyanın "The Telegraph" qəzetinə müsahibəsində bildirdi ki, bu qərarı Alyansın İsrail və ABŞ-ın İrana qarşı kampaniyasına qoşulmaması ilə əsaslandırıb. NATO-nu “kağız pələng” adlandıran Tramp ABŞ-nın müdafiə müqaviləsindən çıxması məsələsinə yenidən baxılacağını da vurğulayıb.

ABŞ-ın dövlət katibi Marko Rubio da oxşar fikirlər bildirib. O, “Əl-Cəzirə”yə müsahibəsində qeyd edib ki, müttəfiqlərin ABŞ–İran müharibəsi ilə bağlı mövqeyi çox məyusedicidir və müharibə başa çatdıqdan sonra Vaşinqton NATO ilə münasibətlərinə yenidən baxacaq: “Alyansın ABŞ-a fayda verməsinin səbəblərindən biri də müxtəlif ssenarilərdə bazalara çıxış əldə etməkdir. Sual yaranır: “ABŞ-ın burada nə marağı var?” Əgər NATO yalnız bir hücum zamanı Avropanı müdafiə etməyimizlə bağlıdırsa, lakin ehtiyac duyduğumuz zaman bazalara girişimiz qadağandırsa, bu, o qədər də yaxşı razılaşma deyil, bütün bunlara yenidən baxılmalı olacaq”.





Öz növbəsində İspaniya da Vaşinqtona İrana zərbələr endirmək üçün bazalar verməkdən imtina edib və özünün hava məkanını ABŞ/İsrail əməliyyatında iştirak edən təyyarələr üçün bağlayıb. Yalnız fövqəladə hallarda eniş və uçuşa icazə verib. “Corriere della Serra” qəzetinin yazdığına görə, İtaliya DA ABŞ-a İran hədəflərinə zərbələr endirmək üçün Siciliyadakı Siqonella hərbi bazasından istifadə etmək icazəsini verməkdən imtina edərək krallığın nümunəsini təkrarlayıb. Söhbət NATO-nun hərbi bazasından gedir ki, İtaliya mətbuatının məlumatına görə, hazırda alyansın maraqlarına uyğun missiyaları yerinə yetirən Amerikanın “P-8A Poseidon” patrul təyyarələri, “MQ-4C Triton” və 2RQ-4D Phoenix” pilotsuz təyyarələri burada yerləşir.

Bununla belə, Vaşinqtonu dəstəkləməkdən imtina edən NATO üzvü olan ölkələr qərarlarını “bu, bizim müharibəmiz deyil” iddiası ilə əsaslandırırlar. Aydın məsələdir ki, Ağ Ev bu davranışa adekvat reaksiya verir. Donald Tramp Mayamidə keçirilən biznes forumdakı çıxışında ABŞ-ın daha Şimali Atlantika Alyansının köməyinə gələ bilməyəcəyini bəyan edib: “Biz hər il NATO-ya yüz milyardlarla dollar xərcləyirik, həmişə onların yanında olmuşuq. Amma indi onların hərəkətlərini nəzərə alsaq, məncə, daha bunu etməyə ehtiyac yoxdur”.  Hörmüz boğazından gəmilərin təhlükəsiz keçməsini təmin etməkdən boyun qaçıran müttəfiqlərdən narazılığını bildirən Tramp vurğulamışdı ki, onu çox məyus edən ölkələr var: “Məni həqiqətən təəccübləndirən onların kömək etmək istəməmələridir. Onlar dərhal köməyimizə gəlməli idilər, çünki biz onlara illərdir kömək edirik. Bəziləri bu işdə çox həvəslidir, bəziləri isə yox. Mənim üçün həvəsin səviyyəsi önəmlidir”.

*

Mövzunu şərh edən “Financial Times” ilə söhbətində Vaşinqton rəsmisi müttəfiqlərin Hörmüz boğazının təhlükəsizliyinə yardım etməsələr, alyansın gələcəyinin “çox pis” ola biləcəyini bildirib: “Əgər cavab mənfi olarsa, məncə, bu, NATO-nun gələcəyi üçün yaxşı heç nə vəd etmir”.

Beləliklə, ABŞ NATO ilə münasibətlərinə yenidən baxa bilərmi? Bunu etmək üçün Ağ Evin ixtiyarında hansı rıçaqlar var? Bu suallara cavab axtararkən qarşıya ilk olaraq maliyyə amili çıxır. Birincisi, Birləşmiş Ştatlar NATO ölkələrində hərbi mövcudluğunu, Avropadakı bazalarının sayını azalda, bəzi qoşun və texnikanı çıxara bilər ki, bu da istər-istəməz bütövlükdə Avropanın təhlükəsizliyinə təsir göstərəcək. İkincisi, Vaşinqton ÜDM-in 5 faizlik yeni müdafiə maliyyələşdirmə həddinə çata bilməyən ölkələrin alyansın qərarlarına təsir etmək hüququnu itirə biləcəyi modelini müzakirə edir. Bununla belə, ABŞ-ın NATO-dan çıxması real görünmür. Əslinə qalsa, belə bir addımın heç bir hüquqi əsası da yoxdur. Məsələ burasındadır ki, Vaşinqton NATO-nun Yaxın Şərqdə müharibəyə qoşulmaq tələbində alyansın 5-ci maddəsinə istinad edə bilməz. Çünki bu maddə yalnız alyans üzvü olan ölkəyə hücum şərti ilə “işləyir”. Oxuculara xatırladaq ki, məlum maddə 2001-ci il sentyabrın 11-də ABŞ-a qarşı terror hücumlarından sonra qüvvəyə minib. Yəni o zaman NATO üzvünə qarşı hücum terror hücumu kimi tanındı və amerikalılara antiterror əməliyyatları aparmaq üçün öz hava məkanından və limanlarından istifadə etmək hüququ verərək Vaşinqtonu dəstəklədi.

Hüquqi cəhətdən Birləşmiş Ştatlar Yaxın Şərq münaqişəsində iştirakdan imtina edən NATO ölkələrinin de-yure alyans çərçivəsində öhdəliklərini pozduqlarını iddia edə bilməz. Bu kontekstdə yalnız onu deyə bilərik ki, onlar Vaşinqtonun etimadını doğrultmadılar. Başqa heç nə.

Beləliklə, Ağ Ev alyansı öz maraqlarına uyğun şəkildə yenidən formalaşdırmaq üçün NATO-dan çıxma hekayəsindən yalnız müttəfiqlərinə siyasi təzyiq vasitəsi kimi istifadə edə bilər. Axı NATO hazırda Avrasiyada Amerika təsirinin əsas bazası olaraq qalır və Vaşinqton çətin ki, onu itirməyə razı olsun.

***XQ***



# Köləlik “ağalar”a qazanc, insanlığa utanc gətirir

**(əvvəli 1-ci səhifədə)**

“Üçbucaq ticarəti” adlanan model rəsmi olaraq tarixə qovuşmuş kimi görünsə də, çağdaş zamanda da insanların istismarı müxtəlif formalarda davam edir. Daha dəqiq desək, müasir dövrdə bu fenomen artıq “köləlik” adı ilə yox, daha mürəkkəb və gizli mexanizmlərlə, insan alveri, məcburi əmək və borc əsarəti kimi formalarla özünü göstərir. Məsələn, Hindistan kimi ölkələrdə borc əsarəti hələ də sosial-iqtisadi münasibətlərin dərin qatlarında yaşayır, insanlar kiçik maliyyə öhdəlikləri qarşılığında illərlə, bəzən nəsillər boyu azadlıqlarını itirirlər. Problem sadəcə inkişaf etməkdə olan və ya Yaxın Şərq regionu ilə məhdudlaşmır. Avropa dövlətlərində, daha çox Fransa və Niderlandda insan alveri, məcburi əmək halları geniş vüsət alıb. Xüsusilə sənədsiz miqrantların kənd təsərrüfatında, tikintidə və xidmət sahəsində istismarı göstərir ki, qlobal iqtisadi sistemin kölgədə qalan tərəfi sərhəd tanımır.

Tarixi və müasir dövrlər arasında paralel aparıldıqda əsas oxşarlıq dəyişmir, insan yenə də iqtisadi resurs kimi qiymətləndirilir. Yeganə fərq ondadır ki, keçmişdə köləlik açıq və qanuni sistem kimi fəaliyyət göstərirdi. Başqa sözlə desək, əvvəllər insanlar fiziki olaraq zəncirlənirdisə, indi onları borc, hüquqi status və sosial asılılıq kimi “görünməz zəncirlər”ə bağlayırlar. Bir məqamı da qeyd edək ki, tarixi dövrdə transatlantik qul ticarətinin ləğvinə, həm də müasir dövrdə onun müxtəlif formalarda davam edən təzahürlərinə qarşı çoxsaylı beynəlxalq hüquqi sənədlər və qətnamələr mövcuddur. Onlar köləliyi və insan istismarını qəti şəkildə qadağan edir və dövlətlər üçün hüquqi öhdəliklər müəyyənləşdirir. Sözügedən istiqamətdə ən fundamental sənədlərdən biri İnsan Hüquqları üzrə Ümumi Bəyannamədir. 1948-ci ildə qəbul edilən sənədin 4-cü maddəsində açıq şəkildə qeyd olunur ki, heç kim köləlikdə və ya asılılıq vəziyyətində saxlanıla bilməz. Həmin prinsip sonrakı bütün beynəlxalq hüquqi mexanizmlərin əsasını təşkil edir. Daha konkret və hüquqi baxımdan bağlayıcı sənədlərdən biri Köləliyin Ləğvi haqqında Konvensiya hesab olunur. Konvensiya köləliyin və qul ticarətinin aradan qaldırılmasını dövlətlər üçün öhdəlik kimi müəyyənləşdirir.

Müasir dövrdə insan alverinə qarşı mübarizənin əsas hüquqi alətlərindən biri də Palermo Protokoludur. Sənəd dövlətlərə insan alverinin qarşısını almaq, qurbanları qorumaq və cinayətkarları cəzalandırmaq öhdəliyi qoyur. Xüsusilə qadın və uşaqların qorunması protokolun əsas prioritetlərindəndir. Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatı və Beynəlxalq Əmək Təşkilatı çərçivəsində qəbul olunan çoxsaylı konvensiyalar və qətnamələr məcburi əməyin qadağan olunmasını, əmək hüquqlarının qorunmasını və istismarın qarşısının alınmasını nəzərdə tutur. Beynəlxalq Əmək Təşkilatının məcburi əməyə qarşı konvensiyaları dövlətlər üçün konkret hüquqi çərçivə yaradır.

Azərbaycanın da problemlə bağlı mövqeyi ayrıca diqqətə layiqdir. Rəsmi Bakı həm tarixi transatlantik qul ticarəti fenomenini, həm də onun müasir dövrdə transformasiya olunmuş formalarını – insan alveri, məcburi əmək və digər istismar mexanizmlərini qətiyyətlə rədd edən dövlətlər sırasında yer alır. Yanaşma Birləşmiş Millətlər Təşkilatı çərçivəsində qəbul edilən beynəlxalq sənədlərə və təşəbbüslərə verilən sistemli dəstəkdə də özünü göstərir. Bu günlərdə BMT Baş Assambleyası “Transatlantik qul ticarətinə dair” qətnamə qəbul etdi. Bakı Təşəbbüs Qrupu tərəfindən qətnaməyə verilən açıq dəstək ölkəmizin bu istiqamətdə mövqeyinin institusional şəkildə dəstəkləndiyini və daha geniş platformalarda səsləndirildiyini nümayiş etdirir. Bununla yanaşı, BTQ reparasiya məsələsini maliyyə kompensasiyası olmaqla yanaşı, daha geniş ədalət anlayışının ayrılmaz hissəsi kimi dəyərləndirir. Təşkilat, eyni zamanda, Afrika mənşəli xalqların üzləşdiyi ədalətsizlikləri beynəlxalq platformalarda ardıcıl olaraq gündəmə gətirib və bu xüsusda 2024-cü ilin dekabrında və 2025-ci ilin aprelində BMT-nin Baş Qərargahında “Afrika əsilli xalqların hüquqları üzrə işçi qrupunun 35-ci sessiyası”nda və “Afrika əsilli şəxslərin Daimi Forumunun 4-cü sessiyası”nda fəal iştirak edib. Qrup həmin sessiyalarda neokolonializmin aradan qaldırılması və müstəmləkəçiliyə məruz qalmış ərazilərdə Afrika əsilli xalqların hüquqlarının müdafiəsi məsələlərini bir daha gündəmə gətirib.

Sonda bu qənaətə gəlmək olar ki, ölkəmizin mövqeyi, əslində iki paralel istiqamətdə formalaşır. Azərbaycan bir tərəfdən, beynəlxalq hüququn prinsiplərinə uyğun olaraq tarixi ədalətin tanınması və bəşəriyyətə qarşı törədilmiş cinayətlərin unudulmamasını vacib hesab edir. Digər tərəfdən isə bu yanaşma müasir dövrdə baş verən oxşar hallara qarşı praktiki mübarizə tədbirləri ilə tamamlanır. Ölkə daxilində insan alverinə qarşı mübarizə üzrə qanunvericilik bazasının gücləndirilməsi, institusional mexanizmlərin yaradılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi göstərir ki, məsələ real təhlükəsizlik və sosial ədalət məsələsi kimi qəbul olunur.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*



**Yusif BAĞIRZADƏ,**
**politoloq**

Bakı Təşəbbüs Qrupunun BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş 25 mart 2026-cı il tarixli “Transatlantik qul ticarətinə dair qətnaməyə” dair açıqlamasından göründüyü kimi, məsələyə münasibət təkcə tarixi hadisənin qiymətləndirilməsi ilə məhdudlaşmır, daha geniş siyasi çərçivəyə daxil edilir. Qətnamənin mahiyyəti tarixi ədalətsizliyin tanınması və onun nəticələrinin aradan qaldırılması üçün konkret mexanizmlərin formalaşdırılması üzərində qurulub. Bununla yanaşı, reparasiya məsələsinin geniş çərçivədə qoyulması diqqətəlayiqdir. Belə yanaşma göstərir ki, transatlantik qul ticarətinin nəticələri bu gün də sosial-iqtisadi bərabərsizliklər, inkişaf fərqləri və struktur ayrı-seçkilik formasında davam edir. Ona görə də effektiv mübarizə həm də bu mirasın müasir təsirlərinin aradan qaldırılmasına yönəlməlidir. Dövlətlərin və beynəlxalq təşkilatların konkret öhdəliklər götürməsi, xüsusilə də inkişaf etməkdə olan ölkələr üçün uzunmüddətli dəstək proqramlarının hazırlanması vacib addımlardır. Digər tərəfdən, bəyanatda vurğulanan neokolonializm elementi müasir dövrdə “transatlantik quldarlıq” anlayışının necə transformasiya olunduğunu göstərir. Bu gün istismar daha çox iqtisadi asılılıq, qeyri-bərabər ticarət münasibətləri və resursların qeyri-ədalətli bölüşdürülməsi formasında özünü göstərir. Problemin qarşısının alınması üçün qlobal iqtisadi sistemdə daha ədalətli qaydaların təşviqi, inkişaf etməkdə olan ölkələrin qərarvermə proseslərində iştirakının artırılması və beynəlxalq maliyyə institutlarında islahatlar mühüm rol oynaya bilər.

Bakı Təşəbbüs Qrupu kimi platformalar vasitəsilə qlobal ədalət, dekolonizasiya və insan hüquqları məsələlərində aktiv mövqe nümayiş etdirmək ölkənin nüfuzunu artırır. Beləliklə, ölkə qlobal Cənubun maraqlarını ifadə edən və beynəlxalq diskursun formalaşmasına töhfə verən aktor kimi çıxış edir. Amma mövqelərin davamlı təsir gücü onların praktik siyasətlə uzlaşdırılmasından asılıdır. Əgər beynəlxalq platformalarda səsləndirilən çağırışlar konkret təşəbbüslər, humanitar proqramlar və çoxtərəfli əməkdaşlıq layihələri ilə müşayiət olunarsa, bu zaman Azərbaycanın rolu daha institusional və təsirli xarakter alar.

# Aİ qaz təchizatını şaxələndirir

## *Ölkəmiz isə ittifaqın 10 dövlətinə mavi yanacaq nəql edir*




**Avropa İttifaqı (Aİ) enerji təchizatı mənbələrinin şaxələndirilməsini davam etdirərək Azərbaycan, eləcə də ABŞ, Norveç, Əlcəzair və Kanada vasitəsilə tədarükləri artırır. Bunu energetika üzrə Avropa komissarı Dan Yorgensen Yaxın Şərqdəki vəziyyətlə əlaqədar Aİ ölkələrinin energetika nazirlərinin qeyri-rəsmi görüşünün yekunlarına dair mətbuat konfransında deyib.**

Qeyd edək ki, Avrozonada inflyasiya bu ay 2,5 faizə yüksələrək son bir ildən artıq müddətdə ən yüksək səviyyəsinə çatıb. Bu artımın əsas səbəbi yanacaq qiymətlərinin kəskin bahalaşmasıdır ki, bu da İranla bağlı müharibə nəticəsində dünyanın ən mühüm dəniz nəqliyyat marşrutunun bloklanmasının birbaşa nəticəsidir. Bu şərait Avropa üçün enerji təhlükəsizliyinin təmin edilməsini strateji məsələ halına gətirib və Aİ-nin alternativ enerji mənbələrinə yönəlməsini sürətləndirib. Azərbaycan və digər etibarlı tədarükçülər bu baxımdan Aİ üçün önəmli tərəfdaş rolunu oynayır.

Azərbaycan da Avropa ilə enerji əməkdaşlığını dərinləşdirməyə maraqlıdır. Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurasının 12-ci və Yaşıl Enerji Məşvərət Şurasının 4-cü iclaslarında bildirib ki, Avropanın enerji bazarında Azərbaycanın mövcudluğunu daha da genişləndirmək niyyətindəyik: “Artıq Avropanın daha iki ölkəsinə - Almaniyaya və Avstriyaya qaz tədarükünə başlamışıq. Beləliklə, hazırda Avropa İttifaqının 10 üzv dövləti Azərbaycandan qaz alır. Qarşıdakı illərdə Azərbaycanın yataqlarından yeni qaz hasilatı ilə əlaqədar olaraq hasilat həcmlərini artırmaq imkanımız mövcuddur”.

Xatırladaq ki, Avropa İttifaqı Rusiya–Ukrayna müharibəsindən sonra enerji idxalının divresifikasiyası siyasətini həyata keçirir. Rusiyadan qaz asılılığını azaltmaq üçün bır sıra ölkələrlə tərəfdaşlıq müqavilələri imzalanıb. 2022-ci il iyulun 18-də Azərbaycan ilə Avropa İttifaqı arasında “Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu” imzalanıb. Sənədi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayen imzalayıblar. Bu sənədin konkret məqsədlərindən biri Aİ nin enerji təhlükəsizliyini möhkəmləndirmək üçün Azərbaycan qazının Avropaya ixracını əhəmiyyətli dərəcədə artırmaqdır. İmzalanmış Memorandum çərçivəsində Azərbaycan Avropaya qaz ixracını uzunmüddətli perspektivdə təxminən 20 milyard kubmetrə qədər çatdırmağı hədəfləyib.

Bunun üçün mövcud qaz nəqliyyat infrastrukturlarının genişləndirilməsi və hasilatın artırılması xüsusi önəm daşıyır. Məlumatlara görə, hazırda Cənub Qaz Dəhlizi artıq tam yüklənmiş vəziyyətdədir.

Hasilata gəlincə, bu il “Azəri-Çıraq-Günəşli” yatağının dərin qaz laylarından çıxarılmaya başlanması planlaşdırılır. Bundan əlavə, növbəti iki-üç il ərzində “Abşeron” yatağının tammiqyaslı işlənmə mərhələsinin başlaması gözlənilir ki, bu da bu yataqdan qaz çıxarılmasını üç dəfə artıracaq. Eyni zamanda, “Ümid” yatağının ikinci mərhələsi üzrə hasilata başlanması nəzərdə tutulur.

Təbii qazın əsas mənbəyi olan “Şahdəniz” yatağı ilə bağlı olaraq, 2028-ci ildə yeni mərhələdə hasilatın başlanması gözlənilir. Qeyd olunan bütün layihələr maksimum istehsal səviyyəsində əlavə 10–15 milyard kubmetr qaz təmin etməyə imkan verəcək. Bunun reallaşdırılması üçün yeni bazarlara çıxış, mövcud boru kəməri sisteminin genişləndirilməsi və qaz paylama şəbəkəsinin şaxələndirilməsi istiqamətində əlavə tədbirlərin görülməsi zəruridir.

Yeri gəlmişkən, 2025- ci ildə ölkədə təbii qaz hasilatı isə keçən il 51,5 milyard kubmetr təşkil edib. Hasilatın 14,1 milyard kubmetri “Azəri-Çıraq-Günəşli”nin, 27,9 milyard kubmetri “Şahdəniz”in, 1,6 milyard kubmetri “Abşeron”un, 7,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb. Ötən il qazın ixracı 25,2 milyard kubmetr təşkil edib. Bu həcmin 12,8 milyard kubmetr Avropaya, 9,6 milyard kubmetr Türkiyəyə, 2,3 milyard kubmetr Gürcüstana, 0,5 milyard kubmetr isə Suriyaya ixrac olunub.

Anlaşma Memorandumunda diqqətçəkən digər məqam bərpa olunan enerji mənbələridir. Ölkəmiz “yaşıl enerji” sahəsində böyük potensiala malikdir. Təkcə işğaldan azad olunan Qarabağın və Şərqi Zəngəzurun azad olunmuş ərazilərində Günəş və külək enerjisinin potensialı 9200 meqavatdır. Xəzər dənizində külək enerjisinin potensialı isə 157 geqavat həcmində qiymətləndirilir.

2022-ci ilin dekabrında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında “Yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq” Sazişi imzalanıb. Bu sənəd Qara Dəniz regionunda “yaşıl enerji” dəhlizinin yaradılmasında mühüm dönüş nöqtəsi hesab olunur. Saziş, Azərbaycanın geniş bərpaolunan enerji ehtiyatlarını Gürcüstan və Rumıniya üzərindən Avropanın enerji şəbəkəsinə birləşdirəcək Qara Dəniz Enerji sualtı kabelinin təməlini qoyub.

2024-cü il sentyabrın 3-də layihəyə daxil olan sistem operatorları – “AzərEnerji”, “Gürcüstan Dövlət Elektrosistem”, “Transelectrica” və MVM – Buxarestdə Birgə Müəssisənin Səhmdar Müqaviləsini imzalayıblar. Bu kabel vasitəsilə Azərbaycanda istehsal olunan yaşıl elektrik enerjisi Gürcüstan və Qara Dəniz üzərindən Rumıniyaya çatdırılacaq, daha sonra isə Macarıstana və Avropanın digər ölkələrinə nəql olunacaq. Layihənin tikintisinin 3-4 il çəkəcəyi gözlənilir və Avropa Komissiyası ona 2,3 milyard avro maliyyə dəstəyi ayırmağı planlaşdırır.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Eyyub KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

Biz bu məsələlərə enerji mənbələrinin şaxələndirilməsi prizmasından yanaşaraq əvvəlcə anlayışın özünü aydınlaşdırmalıyıq. Bu nə deməkdir? Avropa İttifaqı son illərdə, xüsusilə Rusiya–Ukrayna münaqişəsindən sonra enerji təchizatı siyasətində ciddi dəyişikliklərə getdi. Burada əsas məqsəd Rusiyadan asılılığın azaldılması, təchizat risklərinin bölüşdürülməsi və enerji təhlükəsizliyinin gücləndirilməsi idi.

Bu kontekstdə Azərbaycan mühüm rol oynamağa başladı. Ölkəmizin qaz ixracı artdı və bu proses əsasən Cənub Qaz Dəhlizi vasitəsilə həyata keçirildi. Eyni zamanda, Avropa İttifaqı enerji mənbələrini diversifikasiya etmək üçün ABŞ, Norveç, Əlcəzair və Kanada kimi ölkələrdən də həm qaz, həm də digər enerji resurslarının idxalını genişləndirdi. Lakin bu proses müəyyən iqtisadi təsirlər də doğurur. Xüsusilə inflyasiyanın artmasına səbəb olan amillərdən biri məhz bu yeni təchizat marşrutlarının daha baha başa gəlməsidir.

Məsələ ondadır ki, əvvəl Rusiya qazı əsasən boru kəmərləri vasitəsilə daha ucuz şəkildə nəql edilirdi. Yeni şəraitdə isə mayeləşdirilmiş qazın (LNG) daşınması üçün tankerlərə, terminallara və əlavə infrastruktur quruculuğuna ehtiyac yaranır. Bu isə logistik xərcləri artırır. Enerji qiymətlərinin yüksəlməsi isə iqtisadiyyatın bütün sahələrinə təsir göstərir: yanacaq bahalaşdıqda nəqliyyat xərcləri artır, elektrik enerjisi bahalaşdıqda isə istehsal xərcləri yüksəlir. Nəticədə, bu zəncirvari təsir bütün məhsulların qiymətində artım yaradır.

Bu vəziyyət Azərbaycan üçün həm imkanlar, həm də müəyyən risklər formalaşdırır. Müsbət tərəf ondan ibarətdir ki, qaz ixracının artması ölkəyə daxil olan valyuta axınını gücləndirir, Avropa İttifaqı ilə strateji əməkdaşlıq dərinləşir və Azərbaycanın qlobal enerji bazarındakı rolu daha da möhkəmlənir.

Digər tərəfdən, qlobal qiymət dalğalanmaları ölkəmizə də təsirsiz ötüşmür. Azərbaycan həm də idxal edən ölkə olduğu üçün enerji və digər məhsulların bahalaşması daxili bazara təsir göstərir. Bundan əlavə, Avropa İttifaqının gələcəkdə yaşıl enerjiyə keçidi sürətləndirməsi Azərbaycan qarşısında yeni çağırışlar yaradır. Bu istiqamətdə ölkəmizdə bərpa olunan enerji mənbələrinin inkişafı üçün əlavə investisiyalara ehtiyac artır.

Hazırda Azərbaycan artıq Avropanın 12-dən çox ölkəsinə qaz ixrac edir və bu, Avropa İttifaqının ümumi qaz tələbatının təxminən 4–5 faizini qarşılayır. İllik ifadədə bu, təxminən 12–13 milyard kubmetr qaz deməkdir. Bu göstəricilər ölkəmizin Avropa enerji təhlükəsizliyində mühüm tərəfdaşlardan birinə çevrildiyini təsdiqləyir.

Ümumilikdə, Avropa bazarında əsas qaz təchizatçıları sırasında Norveç, ABŞ və Əlcəzair xüsusi yer tutur. Bu baxımdan Azərbaycan da Avropa üçün etibarlı alternativ enerji mənbəyi kimi çıxış edir. Mövcud geosiyasi reallıqlar fonunda ölkəmiz üçün geniş perspektivlər açılır və eyni zamanda, Avropa İttifaqı üçün də enerji mənbələrinin şaxələndirilməsi baxımından strateji əhəmiyyət daşıyan tərəfdaş kimi dəyərləndirilir.



# Azərbaycan – Misir enerji əməkdaşlığının hədəfləri

**Qahirədə 9-cu Misir Beynəlxalq Enerji Konfransı və Sərgisi (EGYPS 2026) keçirilib. Müxtəlif ölkələrin nazirləri, beynəlxalq təşkilatların və iri enerji şirkətlərinin rəhbərləri, eləcə də innovativ texnoloji həllər sahəsində fəaliyyət göstərən qlobal şirkətlərin nümayəndələrinin iştirak etdikləri “EGYPS 2026”də ölkəmiz Azərbaycan Dövlət Neft Şirkətinin heyəti ilə təmsil olunub.**

“Əməkdaşlıq, fəaliyyət və reallıq vasitəsilə enerji keçidi” şüarı altında təşkil olunan beynəlxalq enerji toplantısı martın 31-də öz işini plenar iclaslarla davam etdirib. CNN-in İdarə Heyətinin keçmiş üzvü Con Defteriosun moderatorluğu ilə keçirilən plenar iclas “Qlobal ticarət axınlarının yenidən formalaşdırılması” mövzusuna həsr olunub. İclasda geosiyasi təsirlərin enerji təhlükəsizliyinə və əsas enerji dəhlizləri üzrə qlobal ticarətə yaratdığı risklər, tranzit müddətlərinin uzanması, enerji çatışmazlıqları, xərclərin artması və şirkətlərin həyata keçirdiyi fəaliyyətlər müzakirə edilib.

Plenar iclasda Azərbaycan heyətinin rəhbəri SOCAR-ın vitse-prezidentinin müavini Vitaliy Bəylərbəyov, “Energos Infrastructure” şirkətinin baş icraçı direktoru Artur Regan, “Höegh Eiendom” şirkətinin prezidenti Erik Nyheim, “HEREMA S.A.”nın baş direktoru Aristofanis Stefatos və “SVB Energy International” şirkətinin prezidenti Sara Vaxşuri çıxış ediblər. Müzakirələrdə enerji sektorunda yeniliklər, gələcək planlar və yeni ticarət tərəfdaşlıqlarının əhəmiyyəti vurğulanıb. O, SOCAR-ın Misirlə əməkdaşlıqda yeni mərhələyə daxil olduğunu, bu ölkənin Dövlət Neft Korporasiyası ilə imzalanmış sazişin əhəmiyyətini qeyd edib, Misirin Təbii Qaz Holdinqi və digər qurumlarla əlaqələrin genişləndiyini diqqətə çatdırıb.

Azərbaycanın etibarlı xam neft və qaz tədarükçüsü olduğunu vurğulayan SOCAR rəsmisi ölkəmizin son illərdə qaz ixracını əhəmiyyətli dərəcədə artırdığını diqqətə çatdırıb: “2020-ci ilin sonlarından Yunanıstan, İtaliya və Bolqarıstana əhəmiyyətli həcmdə qaz ixrac edilir. Hazırda Yunanıstanın, təxminən, 25 faizi, Bolqarıstanın 60 faizdən çoxu, İtaliyanın isə 20 faizdən artıq hissəsi Azərbaycan qazı ilə təmin olunur və bu göstəricilər getdikcə artmaqdadır. Ümumilikdə isə, Azərbaycan qazı hazırda dünyanın 16 ölkəsinə, o cümlədən 10 Avropa İttifaqı ölkəsinə ixrac olunur. Yaxın Şərq və Aralıq dənizi regionu da SOCAR-ın diqqət mərkəzindədir və artıq bir ilə yaxındır ki, Suriyaya qaz tədarük edilir”.

SOCAR-ın iri infrastruktur layihələrində uğurla iştirak etdiyini diqqətə çatdıran vitse-prezident onu da bildirib ki, şirkət təkcə hasilat və ticarət sahəsində deyil, həm də beynəlxalq tərəfdaşlarla birlikdə infrastrukturun yaradılmasında fəal iştirak edir. Bakı–Tbilisi–Ceyhan neft kəmərini buna nümunə kimi göstərən şirkət vitse-prezidenti bu marşrutun Azərbaycan nefti ilə yanaşı, Türkmənistan və Qazaxıstan neftinin də dünya bazarına çıxarılmasına xidmət etdiyini vurğulayıb.

Bildirilib ki, Cənub Qaz Dəhlizi 2020-ci ilin sonunda tamamlanıb və onun genişləndirilməsi nəzərdə tutulur. 2020–2022-ci illərdə Rusiya–Ukrayna münaqişəsi fonunda Avropaya qaz tədarükü 40 faiz artırılıb, hazırda isə bu artım 2020-ci illə müqayisədə 60 faizə çatıb.

Qeyd edilib ki, Azərbaycan Dövlət Neft Şirkəti Yaxın Şərqdə hasilat, nəql və satış sahələrində də fəaliyyətini genişləndirməyi planlaşdırır. Eyni zamanda, Cənub Qaz Dəhlizinin buraxılış gücünün artırılması, hətta iki dəfə genişləndirilməsi imkanları nəzərdən keçirilir. “Bu proses yeni yataqların istismara verilməsi ilə dəstəklənəcək. Məsələn, “Total Energies” və tərəfdaşlarla birgə həyata keçirilən Abşeron qaz-kondensat yatağı layihəsi 2029-cu ildə böyük həcmdə qaz və kondensat hasilatını təmin edəcək. Ümumilikdə əlavə olaraq ən azı 15 milyard kubmetr qaz tədarükü imkanının yaranacağı qeyd olunub”.

Yeri gəlmişkən, beynəlxalq enerji toplantısı çərçivəsində “SOCAR Trading” şirkəti ilə Misirin Dövlət Neft Korporasiyası (EGPC) arasında əməkdaşlığa dair çərçivə sazişi imzalanıb. Azərbaycanın Misirdəki səfiri Elxan Poluxovun da iştirak etdiyi mərasimdə sənədi “SOCAR Trading”in baş icraçı direktoru Natiq Mustafayev və EGPC-nin icraçı direktoru Salah Əbdülkərim imzalayıblar.

Natiq Mustafayev bildirib ki, SOCAR artıq 15 ildir Misirlə əməkdaşlıq edir. Onun sözlərinə görə, bu çərçivə sazişi iki qurum arasında əməkdaşlığımın daha da genişlənməsinə şərait yaradacaq, müxtəlif sahələrdə investisiya və ticarət imkanlarını artıracaq.

EGPC-nin icraçı direktoru Salah Əbdülkərim isə bu sənədin SOCAR-ın neft və qaz məhsullarının Misir bazarına çıxışını daha da asanlaşdıracağını vurğulayıb. Misirin böyük və perspektivli bazar olduğunu xatırladan şirkət rəhbəri SOCAR-ın burada fəaliyyət göstərməsindən məmnunluğunu ifadə edib. “İstərdik ki, şirkət təkcə xam neft tədarükü ilə kifayətlənməsin, həm də Misirdə kəşfiyyat və hasilat sahələrində aktiv iştirak etsin”, – deyə o əlavə edib.

S.Əbdülkərim, həmçinin qeyd edib ki, Azərbaycan ilə Misir arasında dövlət rəhbərləri və aidiyyəti qurumlar səviyyəsində sıx əməkdaşlıq mövcuddur və ölkəsi neft-qaz sektorunda bu əlaqələrin daha da dərinləşdirilməsində maraqlıdır.

***M.YAQUBZADƏ***
***XQ***

# Zəfərançılıq dirçəldilir



**2025-ci ildə ölkəmizdə, ümumilikdə, 105,2 hektar sahədə zəfəran əkini aparılıb. Bunun da nəticəsində 767,4 kiloqram məhsul əldə edilib.**

Statistikaya əsasən, ötən il zəfəran istehsalında ən yüksək məhsuldarlıq Lənkəran-Astara iqtisadi rayonunun payına düşür. Belə ki, Masallı rayonunda zəfəran əkilmiş 34 hektar sahədən 610 kiloqram məhsul yığılıb ki, bu da ölkə üzrə ümumi istehsalın böyük hissəsini təşkil edir. Mərkəzi Aran iqtisadi rayonunda isə 18,2 hektar sahədən, ümumilikdə, 143,4 kiloqram zəfəran əldə olunub. Sözügedən iqtisadi rayonuna daxil olan Ağdaşda 17 hektar sahədən 128 kiloqram, Zərdabda isə 1,2 hektar sahədən 15,4 kiloqram məhsul götürülüb.

İl ərzində ölkənin digər ərazilərində isə zəfəran əkini aparılsa da, məhsul göstəriciləri aşağı olub. Statistikaya əsasən, paytaxtın Xəzər rayonunda 20 hektar sahədən 8 kiloqram, Abşeron rayonunda isə 33 hektar sahədən cəmi 6 kiloqram zəfəran yığılıb.

***XQ***

# Kulevi terminalı genişləndirilir

## *Bu layihə ölkəmizin Gürcüstanda ən önəmli yatırımlarından biridir*



**Gürcüstanın ilk tammiqyaslı neft emalı zavodu olan “Black Sea Petroleum” (BSP) Rusiya neftinin əvəzlənməsini strateji məqsəd olaraq müəyyənləşdirib. Bu barədə şirkətin həmtəsisçisi və baş direktoru David Potsxveriya Gürcüstanın BMGTV telekanalına müsahibəsi zamanı bildirib. O deyib ki, fəaliyyətə Rusiya neftinin emalı ilə başlayan şirkət hazırda xammal bazasının şaxələndirilməsi üzərində fəal şəkildə işləyir.**

Bu addımın gələcəkdə şirkətə öz məhsullarını Avropa İttifaqı bazarına ixrac etməyə imkan verəcəyini bildirən baş direktorun sözlərinə görə, əsas məqsəd Rusiya xammalını tamamilə əvəz etməkdir: “Biz artıq Türkmənistan nefti ilə işləyirik, növbəti mərhələdə isə Qazaxıstan və digər alternativ mənbələrdən də istifadə etməyi planlaşdırırıq. Xammal mənbələrinin şaxələndirilməsi şirkətimizin ixrac imkanlarına birbaşa təsir göstərir. Xüsusilə Avropa İttifaqı bazarı hazırda Rusiya neftindən hazırlanmış məhsullar üçün bağlıdır və alternativ xammala keçid bu məhdudiyyəti aradan qaldırır”.

Türkmənistan neftinin Azərbaycan üzərindən dəmir yolu ilə tranzitinin təşkilindən sonra şirkətin alternativ təchizat zəncirini aktivləşdirə biləcəyini vurğulayan D.Potsxveriya bildirib ki, bu dəmir yolu şəbəkəsi ilə tədarükə başladıqdan sonra Qazaxıstan nefti də daxil olmaqla digər mənbələrin tranziti avtomatik olaraq mümkün olacaq.

Məsələyə münasibət bildirən ölkənin digər nəşri isə BSP-nin Gürcüstanı öz neft məhsulları ilə tam təmin etmək niyyətində olduğunu bildirib. Qeyd olunub ki, hazırda Kulevi limanında yerləşən, benzin, dizel və aviasiya yanacağı istehsalı üçün yarımfabrikatlar istehsal edən yeganə neft emalı zavodu BSP-yə məxsusdur. Məlumata görə, müəssisə 2027-ci ilə qədər “Avro-5” standartlarına uyğun yanacaq istehsalına keçməyi planlaşdırır.

Qeyd edək ki, “Black Sea Petroleum” layihəsi Kulevidə həyata keçirilir və onun ilk mərhələsi artıq başa çatıb. Bu mərhələdə zavodun illik gücü 1,2 milyon ton təşkil edir. Növbəti mərhələ çərçivəsində isə bu göstəricinin 4,5 milyon tona qədər artacağı proqnozlaşdırılır. Layihəyə ümumi investisiya qoyuluşu 600 milyon ABŞ dolları məbləğində qiymətləndirilir. Həmin məbləğin isə 150 milyon dollardan çox hissəsi birinci mərhələdə xərclənib.

Yeri gəlmişkən, Kulevi neft terminalı və limanı Azərbaycan Dövlət Neft Şirkətinin (SOCAR) Gürcüstan ərazisində ən əhəmiyyətli investisiya yatırımlarından biridir. Qonşu ölkənin Xobi regionunda, Qara dəniz sahilində yerləşən terminal əsas neft və neft məhsullarının ixracı mərkəzidir. 2008-ci ildən istismarda olan terminal, Xəzər və Mərkəzi Asiya neftinin Avropa bazarlarına çatdırılmasında mühüm logistik rol oynayır. Ümumilikdə isə, Kulevi terminalı xam neft, mazut, dizel, benzin və digər neft-kimya məhsullarının dəmir yolu ilə qəbulu, çənlərdə saxlanılması və tankerlərə yüklənilməsini həyata keçirir.

Azərbaycan və Gürcüstan iqtisadiyyatına böyük töhfələr verən və strateji obyekt kimi tanınan terminalın ümumi illik yükaşırma gücü 10 milyon tondan çox neft məhsulu təşkil edir. Eyni zamanda, yüksək infrastruktur imkanlarına malik olan bu nəhəng kompleks 20-yə yaxın müxtəlif maye neft məhsulunun daşınması təcrübəsinə malikdir. “SOCAR Midstream Operations” tərəfindən idarə olunan terminalda hazırda genişləndirmə işləri aparılır və rezervuar parkının tutumu 407 min kubmetrdən 487 min kubmetrə çatdırılması planlaşdırılır.

Azərbaycan Dövlət Neft Şirkətindən verilən məlumata əsasən, 2025-ci ildə Kulevi terminalı vasitəsilə, ümumilikdə 2,2 milyon ton xam neft, neft, neft-qaz və neft-kimya məhsulları ötürülüb. Hesabat dövründə terminalda xam neftlə yanaşı, paraxylene və propilen kimi neft-kimya məhsulları, eləcə də benzin, dizel, LPG, JET A-1 aviasiya yanacağı, kerosin, metanol, nafta və digər neft-qaz məhsullarının ötürülməsi də həyata keçirilib.

Ötən il terminalın infrastrukturunun inkişafı istiqamətində mühüm işlər görülüb. Belə ki, yeni 7 nömrəli çənlər parkında hər biri 20 min kubmetr həcmində olan 4 çənin tikintisi üzrə yekun investisiya qərarı qəbul olunub. Layihənin ilkin mühəndislik layihələndirilmə mərhələsi tamamlanıb və tikinti üzrə tender prosesi həyata keçirilib. Bununla yanaşı, yeni dəmir yolu estakadasının və dalğaqıranın tikintisi üzrə ilkin texniki və əməliyyat təhlilləri aparılıb.

Şirkətdən o da bildirilib ki, 2026-cı ildə terminalda yeni çənlər parkının tikintisinə başlanılması və layihənin 2027-ci ilin ortalarında tamamlanması planlaşdırılır. Eyni zamanda, yeni dəmir yolu estakadası və dalğaqıran üzrə konsept seçimi mərhələsinin yekunlaşdırılması, həmçinin 3-cü gəmiyanalma körpüsünün tikintisi üzrə ilkin texniki-iqtisadi təhlillərin aparılması nəzərdə tutulur.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

ARAŞDIRMA

**Son günlər ölkəmizin arıçılıq sektorunda ciddi narahatlıq doğuran məlumatlar yayılıb. Azərbaycan Arıçılar Assosiasiyasının rəhbəri Bədrəddin Həsrətovun açıqlamasına görə, Özbəkistandan respublikaya “Tropilaelaps” adlı təhlükəli parazit gənə ilə yoluxmuş arı ailələrinin gətirilməsi faktı qeydə alınıb. Bu məlumat arıçılar arasında ciddi təşvişə səbəb olub.**

# Arıçılıqda durum: 1 addım irəli, 1 addım geri

## *Bu “şirin” fəaliyyətə nələr “acı” qatır?*



Qurum rəhbəri qeyd edib ki, dünya təcrübəsində arı ailələri üçün ən təhlükəli parazitlərdən biri hesab olunan “Tropilaelaps” təkcə fərdi təsərrüfatlara deyil, eyni zamanda, bütöv regionun ekoloji tarazlığına və kənd təsərrüfatı zəncirinə böyük zərər vurmaq gücünə malikdir. Onun fikrincə, bu parazit sürətlə yayılmaqla arı populyasiyasının kütləvi şəkildə azalmasına gətirib çıxarır.

**Kənd təsərrüfatı eksperti Şahin Nəcəfovun** sözlərinə görə, “Tropilaelaps” gənəsi arıçılıqda geniş yayılan “Varroa” parazitindən daha təhlükəli hesab olunur. Çünki bu gənə birbaşa arı sürfələri ilə qidalanır və pətək daxilində çoxalma sürəti olduqca yüksəkdir. Yoluxmuş pətəklərdə arılar çox zaman qanadsız, şikəst və uçmaq qabiliyyəti olmadan doğulur. Bu isə arı ailəsinin qısa müddətdə zəifləməsi və tamamilə məhv olması ilə nəticələnir.

Ekspertlərin bildirdiklərinə görə, Özbəkistandan gətirilən arıların İsmayıllı kimi arıçılığın geniş yayıldığı bölgələrdə aşkar edilməsi təhlükənin daha da böyüdüyünü göstərir. Çünki belə bir vəziyyət yoluxmanın artıq ətraf mühitə yayıldığı ehtimalını artırır. Məlumata əsasən, Rusiya illər əvvəl bu təhlükə səbəbindən Özbəkistandan arı idxalına qadağa tətbiq etməklə yarana biləcək belə bir qorxulu xəstəliyin qarşısını alıb. Azərbaycanda da oxşar addımların atılması zəruri sayılır.

Hazırkı mərhələdə isə ən doğru yanaşma həmin ərazilərin karantin rejiminə alınması, yoluxmuş arı ailələrinin və materialların ciddi nəzarət altında məhv edilməsi, eləcə də bu istiqamətdə tədbirlərin gücləndirilməsidir. Əks halda, xəstəliyin ölkə daxilində sürətlə yayılması bal ixracı potensialına və daxili bazara ciddi zərbə vura bilər.

**Arıçılıq sahəsində 20 ildən artıq təcrübəsi olan mütəxəssis Kazım Nəbiyev** də vəziyyətin təhlükəli olduğunu vurğulayır. Onun sözlərinə görə, arıçı üçün pətəyin məhv olması yalnız maddi itki deyil, bu, həm də illərlə formalaşdırılmış seleksiya və genofondun itirilməsi deməkdir. K.Nəbiyev bildirir ki, “Tropilaelaps” kimi parazitlə mübarizə adi dərman vasitələri ilə çox çətin aparılır. Parazit gözlə çətin seçildiyi üçün xəstəlik çox vaxt gec aşkar edilir və nəticədə itkilərin qarşısını almaq mümkün olmur.

Ekspertlərin fikrincə, müxtəlif yollarla, bəzən sənədlərdə “təmiz” göstərilərək ölkəyə gətirilən arılar yerli Boz Qafqaz arı cinsi üçün ciddi təhlükə mənbəyinə çevrilə bilər. İsmayıllı rayonu arıçılığın əsas mərkəzlərindən biri hesab olunduğundan, xəstəliyin bu ərazidə yayılması digər dağlıq və dağətəyi rayonlarda da zəncirvari yoluxma riskini artırır. Arıçılar bildirirlər ki, belə bir təhlükə son illər müşahidə olunmayıb və məsələ təxirəsalınmaz tədbirlər tələb edir.

Bu səbəbdən aidiyyəti dövlət qurumlarının, xüsusilə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) təcili şəkildə reydlərə başlayaraq idxal prosesini araşdırması və yoluxma ehtimalı olan arı ailələrinin taleyi barədə rəsmi açıqlama verməsi zəruri hesab olunur.

Qeyd edək ki, artıq AQTA Özbəkistandan Azərbaycana gətirildiyi iddia olunan arılarla bağlı araşdırmaya başlayıb. Mütəxəssislərin fikrincə, bu tip xəstəliklərin bioloji təhlükəsi onun gizli və sürətli yayılma potensialı ilə bağlıdır. Beynəlxalq təcrübə göstərir ki, arı ailələri, paket arılar və ana arılar vasitəsilə xəstəliklərin ölkələr arasında yayılması çox asan baş verir. Məhz bu səbəbdən bir sıra dövlətlər arı idxalı üzərində ciddi baytarlıq və fitosanitar nəzarət mexanizmləri tətbiq edir. Məlumatlara görə, Rusiyanın Özbəkistandan arı idxalına qadağa qoyması da bu təhlükənin real xarakter daşıdığından xəbər verir.

Mütəxəssislər xəbərdarlıq edirlər ki, proses vaxtında nəzarətə götürülməsə, nəticə təkcə fərdi təsərrüfatların zərəri ilə məhdudlaşmayacaq. Xəstəliklər qısa müddətdə geniş ərazilərə yayılaraq arı populyasiyasının kəskin azalmasına, nəticədə kənd təsərrüfatının digər sahələrinin inkişafına ciddi təsir göstərəcək.

### *Ekspert rəyi*



**Kamran SEYDƏLİ,**
**“Sarı Pətək” Arıçılıq Təsərrüfatının rəhbəri**

Son dövrlərdə respublikamıza xarici ölkələrdən, xüsusilə Özbəkistandan paket arıların gətirilməsi ciddi narahatlıq doğurur. Bu məsələ artıq təkcə arıçılıq sahəsinin deyil, ümumilikdə, kənd təsərrüfatının və ekoloji təhlükəsizliyin əsas mövzusuna çevrilib.

Məlumdur ki, xaricdən gətirilən arılarla birlikdə ölkəyə təhlükəli parazitlərin, o cümlədən “Tropilaelaps” gənəsinin daxil olması ehtimalı yüksəkdir. Bu parazit qısa müddətdə arı ailələrini zəiflədərək məhv edir və geniş yayılma qabiliyyətinə malikdir. Beynəlxalq təcrübə də göstərir ki, bu təhlükə realdır. Rusiya kimi ölkələr narahatlıq doğuran belə bir vəziyyəti nəzərə alaraq arı idxalına ciddi məhdudiyyətlər tətbiq edir. Bu isə problemin qlobal səviyyədə diqqət mərkəzində saxlanıldığını təsdiqləyir.

Hazırda Azərbaycanda bu istiqamətdə kifayət qədər sərt nəzarət mexanizmlərinin tətbiq olunmaması ciddi narahatlıq doğurur. Belə bir hal isə yerli arı cinslərinin sıradan çıxması, təhlükəli xəstəliklərin sürətlə yayılması, arıçılıq təsərrüfatlarının zərər görməsi, eləcə də bitkilərin tozlanmasının zəifləməsi və məhsuldarlığın azalması kimi təhlükələr yaradır. Qeyd olunanları nəzərə alaraq aidiyyəti dövlət qurumlarına üz tutaraq bildirirəm ki, xaricdən paket arı idxalı məsələsi dərhal yenidən qiymətləndirilməli, bioloji təhlükəsizlik tədbirləri gücləndirilməli, riskli idxal proseslərinə müvəqqəti məhdudiyyətlər tətbiq olunmalı və yerli arıçılığın qorunması prioritet elan edilməlidir.

“Tropilaelaps” təhlükəsi ilə bağlı yaranmış vəziyyət göstərir ki, Azərbaycanda arıçılıq sektorunda biotəhlükəsizlik mexanizmləri tam sistemli şəkildə formalaşmayıb. Mövcud normativ baza əsasən ümumi baytarlıq və fitosanitar nəzarət çərçivəsində fəaliyyət göstərir. Lakin arıçılıq kimi spesifik və yüksək riskli sahə üçün daha hədəflənmiş hüquqi mexanizmlərə ehtiyac var.

Hazırda proseslərin nəzarəti əsasən Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçirilsə də, təcrübədə qeyri-rəsmi idxal kanallarının mövcudluğu və sahəvi nəzarətin zəifliyi təhlükənin qarşısını tam almağa imkan vermir. Buna görə də arı ailələri və ana arıların idxalı üçün ayrıca “yüksək riskli bioloji məhsul” statusu müəyyənləşdirilməli, bu çərçivədə təkcə akkreditə olunmuş təsərrüfatlardan idxala icazə verilməsi, idxal öncəsi və sonrası məcburi laborator analizlərin reallaşdırılması, minimum 30-45 günlük karantin müddətinin tətbiqinin gerçəkləşdirilməsi diqqət mərkəzində saxlanılmalıdır.

Bütün bunlarla yanaşı, bütün arı xəstəlikləri və yoluxma halları üzrə vahid elektron sistem yaradılmalı, bu istiqamətdə fəaliyyət göstərən təsərrüfatların sertifikasiyası həyata keçirilməli, xəstəliklərə qarşı profilaktik tədbirlərin tətbiqinə xüsusi əhəmiyyət verilməli, arı və arıçılıq məhsullarının qeyri-qanuni idxalı və satışı üçün daha sərt inzibati, eləcə də maliyyə sanksiyaları tətbiq edilməlidir. Xəstəlik səbəbindən arı ailələrini itirən təsərrüfatlar üçün dövlət dəstəyi və aqrar sığorta alətləri genişləndirilməlidir.

### Statistika nə deyir?

Mövcud təhlükə arıçılıq sektorunda artıq müşahidə olunan geriləmə fonunda daha ciddi narahatlıq doğurur. Rəsmi statistikaya əsasən, ötən il Azərbaycanda 29 min 456 təsərrüfatda mövcud olan 545 min arı ailəsindən 4 min 76 ton bal və digər arıçılıq məhsulları əldə edilib. Əvvəlki illə müqayisədə arı ailələrinin sayı 5,9 faiz, bal istehsalı 7,9 faiz, mum istehsalı isə 6,9 faiz azalıb. Vərəmum və güləm istehsalında da geriləmə qeydə alınıb.

Mütəxəssislər bildirirlər ki, arıçılıq yalnız bal istehsalı ilə məhdudlaşmayan, ekoloji və iqtisadi baxımdan strateji əhəmiyyət daşıyan sahədir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və digər beynəlxalq qurumların məlumatlarına görə, dünyada yetişdirilən kənd təsərrüfatı bitkilərinin, təxminən, üçdə biri tozlandırma prosesindən asılıdır və bu prosesin əsas yükünü məhz arılar daşıyır. Bu baxımdan arı populyasiyasının azalması kənd təsərrüfatının ümumi məhsuldarlığına da mənfi təsir göstərir.

Azərbaycanda arıçılıq son onillikdə kənd təsərrüfatının diversifikasiyası baxımından diqqətçəkən istiqamətlərdən biri hesab olunur. Ölkənin coğrafi və iqlim müxtəlifliyi zəngin flora növlərinin formalaşmasına şərait yaradır ki, bu da keyfiyyətli bal istehsalını mümkün edir. Bununla belə, son illərin statistik göstəriciləri sektorda müəyyən struktur problemlərin mövcudluğunu ortaya qoyur.

Qlobal arıçılıq bazarında iqlim dəyişiklikləri arı populyasiyasına təsir edən əsas amillərdən biridir. Temperatur dəyişiklikləri, quraqlıq dövrlərinin artması, flora müxtəlifliyinin azalması arı ailələrinin məhsuldarlığını aşağı salır. Beynəlxalq araşdırmalar bir sıra ölkələrdə arı ailələrinin sayında azalma və mövsümi məhsuldarlığın düşməsi tendensiyasının gücləndiyini göstərir. Bununla yanaşı, kənd təsərrüfatında istifadə edilən pestisidlər və digər kimyəvi maddələr də arı koloniyalarının zəifləməsinə təsir edən əsas amillər sırasındadır. Avropa və Şimali Amerika ölkələrində aparılan tədqiqatlar bu amilin arıçılıq üçün ciddi təhlükə yaratdığını təsdiqləyir.

Bütün bu narahatlıq doğuran məqamlara baxmayaraq, Azərbaycanda arıçılıq sektorunda müəyyən struktur dəyişiklikləri də müşahidə edilir. Xüsusilə arı südü istehsalında artımın qeydə alınması təsərrüfatların daha yüksək dəyərli məhsullara yönəlməyə başladığını göstərir. Qlobal bazarda arı südü, güləm və vərəmum kimi məhsullar baldan daha yüksək qiymətlə satılır və əczaçılıq, kosmetologiya, eləcə də qida sənayesində geniş istifadə olunur.

Beynəlxalq bazar göstəriciləri arıçılıq məhsullarına tələbatın təkcə qida məhsulu kimi deyil, həm də sağlamlıq və bioaktiv məhsullar kateqoriyasında artdığını göstərir. Bu isə arıçılıq təsərrüfatlarının məhsul çeşidini genişləndirməsinin və əlavə dəyər yaradan məhsullara istiqamətləndirilməsinin iqtisadi baxımdan perspektivli olduğunu ortaya qoyur. Arıçılıq, eyni zamanda, regionların sosial-iqtisadi inkişafında da mühüm rol oynayır. Xüsusilə dağlıq və yarı dağlıq ərazilərdə arıçılıq alternativ gəlir mənbəyi kimi çıxış edir. Bununla belə, statistik göstəricilər arı ailələrinin sayında azalma fonunda sektorun daha çox kiçik təsərrüfatlar üzərində formalaşdığını da göstərir.

Qlobal təcrübəyə görə, arıçılığın dayanıqlı inkişafı üçün xəstəliklərə qarşı mübarizə metodlarının təkmilləşdirilməsi, texnoloji yeniliklərin tətbiqi, məhsul emalı və markalaşdırma imkanlarının genişləndirilməsi mühüm əhəmiyyət daşıyır. Bir sıra ölkələrdə bal və digər arıçılıq məhsullarının emalı və brendləşdirilməsi kənd təsərrüfatı məhsullarının ixrac potensialını artıran əsas amillərdən biri hesab olunur.

Mütəxəssislərin fikrincə, Azərbaycanda arıçılıq sahəsində müşahidə edilən istehsal azalması qlobal ekoloji və iqtisadi tendensiyalar fonunda daha geniş şəkildə qiymətləndirilməlidir. Eyni zamanda, “Tropilaelaps” kimi təhlükəli parazitin ölkəyə daxil olması ehtimalı sektorda vəziyyəti daha da gərginləşdirə bilər. Bu baxımdan idxal üzərində ciddi nəzarət mexanizmlərinin karantin tədbirlərinin gücləndirilməsi və dövlət qurumlarının operativ reaksiyası strateji əhəmiyyət daşıyır.

### Rəsmi nəzarət və ictimai məsuliyyət

Arıçılıqda müşahidə olunan problemlər qlobal xarakter daşıyır. Dünya miqyasında iqlim dəyişiklikləri, flora müxtəlifliyinin azalması və pestisid istifadəsi arı populyasiyasına ciddi təsir göstərir. Temperatur dəyişiklikləri və quraqlıq dövrlərinin artması da arıların qida bazasını zəiflədir, nəticədə koloniyaların davamlılığı azalır. Bununla yanaşı, son illər bir sıra xəstəlik və parazitlər, o cümlədən “Tropilaelaps” kimi təhlükəli gənələr getdikcə daha geniş yayılır. Bu isə arıçılıq sektorunu təkcə iqtisadi deyil, həm də ekoloji təhlükəsizlik məsələsinə çevirir.

AQTA-nın Özbəkistandan Azərbaycana gətirildiyi iddia olunan arılarla bağlı araşdırmaya başlaması da müsbət addımdır. Lakin mövcud vəziyyət göstərir ki, bu məsələdə yalnız reaktiv tədbirlər reallaşdırmaq kifayət etmir. Mütəxəssislərin qənaətincə, bu sahədə müəyyən istiqamətlər üzrə sistemli yanaşmaya ehtiyac var. Məsələn, arı idxalına dair daha sərt karantin və sertifikatlaşdırma mexanizmləri yaradılmalı, xəstəliklərin erkən diaqnostikası üçün laborator imkanlar genişləndirilməli, arıçılar arasında maarifləndirmə işi gücləndirilməli, qeyri-rəsmi idxal kanallarının qarşısı alınmalı və regional monitorinq sistemi qurulmalıdır.

“Tropilaelaps” gənəsi ilə bağlı hadisə isə, əslində, daha böyük bir problemin simptomudur. Qloballaşan dünyada kənd təsərrüfatı sektoru təkcə iqtisadi deyil, həm də biotəhlükəsizlik cəhətdən qorunmalıdır. Bu baxımdan Azərbaycan arıçılığı hazırda iki istiqamətli təzyiq altındadır. Birincisi, bir tərəfdən qlobal iqlim və ekoloji dəyişikliklər, digər tərəfdən isə nəzarətsiz idxal və xəstəlik təhlükəsi ciddi narahatlıq doğurur. Bu şəraitdə düzgün idarəetmə qərarlarının verilməsi sektorda geriləmənin qarşısını alınmasını şərtləndirir. Başqa sözlə, səmərəli nəzarət, innovasiya və struktur islahatları həyata keçiriləcəyi təqdirdə arıçılıq kənd təsərrüfatının bir sahəsi olaraq, yüksək əlavə dəyər yaradan strateji istiqamət kimi inkişaf edə bilər.

***Vaqif BAYRAMOV***
***XQ***

# Yaxın Şərq böhranı dünya iqtisadiyyatını silkələyir

## *“Hörmüz blokadası”nda fırtına davam edir*

**Bir aydan artıqdır ki, Fars körfəzində davam edən hərbi qarşıdurma dünya iqtisadiyyatında parçalanma meyillərini də sürətləndirir. Beynəlxalq Valyuta Fondunun (BVF) mütəxəssisləri “Yaxın Şərqdə müharibənin enerji, ticarət və maliyyə sektorlarına təsiri” adlı hesabatda vurğulayırlar ki, Hörmüz boğazının bağlanması və enerji resurslarının qıtlığı yanacaq, kimya sənayesi məhsulları və ərzaq mallarının bahalaşmasına gətirib çıxarır, nəticədə, qlobal səviyyədə inflyasiya təzyiqləri güclənir və istehsal tempi zəifləyir.**



Bu inflyasiya dalğası müəyyən səviyyədə Azərbaycana da təsirsiz ötüşməyə bilər. Hələlik, neft qiymətlərinin yüksəlməsindən fayda əldə edən ölkəmiz bir çox inkişaf etməkdə olan ölkələrlə müqayisədə daha üstün iqtisadi mövqedə qərarlaşır.

Ümumiyyətlə, münaqişə dünya iqtisadiyyatına “yüksək qiymətlər və zəif artım” kimi təsir edir. Beynəlxalq Banklararası İnkişaf Bankı (EBRD) da bildirir ki, neft qiymətləri 100 ABŞ dollarından yuxarı səviyyədə qaldıqca qlobal ÜDM ən azı 0,4 faiz azalacaq, inflyasiya isə 1,5 faizdən çox yüksələcək. Hörmüz boğazından keçən xammal ticarəti dünya tədarükünün 25–35 faizini təşkil edir və bu ərzaq inflyasiyasına birbaşa təzyiq göstərir. Digər tərəfdən, dünya üzrə dizelin təxminən 10 faizi və aviasiya yanacağının 20 faizi məhz Hörmüz boğazından daşınır. Qlobal neft tranzitinin 20 faizdən çoxu məhz buradan həyata keçirilir. Yəni Avropa və Asiyada yüksək enerji hesabları sənaye xərclərini qaldırır, uçot dərəcələrini artırır, bunu ölkələrdə yenidən qiymət təzyiqi və məzənnə gərginliyi izləyir.

### “Hörmüz blokadası” və ticarətdə tormozlanma

Hörmüz boğazında yaranmış gərginlik dünya ticarətində logistika xərclərini də rekord səviyyəyə çıxarıb. Reuters agentliyinin məlumatına görə, böyük həcmdə LNG (mayeləşdirilmiş qaz) limanları öz funksiyasını itirib. Boğazdan keçən tankerlər dayandırılır, keçmək istəyənlər isə vurulur. Nəticədə VLCC (çox böyük xam neft daşıyıcısı) sinfinə aid tanker xərcləri 423 min dollara qalxaraq tarixi göstəriciyə çatıb.

Hərəkətsizlik səbəbilə hər gün minlərlə tona yaxın neftin daşınması ləngiyir. İngiltərə, Yaponiya və digər ölkələrin gəmiləri təhlükəsizlik səbəbindən Xəzər və Cənub-Şərqi Asiya marşrutlarına yönəldilib, bu da yükdaşımada əlavə yanacaq və sığorta xərclərini artırır. Reuters-in hesabatında qeyd olunur ki, “Hörmüz boğazından təhlükəsiz keçid təmin edilməyincə, gəmiçilik fəaliyyətləri dayandırılmağa davam edəcək”.

EBRD isə proqnozlaşdırır ki, Hörmüz bağlandığı təqdirdə, qlobal neft təchizatının təxminən 14 faizi bazardan silinəcək və bu da qiymətlərin hələ bundan sonra da artacağına işarədir. Belə blokadaların davamı enerji nəqli üçün alternativ boru xətləri və terminal investisiyalarını sürətləndirir. Lakin bu yeni infrastruktur xərcləri və mövcud limanların yüklənməsi beynəlxalq logistika yükünü artıraraq istehsal və idxal qiymətlərinə təkan verir.

### Neft qiymətlərinin yüksəlməsi və Azərbaycan

Müharibə fonunda neft dünya bazarında kəskin yüksəlişdədir. Dünya bazarında Azərbaycan neftinin də bahalaşması davam edir. “Azeri Light” markalı neftin bir barelinin qiyməti 4,3 dollar və ya 3,36 faiz artaraq 132,35 dollar olub. "Azeri Light" neftinin ən aşağı qiyməti isə 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

Qeyd edək ki, ölkəmiz 2026-cı il dövlət büdcəsində neftin 1 barelinin orta qiymətini 65 dollar olaraq bəlirləyib. Bu fərq dövlət büdcəsinə valyuta axınlarını formalaşdırır. Qeyd edək ki, bu ilin yanvar-fevral aylarında Azərbaycanın neft ixracı 3,6 milyon ton təşkil edib və 1,7 milyard dollar gəlir əldə olunub.

Neftdən gələn əlavə gəlirlər 2026-cı il büdcəsini möhkəmləndirərək dövlət investisiyaları üçün əlavə qaynaq yaradır. Avropanın enerji mənbələri şaxələnməsi strategiyasında Azərbaycan mühüm tədarükçüdür, bu da ölkəmizə uzunmüddətli ixrac bazarları təmin edir. Qaz ixracının artması Avropaya alternativ təminat verib, bu da SOCAR və tərəfdaşların gəlirlərini artırır. Bütün bunlar beynəlxalq reytinq qurumlarının qiymətləndirməsinə görə Azərbaycan üçün makroiqtisadi dayanıqlığı gücləndirir. Neftin qiymətinin hər barel üçün əlavə 10 dollar artması Azərbaycanın illik ixracının dəyər ifadəsində təxminən 3 milyard dollar artmasına və 1,5–2 milyard dollar məbləğində əlavə büdcə gəlirlərinə səbəb olur.

Digər tərəfdən, risklər də var. "ING Group" şirkəti yaydığı hesabatda bildirir ki, ölkəmizin idxalının böyük bir hissəsi Yaxın Şərqdəki vəziyyətlə bağlı inflyasiya risklərinə məruz qalan regionlardan daxil olur ki, bu da ölkədə istehlak qiymətləri indeksinə (İQİ) yüksək risklər yaradır. 2024-cü ildə ultra aşağı inflyasiya dövründən sonra qiymət artımı 2025-ci ilin əvvəlindən etibarən 5–6 faiz diapazonuna qayıdıb və bu səviyyədə qalmaqdadır: “İdxalın təxminən yarısının Yaxın Şərqlə bağlı inflyasiya risklərinə məruz qalan regionlardan daxil olduğunu nəzərə alsaq, istehlak qiymətləri indeksi artım yönlü risklərlə üzləşir. Qiymətləndirməmizə görə, dünya üzrə ərzaq qiymətlərinin 10 faiz artması inflyasiya səviyyəsinə təxminən 1,5 faiz bəndi əlavə edəcək”.

Bundan əlavə, digər ölkələr üçün də risklər müxtəlifdir. Məsələn, İndoneziyada nikel istehsalı da zərər görə bilər. Belə ki, bu ölkə elektrik avtomobilləri üçün akkumulyator istehsalında istifadə olunan dünya nikelinin təxminən yarısını təmin edir. Hazırda isə İndoneziya neft emalının əlavə məhsulu olan və nikelin filizdən ayrılması üçün vacib olan kükürdün çatışmazlığı ilə üzləşir. Bu kükürd əsasən Körfəz ölkələrindən tədarük olunur. Dünyada karbamid və onun istehsalı üçün xammalın təxminən üçdəbiri təbii qazla zəngin Qətər, Səudiyyə Ərəbistanı və İran tərəfindən təmin edilir. Azot gübrələrinin qıtlığı isə aqrar sektorda məhsuldarlığa ciddi mənfi təsir göstərə bilər.

Ən həssas vəziyyətdə isə aşağı gəlirli ölkələr qalır. BVF-nin qiymətləndirməsinə görə, bu ölkələrdə ərzaq xərcləri ümumi istehlakın təxminən 36 faizini təşkil edir. Müqayisə üçün qeyd edək ki, bu göstərici inkişaf etməkdə olan ölkələrdə 20 faiz, inkişaf etmiş ölkələrdə isə cəmi 9 faiz səviyyəsindədir.

Xülasə, Yaxın Şərqdəki müharibə bütün dünya üçün texniki və siyasi şok dalğası yaradır, lakin Azərbaycan indiki şəraitdə şanslı tərəf kimi çıxış edir. Ölkəmiz neft qiymətlərinin qalxmasına görə iqtisadi gəlirləri artırır, Avropa partnyorları arasında etibarlı enerji təchizatçısı kimi önə çıxır. Eyni zamanda, qlobal inflyasiya təzyiqlərinə qarşı diqqətli olmaq lazımdır. İqtisadi siyasətçilər inflyasiya riski fonunda makrodayanıqlığı qoruyacaq tədbirləri gücləndirməli, sosial dəstək mexanizmlərini vaxtında işə salmalıdır. Dövlət büdcəsindən əldə edilən əlavə qazanc strateji yenidənqurma və modernləşdirmə layihələrində (infrastruktur, bərpaolunan enerji və s.) sərmayə kimi istifadə olunmalıdır.

Ümumilikdə, BVF-nin tövsiyə etdiyi kimi, bu qlobal şok şəraitində ölkə manevrləri dəqiqliklə kalibrləməli, ehtiyatları qoruyub saxlamağa diqqət yetirməlidir. Azərbaycanın prioriteti iqtisadi şaxələndirmə, özəl sektorun gücləndirilməsi və enerji bazarında strategiya tərtib etməklə riskləri azaltmaq, mövcud fürsətləri isə maksimallaşdırmaq olmalıdır.

***Nurlan ABDALOV***
***XQ***

# XX əsrin erməni qaniçənliyi

## *Bu, qonşuluğa xəyanətə vurulmuş lənət damğasıdır*



**Hər il mart ayının 31-i Azərbaycanda dövlət səviyyəsində Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd edilir. Bu təqvim son yüz ildə Azərbaycan tarixində baş vermiş faciəli hadisələrin xalqın yaddaşındakı qanlı izlərini özündə əks etdirir. Azərbaycanlıların kütləvi şəkildə öldürülməsini, repressiyalara məruz qalmasını XX yüzilliyin ən qanlı səhifələrindən biri hesab etmək olar.**

1918-ci il martın 30-31-də Bakı Kommunası və erməni şovinistləri Azərbaycanda kütləvi qırğınlar, qətliamlar törətməklə bəşər tarixində misli görünməmiş soyqırıma imza atmışlar. Bu soyqırımının əsl hüquqi-siyasi qiyməti isə Azərbaycan dövlət müstəqilliyinə qovuşduqdan sonra verilmişdir. Mart hadisələrinin 80-ci ildönümündə - 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman erməni millətçilərinin hərəkətlərinə verilən ilk dolğun və hərtərəfli hüquqi-siyasi qiymət olmuşdur.

Bu fərman Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da bir növ proqram sənədidir. Fərmanda deyilir ki, Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif olunmuş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir.

Təəssüflər olsun ki, bu insan qatillərinin bənzəri olmayan vəhşilikləri obyektiv və ya subyektiv səbəblərdən zaman-zaman unutdurulmuş, tarixi məqamlar təhrif olunmuşdur. Bu məsələyə böyük ürək ağrısı, vətəndaş yanğısı ilə yanaşan ümummilli lider Heydər Əliyev deyirdi: "Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur. Tarixi yaddaşsızlıq və unutqanlıq xalqımıza baha başa gələ bilər. Azərbaycanlılara qarşı zaman-zaman törədilən bu ağır cinayətləri unutmamaq, böyüyən nəsli bədxah qüvvələrə və onların məkrli niyyətlərinə qarşı ayıq-sayıqlıq ruhunda tərbiyə etmək mühüm vəzifədir".

Artıq dünya ictimaiyyətinə bəlli olan erməni terrorizmi "Daşnaksütyun" partiyasının 1907-ci ildə qəbul edilmiş nizamnaməsinə uyğun şəkildə aparılmışdır. Bu cinayət faktı ictimai-siyasi, iqtisadi, mədəni dəyişikliklər əsas götürülərək müxtəlif metod və istiqamətlərlə həyata keçirilmişdir. Erməni terrorçularına bütün erməni xalqı, xüsusilə də erməni diasporu tərəfindən maliyyə yardımı göstərilməsi də sirr deyildir.

Onu da xatırladım ki, erməni terrorçuları indiyədək yalnız türklərə qarşı deyil, eyni zamanda, erməni xalqının ədalətsiz mövqeyini müdafiə etməyən ermənilərə, ruslara, ləzgilərə qarşı da terror aktı tətbiq etmişlər. Rus tədqiqatçı-jurnalisti V.Veliçko "Qafqaz" əsərində yazmışdır: "... Yelizavetpol quberniyasının Tərtər qəsəbəsinə ruslar tərəfindən gətirilib yerləşdirilən ermənilər sonradan iblis qəddarlığı ilə elə ruslara qarşı da müsibətlər törədirlər... Erməni quldurları qəsəbədə yaşayan rus ailələrini qorxu altında saxlayır, nümayəndə göndərib onların bu yaşayış məntəqəsini tərk etmələrini tələb edirlər.

Rusların qəsəbədən çıxmadıqlarını görən əli xəncərli ermənilər onların içməli su gətirdikləri yolu kəsir, dinc sakinləri bulağa buraxmırlar. Rusların məcbur qalıb içməli su kimi istifadə etdikləri çaya peyin, heyvan cəmdəkləri tökərək, suyu zəhərləyir, qəsəbədə dəhşətli xəstəliyin yayılmasına nail olurlar. Bunun qarşısının alınması məqsədilə göndərilən erməni həkimi öz vəzifəsini yerinə yetirmək əvəzinə, "rus köpəkləri, buradan rədd olun, yoxsa, hamınız qırılacaqsınız!" deyir. Öz havadarlarına qarşı nankorluq edən millətdən bundan artıq nə gözləmək olar?!.".

Yuxarıda adıçəkilən erməni terror təşkilatı tərəfindən Qafqazın baş rəisi, general-adyutant, knyaz Qriqori Sergeyeviç Qolitsin 1903-cü il oktyabr ayının 14-də, həmin il avqustun 13-də isə Aleksandropol (Gümrü) şəhərində rus provaslav kilsəsinin baş keşişi Vasiliyev işgəncə ilə öldürülmüşdür. 1904-cü il sentyabrın 11-də Gəncə quberniyasının vitse-qubernatoru Andrey Andreyevi, dekabrın 15-də Şuşa şəhər polisinin rəisi, polkovnik Saxarovu da erməni terrorçuları qətlə yetirmişlər. 1905-ci ildə Qafqaz canisini İllarion Vorontsov-Daşkovu, həmin ilin 19 fevralında İrəvan şəhərində quberniya həkimi, mülki müşavir Urazovu, 1907-ci ildə terrorçu erməni silahlı dəstələrinə qarşı çıxdığına görə general Maqsud Əlixanov Avarskini ailə üzvləri ilə birlikdə Dro (Drastamsat) Kanayan, Kamo (Simon Ter-Petrosyan) tərəfindən vəhşicəsinə öldürülmüşlər.

Ermənilərin terror əməliyyatını planlı şəkildə həyata keçirmələri ilə bağlı bir məqama da toxunmaq istərdim. Erməni nümayəndələrinin 1919-cu ildə İrəvanda keçirilmiş 9-cu ümumdünya qurultayında terror aktlarının aparılması barədə xüsusi qərar qəbul edilmişdir. Onun icrası isə əslən Türkiyə ermənisi olan Haqolder Hakopyan adlı şəxsə tapşırılmışdır.

Şahan Natoli ləqəbli bu caninin göstərişi ilə 1921-ci il mart ayının 19-da Berlin şəhərində Türkiyənin siyasi və ictimai xadimi, daxili işlər, sonralar isə müdafiə naziri olmuş Tələt Paşa Soqolan Terilyan adlı bir erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir. Berlin məhkəməsinə çıxarılmış qatil S.Terilyan ermənilərin hakimlərə verdikləri külli miqdarda rüşvət nəticəsində bəraət qazanmışdır.

Yeri gəlmişkən, Tələt Paşanın qətli ilə əlaqədar 1989-cu ildə ABŞ-da nəşr edilən "National Geographic" jurnalında bir yazı nəşr olunmuşdur. Məqalədə göstərilir ki, jurnalist Belqrad şəhərində bir erməni ilə təsadüfən tanış olur. Söhbət zamanı aydın olur ki, həmin şəxs Tələt Paşanı qətlə yetirən qatil ermənin oğludur. Jurnalist ona belə bir sualla müraciət edir: "Bu hərəkəti necə qiymətləndirmək olar?". Erməni isə cavabında deyir ki, mən atamın bu hərəkəti ilə fəxr edirəm...

Erməni terrorçuları Azərbaycan Demokratik Cümhuriyyətinin simalarına da düşmən kəsilmiş, 1921-ci ilin yay aylarında Fətəli xan Xoyskini, Həsən bəy Ağayevi, Firudin bəy Köçərlini qətlə yetirmişlər. Yaxud başqa bir fakt. 1921-ci ilin yanvar ayında Nəriman Nərimanovun göstərişi ilə Almaniyaya neft avadanlığı almaq üçün göndərilən Behbudağa Cavanşir yolüstü İstanbulda olarkən Malta adasında sürgündə olan dostu Əhməd bəy Ağayevə baş çəkib evdən çıxarkən daşnak partiyasının üzvü Tolpakyan onu öldürmüşdür...

SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış Ermənistan Respublikası dövlət səviyyəsində terroru dəstəkləyərək, terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmişdir. Çoxsaylı faktlar, məhkəmə materialları sübut edir ki, Azərbaycanın dinc əhalisinə qarşı, o cümlədən nəqliyyat vasitələrində törədilən terror aktları Ermənistan hökuməti tərəfindən maliyyələşdirilərək, bu ölkənin xüsusi xidmət orqanları tərəfindən həyata keçirilmişdir. Ötən əsrin 90-cı illərinin əvvələrində Ermənistanın rəsmi dairələri "Daşnaksütyun", ASALA, MAQ, "Erməni birliyi", "Erməni Azadlıq Cəbhəsi" və digər məşhur erməni terror təşkilatları fəallarının reabilitasiyası məqsədi ilə genişmiqyaslı kampaniyaya başlamış, onlara sığınacaq verməklə yaşayış və fəaliyyətləri üçün şərait yaratmış, müvafiq maliyyə dəstəyi göstərmişlər.

1983-cü ilin iyul ayında Parisdə Orli aeroportunda 8 nəfərin ölümü və 60 nəfərin yaralanması ilə nəticələnmiş terror aktına görə ömürlük həbs cəzasına məhkum edilmiş terrorçu Varocyan Qarabedyanın azad olunması üçün Ermənistanda dövlət səviyyəsində imzatoplama kampaniyası keçirilmişdir. 2001-ci ilin aprelində Fransa məhkəməsi tərəfindən azad olunan terrorçu Ermənistanda rəsmi sığınacaq tapmışdır. Məşhur terrorçu, Qərbi Avropada "ASALA-nın inqilabi hərəkatı" adlı qruplaşmasının rəhbəri, 1985-ci il noyabrın 28-də 6 il müddətinə həbs olunmuş Monte Melkonyan 1990-cı ildə Fransa həbsxanasından buraxılaraq, Ermənistana gəlmiş və terror fəaliyyətini davam etdirmək üçün buradan Dağlıq Qarabağa göndərilmişdir.

M.Melkonyan Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı erməni terror dəstəsinin komandiri olmuşdur. 1993-cü ildə Dağlıq Qarabağda öldürülən terrorçunun Yerevanda dəfn mərasimində rəsmi şəxslər, o cümlədən Ermənistan prezidenti də iştirak etmişdir. "Ermənistanın milli qəhrəmanı" elan olunmuş bu beynəlxalq terrorçunun adı Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmişdir.

Məşhur terrorçu, "Daşnaksütyun" partiyasının "Dro" terror qrupunun üzvü Qrant Markaryan Dağlıq Qarabağda terrorçu dəstələri yaradanlardan və Ermənistandan gətirilən silahlar vasitəsilə buradakı terrorçu qrupların silahlandırılmasında fəal iştirak edənlərdən biri olmuşdur.



1981-ci ildə Parisdə Türkiyə səfirliyinə basqının təşkilatçısı Vazqen Sislyan 1992-ci ildə Yerevandan Xankəndinə göndərilmişdir. V.Sislyan azərbaycanlılara qarşı terror aktlarının keçirilməsində fəal iştiraklarına görə sabiq prezident Robert Koçaryan tərəfindən "Qarabağ müharibəsinin qəhrəmanı" adına layiq görülmüşdür.

Qarabağın dinc azərbaycanlı əhalisinin öldürülməsində Ermənistan xüsusi xidmət orqanlarının himayə etdiyi Əbu Əli və Hilbert Minasyan kimi Yaxın Şərq mənşəli terrorçular da fəal iştirak etmişlər.

Ermənistan dövlətinin və erməni diasporunun maliyyə və təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terror təşkilatlarının Azərbaycana qarşı apardıqları müharibə 1980-ci illərdən başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədilə Ermənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur.

Həmin terror aktlarından bir neçəsini xatırlatmaq istərdim. 1989-cu il sentyabrın 16-da "Tbilisi-Bakı", 1990-cı il fevralın 18-də "Şuşa-Bakı", 1990-cı il iyulun 11-də "Tərtər-Kəlbəcər" sərnişin avtobusları partladılmışdır. 1993-cü il iyunun 2-də Bakı dəmir yolu vağzalında sərnişin qatarı vaqonunun partladılması nəticəsində dövlətə külli miqdarda maddi ziyan dəymişdir. Partlayışın icraçısı Rusiya vətəndaşı İqor Xatkovski Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsi kəşfiyyat şöbəsinin rəisi, polkovnik Caan Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək, casusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı aldığını etiraf etmişdir. İstintaq zamanı sübuta yetirilmişdir ki, həmin qrup 1992-1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törətmişdir.

Son iki yüz ildə erməni millətçilərinin və onların havadarlarının azərbaycanlılara qarşı apardıqları soyqırımı və deportasiya siyasəti xalqımızın qan yaddaşından heç zaman silinməyəcəkdir. Erməni millətçilərinin xalqımıza qarşı təcavüzü hələ də davam etməkdədir. Siyasi-ideoloji təxribat və dezinformasiya sahəsində zəngin təcrübəyə malik erməni millətçiləri və xaricdəki erməni lobbisi ölkəmizə qarşı əsl niyyətlərini gizlədərək, hiyləgər üsullarla dünya xalqlarını çaşdırmağa və XX əsrdə törətdikləri qırğın və işğalları unutdurmağa çalışırlar.

Ulu öndər Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir. Bu fərman Azərbaycan xalqına qarşı yönəlmiş soyqırımı cinayətinin bugünkü və gələcək nəsillərə çatdırılması, bütün dünyada ermənilər tərəfindən törədilən qırğınlara siyasi qiymət verilməsi baxımından olduqca mühüm bir sənəddir.

***Əvəz Mahmud LƏLƏDAĞ,***
***şair, publisist, dramaturq***

# Lənkəranda Sütəmurdov faciəsi

## *O zaman kəndin 13 ağsaqqalını erməni-bolşevik quldurları vəhşicəsinə qətlə yetirmişdilər*

**Erməni daşnaklarının 1918-ci ildə törətdiyi qanlı soyqırımı yurdumuzun cənub bölgəsindən də yan ötməyib. Şıvkunov adlı ermənipərəst quldurun rəhbərliyi ilə Lənkəranda və ətraf rayonlarda 40-dan çox kənd yandırılıb, günahsız insanlar xüsusi amansızlıqla qətlə yetirilib. Təkcə Lənkəran şəhərində, Girdəni, Vilvan, Gərmətük, Mamusta, Kərgəlan, Sütəmurdov, Osakücə və digər kəndlərdə minlərlə dinc sakin soyqırımın qurbanı olub.**



Qatı daşnak ünsürü Çepayev, Samsonov kimi cəlladları ətrafına yığmış Şıvkunov şəhərin mərkəzində Mir Əhməd xanın evini ələ keçirərək özünə qərargah yaradır. Şəhəri dənizdən top atəşinə tutur, evləri yandırır, əhalini qorxu içində saxlayırdı. Şəhər sakinləri hücumlardan qorunmaq üçün Osaküçə kəndindəki meşəliyə qaçır, ara sakitləşəndən sonra qayıdırdılar. Evləri isə hərbçilər tərəfindən qarət olunur, sonra yandırılırdı.

Sütəmurdov kəndi şəhərə bitişik olduğundan quldur dəstəsi tərəfindən daim nəzarətdə saxlanılırdı. Qaçaqların kəndlə əlaqəsini bəhanə edərək burada hər gün atışma olurdu. Doğma kəndinin tarixini gözəl bilən axund Hacı Fəxri Sadıqov 1918-ci ildə törədilmiş dəhşətli faciə barədə belə deyir:

– Lənkəran şəhərinə süvari qüvvələrdən ibarət Dikaya diviziya yerləşdirilib. Komandirləri bakılı milyonçu, görkəmli mesenat Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd olub. O dövrdə gənclər bəxtlərini sınamaq üçün tapançanı gicgahlarına yaxınlaşdırır və tətiyi çəkirdilər. Məhəmməd də bəxtini sınamaq istəyəndə əlindəki tapança açılır və təsadüfi hadisənin qurbanı olur. Lənkəran xanının davamçısı Əsgər xan və bir neçə hörmətli ağsaqqal cənazəni gəmi ilə Bakıya aparırlar. Bu hadisədən erməni daşnakları məharətlə istifadə edərək Lənkəran şəhərində qırğınlar törədiblər. Mayak ərazisində yüzlərlə adam vəhşicəsinə öldürülüb.

Silahlı quldurların hücumunun qarşısını almaq məqsədilə kəndin 13 hörmətli ağsaqqalı Şıvkunovun yanına gəlib. Ona qaçaqların kənddən çıxdığını deyir, atəşin dayandırılmasını xahiş edirlər. Şıvkunov ağsaqqalları girov saxlayaraq 3 əsgəri kəndə göndərir. Camaata hədə-qorxu gələn əsgərlər geri qayıdarkən təsadüfən qaçaqlarla rastlaşırlar. Atışma zamanı bir əsgər ölür, o birisi yaralanır. Sağ qalan əsgər Şıvkunovun yanına qaçıb vəziyyəti ona danışır.

Qəzəblənən quldurbaşı 13 ağsaqqalın qollarını bağlatdırıb başlarını qılıncla kəsdirir, bədənlərini hissə-hissə doğratdırır. Cəsədlərini taxta yeşiklərə yığıb Lənkəran-çayın dənizlə birləşdiyi dəhnə adlı ərazidə torpağa basdırırlar. Arabaçı Musa uzaqdan bunları görür və qorxusundan danışmır. Şıvkunovun dəstəsi Lənkərandan gedəndən sonra ağsaqqalların basdırıldığı yeri göstərir. Cəsədlərin birini paltarından, birini barmağındakı üzüyündən, birini üzündəki çapıqdan və digər bədən əlamətlərindən tanıyıb kənd məscidinin həyətində dəfn edirlər. Xüsusi amansızlıqla qətlə yetirilmiş ağsaqqallar üçün 7 gün matəm saxlanılır.

Ağsaqqal şəhid Xəlil Məşhədi Əliqulu oğlunun 90 yaşlı qızı Xeyri xanım, şəhid Şeyx Ənnağının nəvəsi, müəllim Nəcəfəli Nəcəfov və başqalarından bu dəhşətli faciə haqqında eşitmişəm, - deyə Hacı Fəxri Sadıqov bildirir. Qanlı hadisədən 108 il ötsə də yaddaşlardan silinməyib.

Azərbaycanlıların soyqırımı qurbanlarının 90 illiyi ərəfəsində şəhid ağsaqqalların uyuduğu Sütəmurdov kənd qəbiristanlığında onların adları həkk olunmuş xatirə abidəsi ucaldılıb. Hər dəfə soyqırımın ildönümündə abidə ziyarət olunur, ağsaqqalların unudulmaz xatirəsi ehtiramla yad olunur.

Qonşu Gərmətük kəndində də quldur dəstəsi axtarış aparארkən Balağa İsmayıl oğlu Lələyevin kömək üçün ona tərəf qaçan həyat yoldaşını və evdə gizlənmiş 7 gənci yerindəcə güllələyiblər.

Kərgəlan kəndində 70 kişini çayın qırağına gətirib vəhşicəsinə qətlə yetiriblər, - deyə tanınmış poliqrafçı, yazıçı-publisist Hacı Mehman Fərzullayev deyir. Cavan gəlini görən əsgər onun ardınca həyətlərinə hücum çəkir. Gəlin qaçıb qaynatasına xəbər verir. Qaynatası onu xalçaya bükübdivara söykəyir. Əsgər gəlini axtaranda o, "yerini bilmirəm", - deyir. Əsgər tüfəngin qundağı ilə kişinin başına zərbələr endirərək onu amansızlıqla öldürür. Bu kişi hazırda kənddə yaşayan Əliyevlərin babası, gəlin isə 1970-ci illərə kimi ömür sürmüş Səriyyə nənə olub.

Veravul kəndində çox nüfuzlu, hörmətli ağsaqqal Mirməhəmmədrza Talışxanov Şıvkunovu atəşi dayandırmağa çağırıb. Cəllad bundan qəzəblənərək onu sürüyə-sürüyə həyətin ortasına gətirib və qılıncla başını kəsərək amansızlıqla öldürüb. Dini kitabları yandırıb. Veravul kəndinin yuxarıbaş və qarağac məhəllələrində 17 nəfər faciənin qurbanı olub.

Xilaskar türk ordusu köməyə gəlməsəydi, kim bilir, qanlı soyqırımı nə qədər davam edəcəkdi. Yerli əhali görkəmli türk sərkərdəsi Camal Paşaya məhəbbətlə qucaq açıb, əsgər və zabitlərini evlərində yerləşdirib. Qardaş köməyi nəticəsində qırğınların qarşısı alınıb, insanların rahatlığı, əmin-amanlığı təmin edilib. Lənkəranlılar tariximizin bu qanlı səhifəsini unutmurlar.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Qəbələdə hay qətliamları

**XX əsrin əvvəlləri, xüsusilə 1918-ci ilin mart-apreli erməni silahlı dəstələrinin Azərbaycan əhalisinə qarşı genişmiqyaslı qətliamları və dağıntılarla müşayiət olunub. Bu hadisələr təkcə ayrı-ayrı yaşayış məntəqələrinə deyil, bütövlükdə, regionun demoqrafik və sosial strukturuna ağır zərbə vurub.**




Qəbələnin kəndlərində də bu faciələr dəhşətli izlər qoyub, əhali amansız təhlükə qarşısında köməksiz qalaraq qurbanlar verib. Əmirvan, Vəng və digər yaşayış məntəqələrində baş verən hadisələr həmin dövrün müdhiş mənzərəsini əks etdirir. Xüsusilə Əmirvan erməniləri də 1918-ci illərdə törədilən soyqırımında fəal olublar və qonşu kəndlərdəki müsəlmanları öldürüb, var dövlətlərini talan ediblər. Onlar silahdan korluq çəkməyiblər, artıq silahlanmış vəziyyətdə idilər. Bu, erməni kilsəsinin sayəsində olub. İri kilsələrin zirzəmilərindəki silah cəbbəxanalarından ermənilərin yaşadığı kəndlərə gizli yolla silah göndərilib. Müsəlmanlarda isə silah varlı, imkanlı adamlarda olub. Bu səbəbdən də ilk dövrlərdə ciddi müqavimət göstərilməyib.

Məsələn, Əmirvan və Vəng kəndlərində mövqe tutan ermənilər tez-tez Məmmədağalı kəndinə hücum edib, "Yürüş yeri" adlanan ərazidə qətllər törədib, Dursun adlı kənd sakininin əl-qolunu bağlayaraq Qızılqayadan atıblar.

Erməni terror dəstəsi Tüntül kəndinin yaxınlığında "Yeddi qardaş" adlanan yerdə yerli sakinlərə qarşı ağlasığmaz vəhşiliklər törədiblər. Girdabul, Bılıx və Əmirvandakı erməni-daşnak terror dəstələri Vəndam kəndinə, xüsusilə Sırxabul ərazisinə dəfələrlə hücum edib, Qızıldərə, Qızılqaya və Qılqıldərədə müsəlmanları öldürüblər. Xancan yüzbaşının rəhbərliyi ilə ayağa qalxan əhali isə könüllü dəstə yaradaraq Vəndama hücum edən 64 erməni yaraqlısını tərk-silah edib əsir götürüb.

Sonrakı günlər də erməni hücumları davam edib. Bu hücumların qarşısını almaq üçün Qutqaşen (Qəbələ) əhalisi Gəncəyə nümayəndə yollayıb. Qədir əfəndi isə kəndlərin silahlandırılması kimi məsuliyyətli missiyanı öz üzərinə götürərək Bığır və Qarabaqqal kəndlərinə gedib. Onun bu səfəri xalqın özünümüdafiə qabiliyyətini artırmaq məqsədi daşıyırdı.

Çox keçmədən bu çağırışlara cavab olaraq Gəncədən və Nuxadan (Şəki) bölgəyə peşəkar türk zabitləri və təlim görmüş silahlı şəxslər gəldi. Onların gəlişi yerli əhalinin mübarizə əzmini daha da alovlandırdı. Türk zabitlərinin hərbi təcrübəsi və rəhbərliyi altında qısa müddətdə mülki sakinlərdən ibarət könüllü müqavimət dəstələri yenidən formalaşdırıldı. Bu dəstələr silahlanaraq, strateji əhəmiyyətli yüksəkliklərdə və keçidlərdə möhkəmləndilər. Beləliklə, Qəbələ dərələrində düşmənə qarşı aşılmaz bir sədd quruldu və erməni-daşnak yaraqlılarının bölgədə tam hakimlik etmək xülyası boşa çıxarıldı.

Həmin hadisələrin şahidi olan Nəbi Mustafa oğlu öz xatirələrində bildirirdi: "Ermənilərin Sırxabuldakı vəhşilikləri, əhaliyə divan tutmaları, mal-qaranı aparmaları bütün kəndi, o cümlədən, Bunud, Seyidqışlaq, Həzrə, Məmmədağalı camaatını təşvişə salmışdır. Əmirvan, Ruşan, Vəng ermənilərinə Üçdal kəndinin erməniləri də qoşulur. Qorxu mart-aprel aylarında daha da artdı. Biz dəstələr təşkil etdik, əhalinin mal-qarasını, ev əşyalarını Taxtacüvənə, Şəhərgə düzünə köçürdük, dağ keçidlərində keşikçilər qoyduq, əli silah tutanlar Calal, Qarabulaq, Məmmədağalı meşələrində pusquda dayandılar. Seyidqışlaq, Bunud, Məmmədağalı, Həzrə camaatı da dərələrdə yerləşdirildi. Bizim hazırlığımızı görən ermənilər hücuma keçməyə cəsarət etmirdilər".

Buna baxmayaraq ermənilər məkrli siyasətlərini davam etdirir, talançılıqla məşğul olurdular. Ermənilər Qutqaşen (Qəbələ) bölgəsində 20-dən artıq kəndi yandırdığına görə Nuru paşa 1918-ci il iyunun 19-da Qafqaz İslam Ordusunun Baş Qərargah rəisi Nazim bəyə müsəlman əhalini qorumaq üçün bölgəyə qoşun hissəsi göndərməyi əmr etdi. Ordu Əmirvan, Sırtyengicə, Bılıx, Çanaqbulaq və başqa kəndləri də terror dəstələrindən azad etdi.

***

Türklər və yerli dəstələr əvvəlcə Əmirvan ermənilərinə silahları təhvil verməyə çağırsa da, qarşı tərəf bundan imtina edib. Bılıxı tutan türklər təpənin üstünə top yerləşdirərək Əmirvanı atəşə tutublar.

Bundan sonra türklərin hücumundan qorxan ermənilər müxtəlif yerlərdə gizləniblər. Kənd sakinlərindən biri – sonralar kolxozda çalışan Rafik (Rapik) Makyan uşaqlıq dövründə baş verənləri belə xatırlayırdı: türk qoşunlarının yaxınlaşması ilə ailəm meşəyə sığınmağa çalışdı, lakin buna tam nail ola bilmədik. Dediyinə görə, onlar yaxınlıqdakı su arxı və kiçik şəlalə ətrafında gizlənərək təhlükədən qurtula bilmişlər. "Erməni milləti çox günaha batıb, günahsız isanların qanını töküb", – o deyirdi. Bu sözlər törədilən cinayətlərin etirafı idi.

Sonda haqq öz yerini tapdı; silahı yerə qoymaqdan imtina edən və əlləri azərbaycanlı qanına batan canilər Qızılqayada layiq olduqları cəzanı aldılar. Bu gün Qəbələnin hər qarış torpağı həm o günlərin ağrısını, həm də xalqımızın sarsılmaz mübarizə ruhunu özündə yaşadır.

***P.ƏFƏNDİ***
***XQ***

*Sağlamlıq*

# Hər kim 100 il yaşamasa…

## *“Dədə-baba reseptləri”, pəhriz, yoxsa genetik yaddaş?*



**Bəşəriyyətin yarandığı gündən bəri qocalmağa və ölümə qarşı mübarizəsi bu gün tarixin heç bir dövründə olmadığı qədər elmi-texnoloji müstəviyə keçib. Laboratoriyalarda aparılan təcrübələr və genetik araşdırmalar, insan ömrünü uzatmağın artıq bir xəyal olmadığını göstərir.**

Müasir elm sübut edir ki, gen mühəndisliyindəki mühüm yeniliklər və fərdi ehtiyaclara uyğun tənzimlənmiş xüsusi qida rasionları vasitəsilə qocalma prosesinə müdaxilə etmək mümkündür. Bundan əlavə, süni intellektin tibbə inteqrasiyası xəstəliklərin hələ yaranmadan aşkar edilməsinə və hər bir fərd üçün xüsusi genetik xəritə əsasında qidalanma və müalicə proqramlarının hazırlanmasına imkan yaradır.

Bir tərəfdə minilliklərin süzgəcindən keçmiş “dədə-baba reseptləri”, digər tərəfdə isə laboratoriya şəraitində hazırlanan biokimyəvi detoks formulları və genetik tənzimləmə metodları dayanır. İnsanlar bədənlərini toksinlərdən təmizləmək üçün müxtəlif şirələrə, bitki çaylarına və pəhrizlərə müraciət edirlər. Bu gün market rəflərində gördüyümüz rəngli “detoks” şüşələri bizi qəribə bir sual qarşısında qoyur: Görəsən, bizdən əvvəlki nəsillər müasir dövrün mürəkkəb süni qarışımlarını bilmədən necə gümrah qalırdılar? Üzərində “super qida” yazılan bu bahalı məhsullar həqiqətənmi bizi ulu babalarımızın yediyi sadə və təmiz qidalar qədər sağlam saxlamaq gücündədir?

Əslində, müasir tibbin bu gün “yeni kəşf” kimi təqdim etdiyi bir çox üsul əsrlərdir nənələrimizin mətbəxində tətbiq olunan reseptlərin modernləşdirilmiş versiyasıdır. Məsələn, bu gün dəbdəbəli restoranların menyusunda rast gəldiyimiz ekzotik məhsullar, fermentləşdirilmiş içkilər, əslində, qədimdə bağırsaq sağlamlığı üçün hazırlanan təbii sirkə və ya ev qatığının “yaxın qohumudur”. Biz detoks dedikdə, yalnız yaşıl tərəvəz sularını düşünsək də, qədim nəsillər üçün təmizlənmə mövsümlərlə ayaqlaşmaq idi. Onlar yazda çıxan ilk kəvəri, çirişi və ya kəklikotunu sadəcə dadlı olduğu üçün deyil, bədənin qışdan çıxmış bədənin yorğunluğunu atması üçün süfrəyə qoyurdular. Bu, təbiətin ritmi ilə yaşamaq sənəti idi.

Müasir dünyada “intermittent fasting” adlanan və böyük maraq doğuran aralıqlı oruc metodu da köklərimizə yad deyil. Babalarımızın “az yemək – az dərd” prinsipi bu gün uzunömürlülüyün sübut olunmuş üsulu - kalori məhdudiyyəti ilə tamamilə üst-üstə düşür. Axşam gün batandan sonra ağır xörəklərdən uzaq durmaq adəti hazırda ən populyar pəhrizlərinin təməlini təşkil edir.

Biz antioksidant axtarışına çıxıb dünyanın o biri başından gətirilən ekzotik toxumlara üz tutsaq da, elm sübut edir ki, burnumuzun ucundakı çaytikanı, nar şirəsi və ya dağlarımızda bitən kəklikotu orqanizmimiz üçün daha güclü təsirə malikdir. Nənələrimizin qanazlığına qarşı hazırladıqları təbii bəhməz ən müasir vitamin komplekslərindən daha sürətli nəticə verir. Ev şəraitində hazırlanan turşu və ya qatıqdakı təbii bakteriyalar bağırsaq sisteminə bahalı detokslardan daha effektiv təsir edir.

Ömrü uzatmaq dedikdə, söhbət təkcə qidalardan getmir. Genetika sahəsində aparılan araşdırmalar göstərir ki, insan bədəninin yenilənmə qabiliyyəti müəyyən bir nöqtəyə qədər idarə oluna bilər. Mütəxəssislərin qənaətinə görə, hüceyrə səviyyəsində DNT-nin zədələnmiş hissələrinin bərpası və qocalma prosesinə cavabdeh olan genlərin tənzimlənməsi ilə ömür müddətini nəzəri cəhətdən onilliklərlə artırmaq mümkündür.

Müasir tibb artıq telomerlərin (DNT-nin uclarındakı qoruyucu başlıqlar) qısalmasının qarşısını almağa, kök hüceyrə terapiyası ilə yaşlanmaqda olan orqanları bərpa etməyə və genetik redaktə (CRISPR) vasitəsilə qocalma genlərini “söndürməyə” çalışır. Bəs bu, nə dərəcədə realdır? Bütün bu müdaxilələr həqiqətən qocalma prosesini ləngidə bilər, yoxsa insan ömrü üçün dəyişməz bioloji sərhəd mövcuddur?

**Lüksemburq Universitetinin doktorantı, dərinin qocalması və bərpası üçün süni intellekt əsaslı həllər hazırlayan “Glacies biome” biotexnoloji şirkətin həmtəsisçisi və baş icraçı direktoru Nihat Əliyev mövzu ilə bağlı suallarımıza cavab olaraq bildirdi ki, insan ömrünü uzatmaq kağız üzərində mümkün görünsə də, reallıq çoxşaxəli yanaşma tələb edir:**

– Qocalma prosesini tamamilə dayandırmaq və ya hüceyrələrin ömrünü uzat-



maq o qədər də asan deyil. Nəzəri olaraq hüceyrələrin bölünmə limitini artırmaq mümkündür, lakin qocalma prosesi yalnız bununla məhdudlaşmır. Hüceyrə qocaldıqca onun daxilindəki orqanellər – yəni hüceyrənin “fabrikləri” də qocalmağa başlayır. Zaman keçdikcə hüceyrə daxilində artıq maddələr yığılır və onların membranları dəyişir. Buna görə də qocalmanı yalnız bir fazaya bağlamaq praktikada effektiv nəticə vermir.

Telomerlərin bərpası məsələsində xərçəng hüceyrələri bir nümunə olsa da, burada ciddi risklər mövcuddur. Belə ki, xərçəng hüceyrələri dayanmadan bölünsə də, bunu nizamsız və xətalı şəkildə edirlər. Bizim sağlam hüceyrələrimiz isə mütləq qaydasında və qüsursuz bölünməlidir. Ona görə də, sadəcə, hüceyrə bölünməsini artırmaqla ömrü uzatmaq hələlik mümkün deyil. Bu metodun müsbət nəticə verməsi üçün gələcəkdə bədəndəki digər bioloji proseslərin də onunla bərabər tənzimlənməsi şərtdir.

**Soydaşımız vurğuladı ki, qeyri-sağlam həyat tərzinin orqanizmə vurduğu zərəri genetik müdaxilələr, müasir texnologiyalarla belə aradan qaldırmaq mümkün deyil:**

– Genetika və gündəlik vərdişlər fərqli amillərdir. Onlar həmişə bir-birinə təsir edir. Genetika insanın xarici amillərə necə reaksiya verəcəyini müəyyənləşdirsə də, təkbaşına kifayət deyil. Hətta ən yaxşı genetik göstəriciləri olan insan belə yuxusuzluq, pis qidalanma və stres nəticəsində sağlamlığını itirə bilər. Uzun ömür sürmək üçün genetikaya güvənib həyat tərzini diqqətdən kənarda qoymaq olmaz.

Uzunömürlülük üçün bu iki faktorun birgə balansı təmin olunmalıdır. Texnologiya bizə genetik xüsusiyyətlərimizi öyrənməyə kömək edir, lakin sağlamlığı qorumaq yenə də gündəlik vərdişlərimizdən asılıdır. Nəticə etibarilə, sağlam və çox yaşamaq üçün yalnız elmi yeniliklərə ümid bağlamamalı, həm də düzgün həyat tərzi sürməliyik.



**Qida Təhlükəsizliyi Hərəkatının rəhbəri, sağlam qidalanma mütəxəssisi Məhsəti Hüseynova isə söylədi ki, müasir dövrdə populyarlıq qazanan “super qidalar” elmi əsasdan daha çox marketinq gedişidir. Ekspertin fikrincə, genetik olaraq alışdığımız yerli məhsullar orqanizmimiz üçün xaricdən gətirilən ekzotik qidalardan daha faydalıdır:**

– Son zamanlar bəzi qidalar yüksək vitamin, mineral və antioksidant tərkibinə görə “super qidalar” adlandırılsa da, bu yanaşma müasir dövrün doğru bilinən yanlışlarındandır. Heç bir qida təkbaşına “super” xüsusiyyətə malik ola bilməz, çünki bir məhsulda olan faydalı elementlər digər qida növlərində də kifayət qədər mövcuddur. Ona görə də bu cür şişirdilmiş təqdimatlara aldanmaq doğru deyil. Nəzərə almaq lazımdır ki, çia toxumu, kinoa, matça, avokado və yaxud qara giləmeyvə kimi məhsulların tərkibində antioksidantların olması mütəmadi onlardan istifadə etmək mənasına gəlmir. Məsələn, payız mövsümünün meyvəsi olan nar, yayda yetişən yerli giləmeyvələr və çərəzlər də eyni dərəcədə zəngin vitamin-mineral tərkibinə malikdir və bənzər funksiyanı yerinə yetirir.

Genetik faktorlar və qida vərdişləri baxımından yerli, mövsümi məhsullar orqanizmimiz üçün xaricdən gətirilən “super qidalar”dan daha faydalıdır. Çünki dad reseptorlarımızın formalaşdığı və orqanizmin inkişaf etdiyi dövrdə daxili sistemimiz bu qidaları tanımayıbsa, onlar allergik reaksiyalara səbəb ola bilər. Bəzən həmin məhsullardan detoks içkiləri hazırlayırlar ki, bu da bir gündə həddindən artıq meyvə-tərəvəz və toxum qəbulu deməkdir. Belə hal qaraciyər və böyrəklərin yüklənməsinə, bağırsaq funksiyasının pozulmasına yol açır. Əslində, orqanizmi təmizləmə funksiyasını qaraciyər və böyrəklər özü yerinə yetirir. Bu səbəbdən, hər hansı detoks içkisinin orqanizmi təmizlədiyini düşünərək insan özü-özünü aldatmamalıdır.

**Mütəxəssis bildirdi ki, sağlam həyatın təməlini müvəqqəti pəhrizlər deyil, gündəlik qida rasionunda enerji balansı və su qəbulunun düzgün tənzimlənməsi təşkil edir:**

– Balanslı və düzgün qidalanma ən vacib şərtlərdən biridir. Buna, sadəcə həftənin müəyyən günləri deyil, hər gün əməl olunmalıdır. Günlük rasionumuzdakı qidaların kalorisi sərf etdiyimiz enerji ilə balans yaratmalıdır. Qidalanma rejimində yerli və mövsümi məhsulların tərkibindəki faydalı elementlərin – zülal, yağ, karbohidrat və vitaminlərin gündəlik qəbulu təmin edilməlidir. Günlük maye balansına təmiz su ilə yanaşı, ayran, eləcə də meyvə və tərəvəzlərin tərkibindəki təbii şirələr də daxildir. Bu mayelərin kifayət qədər qəbulu orqanizmin təmizlənmə prosesini stimullaşdırır və vitamin-mineral balansını tənzimləyir.

Qidalanma rasionunda genetik olaraq alışdığımız yerli məhsullara üstünlük vermək orqanizmimiz üçün daha məqsədəuyğundur. Antioksidant mənbəyi olaraq təqdim edilən matça çayı ilə yanaşı, yaşıl çay və ya kəklikotu da eyni funksiyanı yerinə yetirir. Bundan əlavə, avokadonun tərkibindəki omeqa-3 və omeqa-6 yağlarını, eləcə də kinoa və çia toxumlarındakı faydalı elementləri yerli məhsullardan da əldə etmək mümkündür.

**Müsahibimiz söylədi ki, hüceyrələrin cavanlaşmasını təmin etmək üçün sağlam ömür müddətini uzatmağın ən təsirli yolu aralıqlı orucdur:**

– Müasir elmi araşdırmalar göstərir ki, düzgün tətbiq edilən qidalanma rejimi daxili bioloji saatı tənzimləməklə yanaşı, həm də ömrün uzadılmasına birbaşa təsir edir. Bu baxımdan, aralıqlı oruc metodunun orqanizmin cavan qalması və uzunömürlülük üçün çoxsaylı faydaları mövcuddur. Aclıq müddətinin 10-12-ci saatından sonra bədəndəki ehtiyat yağlar enerji mənbəyi kimi istifadə olunmağa başlayır ki, bu da hüceyrələrin yenilənməsi prosesini stimullaşdırır.

Xüsusilə vurğulanmalıdır ki, uzunmüddətli aclıq zamanı bədəndə “autofaqiya” adlanan proses baş verir: bu zaman köhnə, zədələnmiş və xəstəliyə meyilli hüceyrə strukturları parçalanaraq yenilənir. Məhz bu daxili bərpa mexanizmi orqanizmin qocalma sürətini azaldır və xroniki xəstəliklərin qarşısını almaqla insanın yaşam keyfiyyətini artırır. Lakin hər kəs bu qidalanma vərdişinə birdən-birə keçməməli, mütləq mütəxəssisə müraciət etməlidir. Xüsusilə insulin müqaviməti olanlar, xroniki iltihabi proseslərdən və artıq çəkidən əziyyət çəkənlər üçün bu metod effektiv müalicə və uzunömürlülük vəd edir.

Bununla belə, bəzi risk qrupları üçün bu qidalanma rejimi ciddi təhlükə də yarada bilər. Şəkərli diabet xəstələri, hamilə və südverən qadınlar, azyaşlılar, mədə-bağırsaq sistemi problemləri olanlar, eləcə də həddindən artıq çəki azlığından əziyyət çəkən insanlar aralıqlı orucdan uzaq durmalıdırlar. Bu qruplarda uzunmüddətli qida fasiləsi qan şəkərinin kəskin düşməsinə və müxtəlif fəsadlara yol aça bilər. Odur ki, hər kəs sağlamlıq vəziyyətini nəzərə almalı və yalnız mütəxəssis rəyi əsasında bu metodlara müraciət etməlidir.

Ekspert rəyləri də göstərir ki, düzgün həyat tərzi qaydaları – qədim reseptlərin əsasını təşkil edən təbii qidalanma, fiziki aktivlik və yuxu rejimi pozularsa, ən qabaqcıl texnologiyalar belə aciz qalır. Məsələn, bir tərəfdən orqanizmi cavanlaşdıran peptidlər qəbul edib, digər tərəfdən xroniki yuxusuzluq və emal olunmuş qidalarla yaşamaq, sanki aşsüzənlə su daşımağa bənzəyir. Görünən odur ki, uzunömürlülüyün sirri keçmişin müdrikliyi ilə gələcəyin elmini sintez etməkdə gizlidir. Ən yeni kəşflər də nənələrimizin sadə qaydalarını təsdiqləyir. Qədərində və təbii qidalanmaq, vaxtında dincəlmək ən güclü dərmandır. Nəticə etibarilə, texnologiya nə qədər irəli getsə də, sağlam ömür sürmək üçün köklərimizdən qopmamalıyıq. Gen mühəndisliyi bizə yeni imkanlar yaratsa da, sağlamlığı qorumaq üçün təbii üsullardan istifadə etmək vacibdir. Keçmişin sınanmış təcrübələrini bugünkü elmin imkanları ilə uzlaşdıraraq həyat tərzimizə tətbiq etmək daha gümrah və uzun yaşamaq imkanı verir.

***Elenora HƏSƏNOVA***
***XQ***

*Qan yaddaşımız*

# Soyqırımı qurbanları yad edilib

### Mingəçevir

**31 Mart Azərbaycanlıların Soyqırımı Gününün 108-ci ildönümü ilə bağlı Mingəçevir Şəhidlər xiyabanında şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə anım mərasimi keçirilib.**



Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov geniş məruzə ilə çıxış edərək 108 il bundan qabaq Bakıda və Bakı quberniyasının müxtəlif bölgələrində, ayrı-ayrı dövrlərdə, 1988-1994-cü illərdə separatçı ermənilərin xalqımızın başına gətirdiyi müsibətlərdən, törədilən qətliamlardan, işğalçılıq əməllərindən söz açıb. Yaxın tariximizdə baş verən hadisələrdən, minlərlə soydaşımızın doğma yurd yerlərindən didərgin salınmasından bəhs edərək bildirib ki, ulu öndər Heydər Əliyevin 1998-ci il mart ayının 26-da imzaladığı müvafiq sərəncamla 31 Mart Azərbaycanlıların Soyqırımı Günü kimi təsis edilib. Bu siyasi xəttin uğurlu davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanımız İlham Əliyevin siyasi səriştəsi, qətiyyəti, Milli Ordumuzun cəsur əsgər və zabitlərinin, şəhidlərimizin qəhrəmanlığı sayəsində uzun illərdən sonra 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı erməni faşistlərinin cavabı qətiyyətlə verilmiş, işğal altında qalan torpaqlarımız azad edilmişdir.

Qərbi Azərbaycan İcmasının Mingəçevir şəhəri üzrə nümayəndəsi Mayıl İsmayılov, Kəlbəcər rayonundan olan keçmiş məcburi köçkün müəllim Sevil Əlişova, 14 nömrəli tam orta məktəbin direktoru Ceyhun Atayev çıxış edərək Soyqırımı Günü ilə əlaqədar fikirlərini bölüşüblər. Şəhidlərimiz yad olunub, qazilərə cansağlığı arzulanıb.

### Zaqatala

**31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar martın 31-də Zaqatala şəhərində keçirilən toplantıda rayon rəhbərliyi və ictimaiyyətin nümayəndələri əvvəlcə soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri düzüblər.**



Zaqatala Rayon İcra Hakimiyyəti başçısı Aparatının ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini müharibə iştirakçıları və şəhid ailələri ilə işin təşkili sektorunun müdiri Anar Seyidovun “Tariximizi unutmayaq” mövzusunda məruzəsi dinlənilib. Məruzədə erməni millətçilərinin əsrlər boyu azərbaycanlılara qarşı törətdikləri kütləvi qırğınlar, həyata keçirdikləri soyqırımı və deportasiya siyasətinin acı nəticələri barədə geniş məlumat verilib.

Qeyd olunub ki, şanlı Zəfərlə başa çatan Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə yeni-yeni səhifələr yazıb, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 44 gün davam edən müharibədə əzəli Qarabağ torpaqlarımızın birdəfəlik erməni faşizmindən azad edilməsinə nail olub. Bu şanlı Qələbə sayəsində soyqırımı qurbanlarının da qanı yerdə qalmayıb, onların qisası döyüş meydanlarında alınıb.

Toplantıda çıxış edənlər erməni millətçilərinin törətdikləri vəhşiliklərin, zorakılıqların xalqımızın yaddaşından heç vaxt silinməyəcəyini vurğulayıblar.

### Qax

**31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Şəhidlər xiyabanında Qax rayon rəhbərliyinin, hüquq-mühafizə orqanları və YAP rayon təşkilatının rəhbərlərinin, şəhid ailələrinin, qazilərin, idarə, müəssisə və təşkilat kollektivlərinin, rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə anım mərasimi keçirilib.**



Toplantıda Heydər Əliyev Mərkəzində keçirilən dəyirmi masa ilə davam edib. Qax Rayon İcra Hakimiyyətinin başçısının müavini, ərazi-idarəetmə və ictimai məsələlər şöbəsinin müdiri Vəfa Heydərova bildirib ki, 1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur, İrəvan və digər ərazilərdə Bakı Soveti qoşunları və daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insan işgəncələrə məruz qalmış, onlara qəsdən fiziki xəsarətlər yetirilmiş və öz torpaqlarından qovmuşlar.

Təəssüf ki, bu hadisələrə uzun illər ərzində obyektiv hüquqi-siyasi qiymət verilməyib. Yalnız Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu məsələyə dövlət səviyyəsində yanaşma formalaşıb. Məhz ümummilli lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci tarixli fərmanda bu hadisələrə siyasi qiymət verildi və azərbaycanlıların ermənilər tərəfindən soyqırımına məruz qalması ilk dəfə rəsmi surətdə bəyan olundu. Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun rəşadəti və xalqımızın birliyi ilə 44 günlük müharibədə Ermənistan Azərbaycan qarşısında diz çökdü. Bu möhtəşəm Zəfər nəticəsində 30 ilə yaxın davam edən Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu.

Çıxış edənlər erməni millətçilərinin törətdikləri vəhşiliklərin, zorakılıqların, faciələrin xalqımızın qan yaddaşında dərin izlər buraxdığını və heç vaxt yaddaşlardan silinməyəcəyini diqqətə çatdırıblar.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

“Şəhərsalma və Memarlıq İli”

# Sumqayıt – yaşlaşdıqca cavanlaşan XX əsr şəhəri

**Prezident İlham Əliyevin 2026-cı ili Azərbaycanda “Şəhərsalma və Memarlıq ili” elan etməsi ölkəmizdə hərtərəfli yeniləşmə və tərəqqi prosesinə növbəti töhfədir. Bu, şəhərlərimizin simasına yeni müasir çalarlar gətirəcək, tarixi memarlıq irsimizin qorunub inkişaf etdirilməsində mərhələ olacaq.**



May ayında “Dünya Şəhərsalma Forumu”nun Bakıda keçirilməsi Azərbaycanın qlobal urbanizasiya gündəliyinin formalaşmasında artıq fəal iştirakçı və etibarlı tərəfdaş kimi çıxış etdiyini bir daha təsdiqləyəcək. Sumqayıtda da “Şəhərsalma və Memarlıq İli” ilə bağlı Prezident sərəncamından irəli gələn vəzifələr ayrıca tədbirlər planında öz əksini tapıb. Burada il ərzində müvafiq mövzuda müxtəlif konfranslar, forumlar, dəyirmi masalar, seminarlar, müsabiqələr, mədəni-kütləvi tədbirlər və ağacəkmə aksiyalarının keçirilməsi nəzərdə tutulur.

...Doğma şəhərimi gəzə-gəzə düşünürəm ki, ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi hər iki dönəmdə ölkəmizin XX əsr şəhərlərindən olan Sumqayıt da xeyli böyüyüb, abadlaşıb, gözəlləşib. Burada müasir yaşayış massivləri salınıb, yeni təhsil, səhiyyə, mədəniyyət və digər müəssisələr tikilərək istifadəyə verilib. Əsl şəhər infrastrukturu yaradılıb. Prezident İlham Əliyev də regionların sürətli inkişafı Dövlət proqramları çərçivəsində Sumqayıtın problemlərinin həllində, şəhərin hərtərəfli yeniləşməsində ciddi dönüşə nail olub. Yeni əsrin ilk illərindən şəhərin coğrafiyası yeni ünvanlar hesabına xeyli genişlənib.

## Ev-ev, küçə-küçə böyüyən şəhər



Hələ ötən əsrin 30-cu illərinin əvvəlindən ölkə rəhbərliyi Abşeronda 2-ci böyük sənaye mərkəzinin salınmasını planlaşdırırdı. İlk tikintilərə 1938-ci ildə start verilsə də, İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar bu işlər yarımçıq qalıb və yalnız 1944-cü ildə, müharibənin son mərhələsində yenidən bərpa olunub.

Sumqayıtın Baş planı isə daha sonrakı illərdə formalaşdırılıb. 1948-ci ildə Moskvadakı layihə institutlarından birində yeni sənaye mərkəzinin Baş planı təsdiqlənib. Şəhərin yaşayış zonalarının layihələndirilməsi isə Azərbaycan Dövlət Baş Layihə İnstitutunun öhdəsinə düşüb. Bu layihə 1947–1949-cu illərdə işlənib hazırlanıb. İlk qurucularının ürəklərində, arzularında Abşeronun boz çöllüyünə gətirilən şəhər ev-ev, küçə-küçə abidələşib.

...Mərkəzi prospektlərdən birindəki yaraşıqlı binanın divarına vurulmuş xatirə lövhəsini görüb ayaq saxlayıram. Lövhədə Sumqayıtı yaradıb-quranlardan biri olmuş Kərim Axundovun burada yaşadığı qeyd edilib. Bir əsrlik yubileyi ərəfəsində onun mənzilində qonağı olduğumu xatırlayıram. Deyirdi ki, 50-ci illərdə Sumqayıta gələndə şəhər taxta baraklardan və cəmi bir neçə ikimərtəbəli daş binadan ibarət olub.

Bakıdan bir qədər şimalda salınan Sumqayıtda quruculuq işlərinə həvəslə qoşularaq, taleyini ömürlük gənclik şəhəri ilə bağlayıb. Bir sıra inşaat təşkilatlarında çalışıb, sənaye və mülki tikinti trestlərinə rəhbərlik edib, 13 il də şəhər icraiyyə komitəsi sədrinin 1-ci müavini olub. Neçə-neçə orden və medala layiq görülüb. Göz önündəcə artan, ucalan, “göylərə meydan oxuyan” Sumqayıt indi artıq yarım milyona qədər əhalisi olan böyük bir şəhərdir.

Obrazlı şəkildə desək, Sumqayıtı əlləri üstə böyüdənlərdən biri də 50-ci illərdə şəhər partiya komitəsinə rəhbərlik etmiş görkəmli dövlət xadimi Kamran Hüseynov olub. İndi onun qızı Hicran Hüseynova Milli Məclisin Sumqayıtdan seçilmiş deputatıdır. Tanınmış şair Vaqif Bəhmənlinin “Sumqayıtın fəxri vətəndaşı” adına layiq görülmüş Kamran Hüseynov haqqında “İlin beşinci fəsli. Kamran” adlı kitabında həmin dövrdə yeni şəhərdə yaradılan xariqələrdən ətraflı bəhs olunub.

Elə buradaca yaşlı sumqayıtlıların minnətdarlıq duyğuları ilə xatırladıqları digər bir tanınmış – “Azərdövlətlayihə” institutunun memarı Nəsrulla Kəngərli də yada düşür. Sumqayıtın ilk Baş planı və bu şəhərdəki bir neçə nadir tikili Nəsrulla Kəngərlinin zəkasının məhsuludur. Həkim dostumuz Aqşin Kəngərlinin atası, “Əməkdar inşaatçı” Nəsrulla Kəngərli 1968–1985-ci illərdə şəhərdə salınmış yaşayış məhəllələri, ictimai və digər təyinatlı binaların layihə müəlliflərindən olub. Bu kompleks və yaradıcı işinə görə o da, elə ilk qurucu Kərim Axundov da SSRİ Nazirlər Sovetinin mükafatına layiq görülüblər.

Sumqayıtı fədakar əməyi ilə ucalda-ucalda özləri də ucalan Sərvər Bədəlbəyli, Kamal Axundov, Zülfi Hacıyev, Məzahir Abdullayev, Aslan Osmanov, Gülbahar və İmamverdi Vəliyevlər burada bir sıra sənaye və tikinti müəssisələri, yaşayış binaları, ictimai obyektlər, C.Cabbarlı, N.Nərimanov, Energetiklər, İnşaatçılar, S.Vurğun adına mədəniyyət saraylarını boya-başa yetirənlərdir. Onların fədakar əməyi ilə layihədən gerçəyə çevirdikləri ilk Baş plan, nəhayət, 70 il sonra yenisi ilə əvəzlənib və modernləşdirmə təmayüllü olması ilə seçilib.

## Tarixi yaşadan abidələr

Yeniliklər nə qədər çox olsa da, Sumqayıtın qədim tarix və mədəniyyət abidələri qorunub saxlanır. Ərazidəki Şah Abbas karvansarası, su ovdanları, XVI əsrə aid Corat hamamı, “Kərbəlayi Gülxatun” və “Cümə” məscidləri bu qəbildəndir. Köhnə qəbiristanlıqdakı sərdabələr, daş kitabələr, sənduqələr, pirlər, qəbirüstü yazılar uzaq keçmişdən soraq verir. Tarixi mənbələr göstərir ki, qədim “İpək Yolu” da Coratın yaxınlığından keçib. Deyilənə görə, buradakı “Dadaş bağı” İosif Stalinin inqilabi fəaliyyəti dövründə müvəqqəti daldalandığı yer olub.

Sumqayıtın müasir memarlıq abidələri arasında N.Nərimanov adına Mədəniyyət Evi (1954), hazırda Dövlət Dram Teatrının fəaliyyət göstərdiyi S.Vurğun adına Mədəniyyət Sarayı (1956), Boru-prokat Zavodunun Mədəniyyət Evi (1952) diqqət çəkir. Bu binaların hər biri özəl memarlıq cəhətləri ilə seçilir. Yeri gəlmişkən, yaşı 70-dən çox olan mədəniyyət ocaqlarının əsaslı təmiri “Şəhərsalma və Memarlıq İli” ilə bağlı nəzərdə tutulan tədbirlər planına daxil edilib.



Gözəlliklər məskəni Sumqayıtın həm də qəhrəmanlığa, şücaətə sayğı ünvanı olduğunu buradakı abidələr də göstərir. İkinci Dünya müharibəsində həlak olanların xatirə-obeliski igid oğulların ruhuna ehtiramın ifadəsidir. 20 Yanvar şəhidlərinin şərəfinə ucaldılmış monument, Vətən müharibəsi qəhrəmanlarının şərəfinə ucaldılmış “Qalib əsgər” və “Zəfər ağacı” abidələri, Xocalı qurbanlarına həsr olunan monument və s. də ölməz ruhlara sayğı nişanəsidir. Hazırda Sumqayıtdakı Dövlət Bayrağı Meydanı və Bayraq Muzeyi şəhərin gözəlliyini daha da artırır. Yeni parklar, bağlar, arxitektur binalar da əsl mədəniyyət abidələridir. Əlvan mozaik pannolar, monumental və xatirə lövhələri, fəvvarələr abidə-şəhərin çeşidli atributları sayılır.

## Son onilliyin memarlıq töhfələri

Sumqayıtda şəhərsalma və memarlıq tədbirləri çərçivəsində yaradılmış park-bulvar kompleksindən ayrıca danışmağa dəyər. Son onilliyə qədər bu şəhərdə axşamdan-səhərə zülmətə qərq olan böyük və baxımsız bir guşə qalırdı. Sumqayıt böyüyüb inkişaf etsə də, dənizkənarı ərazidəki o yerin qaranlığını aydınlatmaq məsələsi, sanki, tilsimə düşmüşdü. Nəhayət, bu şəhərin yetirməsi olan Zakir Fərəcov Sumqayıta icra başçısı təyin ediləndən dərhal sonra bir sıra mühüm tədbirlərlə bərabər, məhz Xəzərin ləpədöyəninin köklü şəkildə abadlaşdırılmasına start verildi. Qısa müddətdə orada Prezident İlham Əliyevin “əsl möcüzə” adlandırdığı möhtəşəm park-bulvar kompleksi yaradıldı. Bu məkan 2017-ci ilin iyulunda İspaniyanın paytaxtı Madrid şəhərində keçirilən 24-cü Beynəlxalq Üstünlük və Liderlik forumunda “Global Trade Leaders” klubunun “Keyfiyyətə görə Beynəlxalq Avropa mükafatı”na layiq görüldü. 100 hektardan artıq ərazisi cəmi 8 aya inşa edilib üzə gülən sahil istirahət məkanı dizayn estetikasına, yüksək xidmət və beynəlxalq standartlara cavab verdiyi üçün həmin şərəfə nail oldu.

Sumqayıt bulvarında gəmi tərsanəsi, hündür estakada tikilib, karusellər, kafelər, kölgəliklər, fəvvarələr, yay estradası yaradılıb. Ayrı-ayrı guşələrdə nağıl qəhrəmanlarının heykəlləri, fauna fiqurları, “Şahmat oynayan babalar”, “Gitaraçı veteran”, “At arabası”, “Marallar”, “Rəqs edən cütlük” göz oxşayır. Milli arxitektura ənənələri üslubunda ucaldılmış Muğam Mərkəzində bayram mərasimləri yaddaqalan olur. Bu ərazidə hər cür infrastrukturu olan “göydələn”lərdən ibarət müasir yaşayış massivi Sahil küçəsinin gözəlliyini tamamlayır.

Nəsimi adına mədəniyyət və istirahət parkı da sakinlərin və qonaqların həvəslə üz tutduqları məkanlarındandır. Buranın əyləncə guşələrində ilin hər fəslində qələbəlik olur. “Yaşıl teatr”, Rəsm qalereyası, “Göyərçin”, “20 Yanvar” və “Xocalı” abidələri də bu parkda yerləşir.

Yeni əsrin əvvəllərindən Sumqayıta bəzən ildə 2-3 dəfə səfər etmiş dövlət başçısı İlham Əliyev ən müasir memarlıq tələblərinə uyğun şəkildə formalaşan gənclik və gözəllik şəhərinin coğrafi relyef baxımından əlverişli məkan olduğunu vurğulayıb. Bu şəhərin dünya miqyasında ən ekoloji təmiz şəhərlərdən birinə çevrildiyini dəfələrlə qeyd edib. “Bu gün bulvarda, şəhərdə gəzərkən həm gözəlliyi görürsən, həm də görürsən ki, hava da çox təmizdir. Yəni Sumqayıtın havası kurort havasına yaxınlaşır. Əminəm ki, Sumqayıtın gələcək inkişafında turizm sektoru da öz rolunu oynayacaq”.

Konkret faktlar da göstərir ki, bu gün Sumqayıt artıq perspektivli turizm şəhəri olmağa iddialıdır. İnfrastrukturunun tam yenilənməsi, müasir dəmir yolu vağzalının, otellərin tikilməsi və digər tədbirlər bu hədəfin tezliklə reallaşacağını göstərir. Yeri gəlmişkən, inişil Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) iştirakçılarından bir qismi Sumqayıt-Novxanı aralığındakı otellərdə qalıb və şəhərlə tanışlıq gəzintilərinə də çıxıblar. Onlar Bakının 30 kilometrliyində “göylərə meydan oxuyan, ayağı torpaqda möhkəm dayanan” müasir şəhərin gözəlliklərinə heyran qaldıqlarını bildiriblər.



Burada teatrlar, konsert zalları, muzeylər və incəsənət mərkəzləri məhsuldar fəaliyyət göstərir. Prezidentin tapşırığı ilə Kimyaçı Mədəniyyət Sarayı və Sumqayıt Dövlət Dram Teatrının binası, Mehdi Hüseynzadə adına şəhər stadionu ən müasir üslubda əsaslı təmir olunaraq istifadəyə verilib. Onu da inamla deyə bilərik ki, Sumqayıt ölkəmizin ən yaşıl şəhəridir. Burada hər sakinə 26 kvadratmetr yaşıllıq düşür. Parklarda, xiyabanlarda saysız-hesabsız, növbənöv ağaclar əkilib, “yaşıl ada”lar salınıb. Şəhərdə 100-ə qədər “Nümunəvi məhəllə” yaradılıb. Abadlıq-quruculuq işləri və iməciliklər davamlı xarakter daşıyır.



## Yeni yaşayış kompleksləri

Yuxarıda qeyd etdiyimiz kimi, Sumqayıtın tarixi simasının qorunub saxlanması ilə bərabər, bu şəhərdə, necə deyərlər, qocalıb əldən düşmüş “Fin evləri” və yaşayış üçün əlverişli olmayan digər binalar da tədricən sökülərək yerində hündürmərtəbəli komplekslər tikilir. “Şəhərsalma və Memarlıq İli”ndə bu, daha geniş vüsət almaqdadır. 4, 15, 16, 17, 20 və 21-ci məhəllələrdə, eynilə İnşaatçılar və Kotec massivlərində istismar müddəti başa çatmış, yararsız yaşayış binalarının və qəzalı yataqxanaların sökülməsi və orada yaşayan sakinlərin yeni, təmirli mənzil sahəsi ilə təmin olunması nəzərdə tutulur. Azərbaycanın ən böyük sənaye və mədəniyyət mərkəzlərindən biri olan Sumqayıta çağdaş tələblər səviyyəsində, urbanistik inkişaf yönümündən əsaslandırılaraq əl gəzdirilir.

Bu ayın əvvəlində Sumqayıta səfər etmiş Belçika Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Julyen de Frepona Sumqayıtın yaranma tarixi, sənaye şəhəri kimi formalaşması, əhalinin məşğulluq səviyyəsi, sosial infrastrukturun inkişafı, eləcə də son illərdə həyata keçirilən genişmiqyaslı abadlıq və quruculuq işləri barədə ətraflı məlumat verliib. Sumqayıtın innovativ layihələrin icra olunduğu strateji şəhərlərdən biri olduğu bildirilib. Qonaq gənclik şəhərinə səfərindən məmnunluğunu ifadə edərək, şəhərdə gördüyü dinamik inkişaf prosesini yüksək qiymətləndirib.

**Memarlıq və Şəhərsalma İdarəsinin rəisi Rəşad Əhmədəliyevin dedikləri:**

– “Ağıllı şəhər” konsepsiyasına uyğun olaraq, doğma Sumqayıtımızın görkəminin daha da yaxşılaşdırılmasına çalışırıq. Artıq bir müddətdir ki, Baş plana əsasən, köhnə məhəllələrdə taxta konstruksiyalı və qəzalı binalar sökülərək yerində müasir yaşayış kompleksləri inşa edilir. Bu da daha çox ailənin yeni və rahat mənzillərlə təmin olunmasına, sosial rifahın yaxşılaşmasına şərait yaradır.



“Şəhərsalma və Memarlıq İli”ndə görüləcək tədbirlər sırasında bir sıra köhnə sosial və mədəni obyekt binalarının əsaslı təmiri də nəzərdə tutulur. Eyni zamanda, əhali sayının artması ilə əlaqədar olaraq, şəhərin yol infrastrukturu da genişləndiriləcək, yaşıllıq zolaqları artırılacaq. Bu sıraya mövcud bulvar kompleksinin “Xəzər bağları” ərazisinədək uzadılması da daxildir.

Hazırlanan strateji memarlıq və şəhərsalma planları şəhərin gələcək inkişaf modelini müəyyənləşdirir və onun daha modern bir şəhərə çevrilməsini hədəfləyir. Nəticədə Sumqayıt daha müasir, rahat və ekoloji baxımdan dayanıqlı bir şəhərə çevriləcək.

Bizcə, “Şəhərsalma və Memarlıq İli”-nin töhfələri köhnə məhəllələrin təzələnməsi ilə paralel, “Yaşıldərə”, “Naxalstroy”, “Betonzavod” kimi məskunlaşma sahələrində də zəruri səliqə-sahmana rəvac verə bilər. İcra hakimiyyətinin başçısı Zakir Fərəcov şəhər fəallarının toplantılarında və sakinlərlə görüşlərində dəfələrlə bu məsələyə münasibət bildirib, ən ucqar yerlərin belə gözdən – könüldən iraq qalmamasını önə çəkib.

Fərəhli haldır ki, Sumqayıtın memarları, inşaatçıları, abadlaşdırma və kommunal sahə işçiləri təkcə şəhərin bugünkü inkişafına deyil, onun gələcək tərəqqi konsepsiyasının formalaşmasına da nail olmaq əzmindədirlər. Əsas məram odur ki, hər bir sakin ürəklə deyə bilsin: “Mən bu gözəl şəhərdə yaşamağımla fəxr edirəm!”.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Bağı-gülüstan Quba

## Yurdun bu cənnətmisal bölgəsi yeni dövrana üz tutub



**Quba Azərbaycanın ictimai-siyasi, mədəni həyatında xüsusi yeri və rolu olan bölgədir. Əlverişli coğrafi şəraiti, bolsulu çayları, bərəkətli torpaqları, barlı-bəhərli meyvə bağları var bu yurdun! Şairlər Qubanın hüsnünə şeirlər yazıblar, bəstəkarlar nəğmələr bəstələyiblər. Təbiətin bəxş etdiyi bir çox üstünlüklərlə bərabər, Qubanın ən böyük sərvəti, əlbəttə, bu rayonun sadə, halal əmək adamlarıdır. Onların hər biri Vətənə və milli dövlətçiliyimizə qəlbən bağlı insanlardır.**

Quba bineyi-qədimdən qonaqlı-qaralı yer olub. 1825-ci ilin fevralında Qafqaza sürgün edilən dekabrist-yazıçı Aleksandr Bestujev-Marlinski Qubadan Şamaxıya gedərkən qaçaq dəstəsinin başçısı Molla Nur ilə Təngə dağında təsadüfən rastlaşır və onun mərd, qeyrətli bir şəxs olduğuna əmin olur. Azərbaycanlıların həyatını yaxşı öyrənən yazıçı 1835-ci ildə qələmə aldığı məşhur “Molla Nur” povestində qəhrəmanının həyat tarixçəsini onun öz dilindən nəql edib. Yeri gəlmişkən, bu dəyərli əsəri dilimizə əslən Qubadan olan tanınmış publisist, BDU-nun professoru Tofiq Rüstəmov mükəmməl surətdə tərcümə edib.

Görkəmli fransız yazıçısı Aleksandr Düma 1858-ci ildə Qafqaza səfəri çərçivəsində Qubada olub və bu yerlərin füsunkar təbiəti və sakinləri haqqında xoş sözlər söyləyib. Sovet dönəmində isə dünyaşöhrətli Norveç alim-səyyahı Tur Heyerdal Qubanı ziyarət edərkən bölgənin fauna və florasının zənginliyinə heyran qaldığını gizlətməyib. Heç də təsadüfi deyil ki, bu gün Quba yerli və əcnəbi turistlərin sevib-seçdiyi məkanlardandır.

Qubanın Birinci və İkinci Qarabağ müharibələrində ağır döyüşlərdə qeyrət və hünər göstərən mərd, igid oğulları anamız Azərbaycanın əbədi qəhrəmanlıq səhifəsinə qanları və canları hesabına mübarək adlarını yazıblar. Rayondakı şəhid ailələri və qazilər həm dövlətimiz, həm də rayon rəhbərliyi və ictimaiyyətinin bir an azalmayan diqqət və qayğısı ilə əhatə olunub.







Burada şəhid adı uca tutulur, qazilərimiz hörmət-izzət sahibidirlər! Bəli, Quba mərd, yurdsevər igidlərin Vətənidir!

Quba hazırda özünün iqtisadi və mədəni tərəqqi dönəmini yaşayır! Uca Şahdağın qarlı zirvələrinin ətəklərindən axıb gələn, yaz-yay, payız aylarında ərazidəki əkin yerlərinə həyat gətirən bolsulu Qudyalçayın sağ sahilində yerləşən Quba şəhəri isə insanların gözləri önündə gündən-günə yeniləşir, abadlaşır. Təkcə rayon mərkəzində deyil, kənd və qəsəbələrdə də infrastruktur layihələri uğurla icra edilir.

Hörmətli oxucular, “Xalq qəzeti”nin “Regionlar” səhifəsinin bu dəfəki ünvanı qədim və müasir, gündən-günə gözəlləşən Quba rayonudur! Söhbət qədim və müasir Qubanın yeni uğur hekayətini yazanların hünərvər əməllərindən gedir!

## Dinamik inkişafın cizgiləri

Gəlin əvvəlcə Quba və qubalılardan hər zaman dərin hörmət və rəğbət hissilə danışan, burada hər kəsi özünə doğma bilən Quba Rayon İcra Hakimiyyətinin başçısı İlqar Mahmudovu dinləyək. İlqar müəllim bizimlə söhbətində, ilk növbədə, böyük qürur hissilə bildirdi ki, 1970-1980-ci illərdə rayonun sürətli inkişafında o dövrdə respublikaya rəhbərlik edən dahi siyasətçi Heydər Əliyevin danılmaz xidmətləri olub. Belə ki, məhz bu görkəmli dövlət xadiminin təşəbbüsü ilə rayonda qısa müddət ərzində yüksək məhsuldar, palmet meyvə bağları salınıb, eyni zamanda, çox sayda yeni istehsal müəssisələrinin fəaliyyətinə start verilib.

Ulu öndərin 1993-cü ilin iyununda xalqımızın israrlı tələbilə siyasi hakimiyyətə qayıdışından sonra Qubanın sosial-iqtisadi inkişafına diqqət və qayğı yenidən artırılıb. Dahi siyasətçi Azərbaycana rəhbərlik etdiyi hər iki dönəmdə Qubanı dəfələrlə ziyarət edib, hər dəfə çox sayda sadə, sıravi insanlarla səmimi görüşlər keçirib. Ümummilli lider hər dəfə qubalıların milli dövlətçiliyimizin qorunaraq güclənməsinə yüksək siyasi səbat və sədaqət nümayiş etdirmələrini yüksək dəyərləndirib.

İlqar Mahmudov, həmçinin fəxrlə vurğuladı ki, Quba rayonunun hərtərəfli inkişafı son 23 ildə daha da sürətlənib. Belə ki, Müzəffər Ali Baş Komandan, möhtərəm Prezidentimiz İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Quba şəhərində və rayonun, demək olar ki, bütün kəndlərində son illər çox sayda infrastruktur layihələri icra olunub, əhalinin daimi iş yerləri ilə təmin olunmasında ciddi irəliləyişlər baş verib, sadə ailələrin maddi güzəranı daha da yaxşılaşıb.

Məlumdur ki, Quba iqtisadiyyatının əsasını ənənəvi olaraq meyvəçilik təşkil edir. Son illər rayonun meyvə bağlarında məhsuldarlığın yüksəldilməsi hesabına məhsul istehsalı xeyli artıb. Ətirli Quba meyvələrinin bağlardan toplanmasından tutmuş şəhərlərdə müştərilərə keyfiyyətli şəkildə çatdırılmasını təmin etmək məqsədilə rayonda onlarla iri meyvə soyuducu anbarı inşa edilib. Təqdirəlayiq haldır ki, Quba rayonunda son illər ərzində taxıl, tərəvəz və heyvandarlıq məhsulları istehsalında da yaxşı göstəricilər əldə olunub.

## Qubaya bayramlar yaraşır!

Bir müddət əvvəl Azərbaycanın hər yerində olduğu kimi, Qubada da Novruz bayramı şənlikləri keçirilib. Quba RİH başçısı İlqar Mahmudov Novruz bayramı ilə bağlı təşkil olunan təntənələrdə çıxış edərək deyib:

– Əziz qubalılar, ötən Novruz bayramından keçən müddət ölkəmizin bütün sakinləri kimi, bizim üçün də uğurlu və yaddaqalan olub. Bu dövrdə rayonumuzda ictimai-siyasi və ideoloji sahələrdə, eləcə də tikinti, təmir-yenidənqurma və abadlıq istiqamətlərində işlər davam etdirilib. Rayonumuzda bir sıra mühüm tədbirlər keçirilib, çoxlu sayda yerli və xarici qonaqlarımız olub.

Rayonda “Frutena” MMC tərəfindən Meyvə konsentratı, meyvə şirəsi istehsalı və doldurulması müəssisəsinin tikintisi qısa müddətdə başa çatdırılıb, yollarda əsaslı təmir işləri həyata keçirilib, yeni yollar çəkilib, möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən 4 iyun 2025-ci il tarixdə imzalanmış Sərəncama əsasən, Quba rayonunun Bakı – Quba – Rusiya Federasiyası ilə dövlət sərhədi (137 kilometr) – Çiçi – Səbətlər – Qənidərə - Sırt Çiçi – Təngəaltı avtomobil yolunun əsaslı təmiri başlanılıb. Quba şəhərindəki Nizami adına Mədəniyyət və İstirahət parkında yenidənqurma işləri aparılıb, rayon mərkəzindəki Şəhidlər xiyabanı yeni layihə əsasında yenidən qurulub.

Quba RİH başçısı, həmçinin bildirib ki, rayonda əhalinin mavi yanacaq, elektrik enerjisi, suvarma və içməli su ilə təchizatının, eləcə də rabitə xidməti ilə təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər icra edilib. Quba Peşə Liseyinin və Hacıhüseynli kənd tam orta məktəbinin yeni binalarının, Quba DOST və Peşə Hazırlığı Mərkəzinin tikintisi davam etdirilir, “Quba meydanı” Mədəniyyət və İstirahət Parkında əsaslı təmir işləri aparılır.

Azərbaycanın hər yerində olduğu kimi, Qubada da təhsilin inkişafına xüsusi önəm verilir. Yaxın gələcəkdə rayonun bir sıra yaşayış məntəqələrində yeni modul tipli məktəblərin quraşdırılması və digər layihələrin icrası nəzərdə tutulub. Quba RİH-in başçısı vurğulayıb ki, “qarşıda görülesi işlərimiz hələ çoxdur və zərrə qədər şübhə etmirəm ki, bütün mövcud problemləri əziz Qubamızın hörmətli sakinləri ilə birgə səylərlə uğurla həll etmək mümkün olacaq!”.

Uzun illər Qubadakı Heydər Əliyev Mərkəzinə rəhbərlik etmiş, hazırda Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının baş müəllimi vəzifəsində çalışan, YAP fəalı, rayonun hörmətli ziyalılarından olan Elza Orucova ilə də Qubada həmsöhbət olduq. Elza xanım rayonda aparılan geniş tikinti-quruculuq və abadlıq işlərindən söz düşəndə dərin razılığını bildirərək dedi:

– Qubalılar əmindirlər ki, möhtərəm Prezidentimizin hərtərəfli dəstəyi, yerli icra qurumlarının qarşıya qoyulan məsul vəzifələrin həllinə məsuliyyətli yanaşması nəticəsində gözəl və əziz Qubamızın son illərdəki böyük uğur hekayəti bundan sonra da davam edəcək!

Qeyd etmək lazımdır ki, ixtisasca jurnalist olan Elza xanımın qəlbindən dilinə axan bu sözləri Quba əhalisinin böyük əksəriyyətinin fikir və düşüncələrini əks etdirir. Qubalılar rayondakı bu müsbət dəyişiklikləri təkcə müşahidə etmirlər, eyni zamanda, bu quruculuq və yeniləşmə prosesinin fəal iştirakçılarına çevriliblər. Düşünürəm ki, rayon sakinlərini yeni uğurlara motivasiya edən əsas amillərdən biri də məhz budur!

## Amsar kəndində qəbul

Qeyd edək ki, Quba rayonu Azərbaycanın ərazi bütövlüyünün toxunulmazlığı uğrunda gedən döyüşlərdə, ümumilikdə, 277 nəfər şəhid verib, 62 nəfər Quba sakini isə itkin düşüb. 1990-cı ilin “Qanlı 20 Yanvar” faciəsində 4 nəfər qubalı Azərbaycanın suverenliyi uğrunda həlak olub. Xiyabanda uyuyan 32 nəfər Birinci Qarabağ müharibəsində şəhid olmuşdur. İkinci Qarabağ müharibəsində Vətənin azadlığı naminə həyatlarını itirən 57 qubalı şəhid də xiyabanda dəfn edilib.

Şəhidlərin məzarlarının üzərini daim tər çiçəklər, al qızılgüllər bəzəyir. Quba RİH başçısı İlqar Mahmudov, rayon rəsmiləri, ziyalılar həm Quba şəhərinin sakinləri, həm də kənd və qəsəbələrin əhalisi ilə hər bir görüşdən əvvəl bir qayda olaraq şəhid ailələrini, qazilərin ziyarət edir, onların qayğı və problemləri ilə yaxından maraqlanaraq meydana çıxan çətinliklərin müsbət həllinə nail olmağa çalışırlar. Yerlərdə mütəmadi görüşlər rayonda sağlam mənəvi ab-havanın formalaşmasına, vətəndaş məmnunluğuna səbəb olur.

Bu günlərdə Quba RİH başçısı İlqar Mahmudov Amsar kənd inzibati ərazi dairəsi üzrə vətəndaşların növbəti səyyar qəbulunu keçirib. Qəbulda Quba rayon prokuroru Namiq Muradov, Quba Rayon Ağsaqqallar Şurasının sədri İldırım Məmmədov, həmçinin də rayonun bir çox idarə, müəssisə və təşkilatlarının rəhbərləri də iştirak ediblər.

Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin operativ həlli məqsədilə aidiyyəti şəxslərə yerindəcə müvafiq tapşırıqlar verilib. Səyyar qəbuldan sonra isə Quba RİH başçısı görkəmli şair, yazıçı, tarixçi alim Abbasqulu Ağa Bakıxanovun ev-muzeyi və Amsar kənd tam orta məktəbinin mövcud vəziyyəti ilə tanış olub, təmir işlərinin sürətləndirilməsi ilə əlaqədar bir sıra əməli göstərişlər verib.

Bu yerdə qeyd etmək lazımdır ki, böyük alim, mütəfəkkir Abbasqulu ağa Bakıxanovun Amsar kəndi ilə birbaşa əlaqəsi olub. Xatırladaq ki, Abbasqulu ağa 1794-cü il iyunun 21-də Bakının Əmircan kəndində anadan olub. Atası II Mirzə Məhəmməd xan Bakı xanları nəslindən, anası Sofiya xanım isə müsəlmanlığı qəbul etmiş gürcü qızı idi. Bakıxanov 8 yaşına qədər Bakıda yaşayıb, uşaqlığının ilk dövrünü Abşeronun Əmircan, Maştağa, Balaxanı kəndlərində keçirib

Abbasqulu ağa 1802-ci ildə atası ilə öz əmisi oğlu Hüseynqulu xanla aralarında yaranan kəskin münaqişə səbəbindən Qubaya, vaxtilə dayısı Fətəli xanın ona bağışladığı Amsar kəndinə köçməli olub. Abbasqulu ağa 1819-cu ilədək burada yaşayaraq yarımçıq qalan təhsilini davam etdirib. O, Qubada ərəb və fars dillərini mükəmməl öyrənib, bu dillərdə yazılmış xeyli ədəbiyyat oxuyub. Xatırladaq ki, Amsar kəndində Bakıxanovun ev-muzeyi 1999-cu il iyulun 7-də etibarən fəaliyyət göstərir

Rayonda ən çox ziyarət olunan muzeylərdən biri də Prezident İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə Quba şəhərində inşa edilmiş “Soyqırımı Memorial Kompleksi”dir. Kompleks 2012-2013-cü illərdə Quba şəhərində keçmiş stadion ərazisində inşa edilib və 2013-cü il sentyabrın 18-də açılıb. Kompleksin ümumi sahəsi 3,5 hektardır və 5 hissədən ibarətdir. İndiyədək buranı 60-dan çox ölkədən gələn on minlərlə turist və nümayəndə heyətlərinin üzvləri ziyarət ediblər.

Yeri gəlmişkən, lap son günlərin söhbətidir. 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar Quba şəhərində ağacəkmə aksiyası keçirilib. Aksiya çərçivəsində Quba şəhərində “Soyqırımı Memorial Kompleksi”nin yaxınlığındakı ərazidə ağaclar əkilib.





## Əgər Qubanı görməmisənsə...

Deyirlər ki, Xalq şairi Məmməd Rahim sağlığında yay aylarında adətən ailəsi ilə növbə ilə bir il Qubanı, növbəti il isə Göygölü ziyarət edərmiş. Vətənin bu iki dilbər guşəsinin qeyri-adi gözəlliyindən ilham alaraq yeni şeirlər yazarmış. Şairin məhz həmin səfərlərdən birinin təsiri ilə qələmə aldığı bu iki misra dillər əzbəridir:

*Əgər Göygölü,*
*Qubanı görməmisənsə,*
*Demə kimi görmüşəm*
*Azərbaycanı!*

Dahi rəssam Səttar Bəhlulzadə də bu yerlərin vurğunu idi, tez-tez Qubaya gələr, buranın əsrarəngiz gözəlliyini sonsuz bir həvəslə ağ kətana köçürərdi. Beləcə, Azərbaycan incəsənətinin şedevrləri yaranardı. Görkəmli fırça ustası “Amsar bağları”, “Qubanın alma bağları”, “Qudyalçayın sahilində” və s. əsərlərini məhz Qubaya unudulmaz səfərləri zamanı yaradıb.

Əlbəttə, Azərbaycanın gözəl guşələri təkcə Göygöl və Quba ilə bitmir. Ölkəmizdə gəzməli-görməli yerlərimiz o qədər çoxdur ki, onları saymaqla qurtarmaz. Bununla bərabər, etiraf edək ki, Qubanın turizm imkanları digər bölgələrimizlə müqayisədə nisbətən daha genişdir. Bir tərəfdən paytaxta məsafəcə yaxınlığı, o biri tərəfdən füsunkar təbii gözəlliyi, məğrur dağları, yaşıl ormanları, bumbuz bulaqları ilə Quba hər il on minlərlə yerli və əcnəbi turisti özünə cəlb edir.

Son illər rayonda çox sayda müasir, hər cür şəraiti olan otel və mehmanxanalar inşa edilib. Rayon mərkəzindən ən ucqar kəndlərə belə rahat yollar çəkilib. Əziz oxucular, Qubaya yolunuz düşsə, mütləq Qubanın ən böyük çaylarından olan Vəlvələçayın ətrafındakı kanyonvari dərənin yamacında, rayon mərkəzindən 42 kilometr məsafədə yerləşən Afurca şəlaləsini seyr etməyə gəlin. Hündürlüyü 60 metrdir. Azərbaycan Respublikasının geoloji təbiət abidəsi kimi qeydə alınıb və dövlət tərəfindən mühafizə olunur.

## “Qurudub göndərmə bənövşələri...”

Quba bu ilıq yaz günləri yenidən öz gözəl yaşıl libasına bürünüb. Dağların yamacları yaşıllaşıb, meyvə bağlarında, həyət-bacalarda ağaclar gül-çiçək açıb, necə deyərlər, burada indi şövqlə gül-gülü, bülbül-bülbülü çağırır.

...Bu yazını hazırlayarkən Qubadan doğma kəndim Birinci Nügədiyə getdim. Ata həyətimizdə ağac və çəpərlərin dibindən boylanan zərif, boynubükük bənövşələri görüb duyğulandım. Həmin an çağdaş Azərbaycan poeziyasının ünlü simalarından biri, məşhur “Azərbaycan bayrağı” şeirinin və möhtəşəm “Vətən” poemasının müəllifi Ramiz Qusarçaylının gənclik illərində qürbətdə yaşayarkən yazdığı çox sevdiyim aşağıdakı misraları yadıma düşdü:

***Əlimə alınca əlim qurudu.***
***Qurudub göndərmə bənövşələri.***
***Nəfəsim qurudu, dilim qurudu***
***Qurudub göndərmə bənövşələri.***

Başımı qaldırıb kəndimizi üç tərəfdən əhatə edən əzəmətli Bəhyə dağlarına tərəf boylandım. Qoca dağlar bu yaz günlərində sanki bir qədər cavanlaşmışdı. Fikirləşdim ki, ən yaxın həftələr ərzində bu yerlərə turistlərin axını başlayacaq. İnsanlar bu gözəllikləri görüb paylaşacaqlar, paylaşdıqca ruhlanaraq sevinəcəklər.

Kəndimizdə uşaqlıq dostum, son illər bağbanlıqla məşğul olan qonşumuz Mirzə İsayevlə həmişəki kimi səmimi görüşüb hal-əhval tutduq. Dedi ki, bu il dağlara güclü yağışlar yağıb. Deməli, bağlar, əkinlər su sarıdan korluq çəkməyəcək!

Təki, bolluq, ruzi-bərəkət olsun! Bir sözlə, Quba, həqiqətən, gözəldir. Onu daha da gözəlləşdirən isə bu torpağın saf, səmimi, yurdsevər insanlarıdır.

Sonda sevimli qəzəlxan şairimiz Əliağa Vahidin “bağı-gülüstan”, “cənnəti-rizvan” deyə vəsf etdiyi Quba barədəki mənzuməsinin 1 bəndi yada düşür:

***İndi abad olur hər tərəfi cənnətdək,***
***Tutan olmaz daha bundan belə***
***nöqsan, Qubaya.***

*Səhifəni hazırladı:*
***Məsaim ABDULLAYEV***
***XQ***

*2 Aprel Beynəlxalq Uşaq Kitabı Günüdür*

**Gəl, gəl, a yaz günləri!**
**İlin əziz günləri!**
**Dağda ərit qarları,**
**Bağda ərit qarları...**

**Böyük Mirzə Ələkbər Sabirin bu misraları uşaqlıq illərimizin doğma sədası kimi yaddaşımızın ən munis guşəsində ruhumuzu ana dilinin sehri ilə fəth edib. Baharın gəlişi ilə təbiətin dirçəlişi necə mütləq həqiqətdirsə, bu sətirlərin ruhumuza hakim kəsilməsi də bir o qədər qaçılmazdır. Lakin Beynəlxalq Uşaq Kitabı Günü ərəfəsində müasir ədəbi mühitə nəzər saldıqda insanı sükuta qərq edən təzadla üzləşirik: kainatın baharı hər il öz əzəli vədinə sadiq qalıb torpağa can versə də, uşaq ədəbiyyatımızın baharı, sanki, bir əsr əvvəl yazılmış o müdrik kəlamların kölgəsində qalıb.**



# Kiçik oxucuların böyük dünyası

## *Çağdaş uşaq ədəbiyyatının yaradıcılıq və nəşr qayğıları*

Axı biz Mirzə Cəlil səmimiyyətinin, Sabir üslubunun, Abdulla Şaiq şəfqətinin yaratdığı maarifçilik amalının varisləriyik və bundan fəxrlə söz açırıq.

"Varisik" demək asandır, çünki bu, heç bir məsuliyyət tələb etmir, sadəcə, əcdadın şöhrəti ilə qürurlandırır bizi. Amma həqiqi varislik o dahilərin qoyduğu prinsipləri bu günün reallığında yaşatmaq, onların tənqid atəşinə tutduğu mənfilikləri məhv etməkdir.

Elm fədailərinin qan-tər bahasına ucaltdıqları sarsılmaz irfan qalası bir vaxtlar ədəbiyyatımızın yüksəliş nöqtəsi, indi isə ətalətimizi gizlətdiyimiz sığınacaqdır. Nə üçün hələ də o təfəkkür xəzinəsinin zənginliyinə möhtac qalmışıq və yeni nəslin qəlbinə nüfuz edəcək, onların dünyasını işıqlandıracaq şah əsərlər yaratmaqda acizik?

Acı həqiqət budur ki, gənc nəsil məhz uzaq üfüqlərin parıltısı ilə qidalanır, yad ellərin tanınmış simalarını əzbər bilir. Lakin öz doğma torpağının səsini duyan yazarlarımızdan demək olar ki, bixəbərdir. Sanki öz bağçamızın barını dadmaqdan məhrum qalıb, uzaq bağların meyvəsinə həsrət kəsilmişik. Uşağı maraqlandırmayan, ona macəra və həqiqət vəd etməyən ədəbiyyatın gələcəyə vəsiqəsi yoxdur. Biz hələ də Sabirin əritdiyi qarlarla təşnəliyimizi yatırırıq, lakin müasir uşaq ruhundakı buzu "əritməyə" nə bədii cəsarətimiz çatır, nə də səmimiyyətimiz.

**Bəs görəsən yeniyetmələrin kitablara marağı necədir?**

**Ayxan Məmmədov,**
**3-cü sinif şagirdi:**

– Mən ancaq dərslikdəki kiçik hekayələri oxuyuram, çünki müəllimimiz onları soruşur. Abbas Səhhətin "Vətən" şeirini əzbərləmişəm. Əzbər bildiyim başqa şeirlər də var. Amma dərsdən əlavə, hələ ki, heç bir hekayə və ya şeir oxumamışam. Çünki əlimdə başqa kitabım yoxdur.

**Lalə Kərimova,**
**4-cü sinif şagirdi:**

– Dərslərimi yaxşı oxuyuram, müəllimin verdiyi tapşırıqları yerinə yetirirəm. Mirmehdi Seyidzadənin "Uçan quşlar" şerini çox sevirəm. Dərsdən əlavə hər hansı kitab oxumağa isə həvəsim yoxdur.

**Tural Əliyev,**
**6-cı sinif şagirdi:**

– Nizami Gəncəvini, Abdulla Şaiqi, Mirzə Ələkbər Sabiri tanıyıram. Amma müasir yazıçılarımız haqqında heç bir məlumatım yoxdur.

Uşaqların belə "səmimi etiraflar"ı, əslində, bu sahədə mövcud boşluqlardan xəbər verir. Bu ətalətdən qurtulmaq, uşaq ədəbiyyatının problemlərini işıqlandırmaq məqsədilə ziyalılarımızla həmsöhbət olduq.



**Uşaq ədəbiyyatının tanınmış nümayəndəsi, yazıçı, şair Zahid Xəlil bildirdi ki, əsl uşaq ədəbiyyatı səmimiyyət üzərində bərqərar olur:**

– Uşaqlar saxtalığı və süni müdrikliyi dərhal hiss edirlər. Ən yaxşı uşaq kitabları elə olmalıdır ki, onları hətta yetkin yaşda oxuduqda insan özü üçün yeni mənalar, fəlsəfi qatlar kəşf etsin. Çünki uşaq ədəbiyyatı vicdanın, ədalətin və mərhəmətin ilk dərsliyidir. Bu əsərlər xeyir və şər arasındakı mübarizəni bəsit qəliblərlə deyil, həyatın reallığına uyğun, lakin ümid dolu işıqla vəsf etməlidir.

Zəmanə yalnız uşaq ədəbiyyatının bədii məhsulunu yaradanların deyil, onu tədqiq edənlərin də qarşısında mühüm vəzifələr qoyur. Yəni bu iki qanad – yaradıcılar və o yaradıcıların əsərlərini tədqiq edən alimlər arasında qarşılıqlı əlaqə olmalıdır.

Bilirsiniz, keçmiş dövrlə indiki dövrün uşaq ədəbiyyatı arasında çox böyük fərq var. Əvvəla, o zaman mühit başqa idi. Hətta 1969-cu ildə uşaq ədəbiyyatı haqqında xüsusi qərar çıxarmışdılar. Daim nəzarətdə saxlayırdılar ki, ədəbiyyat nümunələri necə çap olunsun, nə qədər tirajla buraxılsın. Diqqəti demək olar ki, uşaq ədəbiyyatına yönəlmişdi.

Amma bu gün belə deyil. İndi uşaq yazıçısı özüylə tək qalıb. Mən yazıçılarımızın heç birini təqsirləndirmək niyyətində deyiləm. Dəfələrlə demişəm ki, bu gün ədəbiyyata gələn insan çox cəsur adamdır. Əgər yazıçı bütün ömrünü, həyatını, güzəranını, rahatlığını ədəbiyyata sərf edirsə, əməyinin nəticəsini görməlidir. Amma nəticə yoxdur, çünki maraq azdır. Müasir dövrün uşağı artıq vərəqlərin qoxusunda və cümlələrin ahəngində deyil, saniyələr içində dəyişən videoların sürətində özünü tapır. Kitab oxumaq səbir, təfəkkür və daxili mühakimə tələb etdiyi halda, sosial media hazır, çeynənmiş və heç bir zehni zəhmət tələb etməyən məhsullar təqdim edir. Bu isə uşağın bədii təfəkkürünü, dilimizin zəngin ifadə imkanlarını duymaq qabiliyyətini kölgədə qoyur.

Ədəbiyyatın səmimi səsi telefon ekranlarından gələn süni küyə uduzur. Əvvəllər uşağın dünyasında diqqəti cəlb edəcək, onu xəyallar aləminə aparacaq rəngarəng oyuncaqlar, texnoloji vasitələr və ya sonsuz sayda vizual əyləncələr yox dərəcəsində idi. Məhz bu məhrumiyyət və sadəlik ədəbiyyatı zərurətə çevirirdi. Nağıllar və hekayələr uşağın dünyanı dərk etmək üçün yeganə pəncərəsi, ən böyük oyun meydançası idi. O dövrün uşağı kitab səhifələrindəki kəlmələrdən özü üçün bütöv kainat qurur, oyuncağı olmayan qəhrəmanı öz xəyal gücü ilə dilləndirirdi. İndi isə mənzərə tamamilə başqadır. Müasir dövrdə uşaq diqqəti saniyələr içində oğurlayan parlaq ekranlar, səsli və hərəkətli oyuncaqlar, hər addımda qarşısına çıxan interaktiv vasitələrlə əhatə olunub. Belə bir mühitdə klassik mütaliənin, dərin və sakit təfəkkürün rəqibi çoxdur.

Problem tək bu da deyil. İndi uşaq yazıçısı öz əsərini nəşriyyatda çap etdirə bilmir. Təsəvvür edin ki, yazıçı hökmən başqa bir işlə məşğul olmalı, pul toplamalı, həm də əsərini çap etdirməlidir. Bu əziyyətə qatlaşmaq asandırmı? Sözsüz ki, yox. Bir insanın həm gündəlik məişət qayğılarını həll etmək üçün ağır iş qrafikində çalışması, həm də topladığı qəpik-quruşu nəşriyyat xərclərinə sərf etməsi mənəvi yükdür.

Bu vəziyyət uşaq ədəbiyyatının keyfiyyətinə də birbaşa təsir göstərir. Yazıçı öz maliyyə imkanları hesabına kitab çap etdirəndə, o artıq sadəcə sənətkar deyil, həm də texniki icraçıya çevrilir. Əsərin üzərində ciddi redaktor və korrektor nəzarətinin olmaması, peşəkar rəssam tərtibatından məhrum qalması çox vaxt kitabın vizual və dil baxımından zəifliyinə səbəb olur. Öz vəsaiti ilə kitab çap edən müəllif, təbii olaraq, bazarın tələblərinə uyğunlaşmağa, daha tez satılacaq və daha az xərc tələb edən qəliblərə müraciət edir. Bu isə dərin fəlsəfi qatları olan, uşağın dilini və ruhunu zənginləşdirən klassik üslublu əsərlərin arxa plana keçməsi ilə nəticələnir.

Dilimizin saflığını qoruyan, həm də müasir gəncliyin sürətli ritmi ilə ayaqlaşan ədəbiyyatın mövcudluğu günümüzün ən önəmli qayğılarındandır. Bütün bunlara baxmayaraq, müjdə verə bilərəm ki, bu dirçəliş artıq xəyal deyil. Azərbaycanda uşaq ədəbiyyatı yenidən çiçəkləməyə başlayır. Bəlkə bu çiçəklər hələ bütün bağçanı bürüməyib, hələlik kiçik bir talada, bir neçə kitabın vərəqlərində, bir neçə fədakar yazıçının yaradıcılığında özünü göstərir, amma mən o işığı görürəm.

Prosesin canlı şahidi və iştirakçısı olduğum üçün bu faktı bölüşmək yerinə düşər: mənim "Şəkərabad şəhərinin uşaqları" kitabım "Libra" nəşriyyatında bir il ərzində altı dəfə təkrar çap olundu. Deməli, doğru dili, doğru ritmi tapanda hətta müasir dövrün uşaqlarını da kitab oxumağa cəlb etmək olur.

Artıq püxtələşmiş, müasir gəncliyin dilini tapan gənc və istedadlı qələm dostlarımız da var. Məsələn, Eyvaz Zeynalov adlı gənc yazarımızın iki kitabı işıq üzü görüb. Onun yanaşması o qədər maraqlı və müasirdir ki, canlandırdığı qəhrəmanların başına gələn hadisələri nağıl və fantastikanın dili ilə elə nümayiş etdirir ki, uşaq həm əylənir, həm də həyatın bəzi sirlərini, mənəvi dəyərlərini fərqinə varmadan öyrənir. Bu kitabın da qısa müddətdə ikinci dəfə çap olunması azyaşlıların yeni nəfəsə nə qədər ehtiyacı olduğunun sübutudur.

Sevinirəm ki, ölkəmizdə uşaq kitabı sərgiləri keçirilir və bu sərgilərə çoxlu uşaqlar gəlir. İlk dəfə beynəlxalq sərgi keçiriləndə mən də qonaq oldum. Doğrudan heyran qaldım ki, ölkəmizdə belə nəşriyyatların sayı artır. Eyni zamanda, təəssüfləndim. Çünki bu nəşriyyatlar bədii əsərlər çap etmir, oyuncaqlar, məktəb ləvazimatları kimi əşyalar satırlar. Məqsəd, sadəcə pul qazanmaqdır. Yəni burada uşaq ədəbiyyatının təbliğatı yox, uşaq ədəbiyyatının adından, uşaq ruhundan istifadə ilə öz şəxsi mənfəətləri uğruna çalışırlar.

Uşaq ədəbiyyatına lazımi diqqət yetirilsə, istedadlı qələm sahibləri bu sahəyə cəlb edilsə, nəşriyyatlar həm böyük nailiyyətlər qazanar, həm də ədəbiyyatımız bundan bəhrələnər. Klassik ədəbiyyatımız isə zaval bilməyən, ölməz bir xəzinədir. Zaman keçsə, yeni və gözəl əsərlər yaransa belə, klassiklərimiz öz dəyərini heç vaxt itirməyəcək.

Abdulla Şaiqin cəmi 4 misradan və 5 hecadan ibarət olan "Çöllərindir şən, hər yerin gülşən, sən nə gözəlsən, ey ana Vətən!" bəndi bütöv Azərbaycan mənzərəsini özündə ehtiva edir. Cəlil Məmmədquluzadə və Abbas Səhhətin nəsr əsərləri, Süleyman Sani Axundovun "Qaraca qız"ı kimi monumental nümunələr uşaq ədəbiyyatımızın misilsiz nailiyyətləridir. Bu əsərlər bu gün də, sabah da uşaqlarımız tərəfindən oxunmalıdır.

Çünki bu nümunələrdə tarixin dar çərçivələri yox, əbədi mövzular – insanın daxili aləminin gözəlliyi, inam və duyğu zənginliyi var. Məsələn, Mir Cəlalın "Bir gəncin manifesti" əsəri mənim daim xatirimdə olan, hətta gənclərə misal çəkdiyim sənət nümunəsidir. Sözsüz ki, yaddaşlara həkk olunan belə dəyərli əsərlər bu gün də təkrar-təkrar nəşr edilməli və yeni nəsil oxuculara çatdırılmalıdır.

**Əməkdar jurnalist, yazıçı-publisist, pedaqogika üzrə fəlsəfə doktoru Zemfira Məhərrəmli vurğuladı ki, ölkəmizin gələcəyi, inkişafı, elmi tərəqqisi, mədəniyyəti birbaşa böyüməkdə olan nəslin mütaliə səviyyəsindən asılıdır:**




– Bu, hər kəsə aydın, lakin mahiyyəti olduqca dərin həqiqətdir. İnsanın dünyagörüşünün və oxu mədəniyyətinin formalaşması, ilk növbədə, ailədən və məktəbdən başlayır. Uşaq ilkin tərbiyəsini ailədə aldığı üçün övlad böyüdən hər bir valideyn onun təhsilinə, təlim-tərbiyəsinə xüsusi həssaslıqla yanaşmalı, hələ məktəb yaşına çatmamış ona mütaliə vərdişləri aşılamalıdır.

Azərbaycanda uşaqların oxu səviyyəsinin kritik durumda olduğunu söyləmək doğru olmazdı, lakin bu sahədə səylərin artırılmasına, xüsusilə məktəblərdə şagirdlərin intellektual inkişafı yönündə daha aktiv iş aparılmasına böyük ehtiyac var. Çünki orta təhsil məhz erkən yaşlarda qazanılan təməl biliklərin üzərində qurulur. Bünövrəsi möhkəm olmayan bir binanın üzərinə yük qoyduqda, o, dayanıqlı olmayacaq. Məktəbdə bu missiyanı pedaqoqlar yerinə yetirməlidir.

Son illər ölkəmizdə keçirilən kitab sərgiləri və festivalları sübut edir ki, cəmiyyətimizdə, istər ziyalılar, istərsə də sadə ailələr arasında mütaliəyə maraq xeyli artıb. Kitab təqdimatlarında və imza saatlarında valideynlərin övladları ilə birgə kitab köşkləri arasında gəzməsi, uşaqları üçün maraqlı ədəbiyyat axtarması qürurverici mənzərədir. Gənc valideynlərin uşaqları ilə birgə sərgilərə gəlib keyfiyyətli nəşrlər soraqlaması gələcəyə olan ümidləri artırır.

Lakin müasir dövrün reallıqlarını da unutmaq olmaz. İnformasiya texnologiyalarının sürətli inkişafı uşaqların gündəlik həyatına da təsir edib. Tez-tez şahidi oluruq ki, valideynlər, xüsusən də analar məişət işləri ilə rahat məşğul ola bilsinlər deyə uşağın başını qatmaq üçün onun əlinə mobil telefon verirlər. Körpə yaşlarından telefonla vaxt keçirən uşaqlar internetin ucsuz-bucaqsız aləmində öz yaşlarına uyğun olan və ya olmayan müxtəlif görüntülərlə qarşılaşırlar. Halbuki həmin vaxtı daha səmərəli dəyərləndirmək mümkündür. Telefon əvəzinə, uşağın əlinə rəngli, şəkilli bir kitab verib ona təbiətin gözəlliklərindən, bağ-bağatdan, meyvələrdən, ətraf mühiti qorumağın vacibliyindən danışmaq olar. Bu, həm də ekoloji tərbiyədir. Dostluq, xeyirxahlıq haqqında sadə dildə yazılmış hekayələri onlara oxumaq, yorulmadan suallarını cavablandırmaq və onları düzgün istiqamətə yönəltmək lazımdır. Bütün bunlar valideynlərdən və müəllimlərdən böyük həvəs, sevgi və səbir tələb edir. Yalnız bu yolla biz yüksək mütaliə mədəniyyətinə malik, ölkəmizin gələcəyini quracaq intellektual bir nəsil yetişdirə bilərik.

Müasir dövrün rəqəmsal reallıqları fonunda uşaqlarımızı informasiya texnologiyalarından və ya süni intellektdən tamamilə təcrid etmək qeyri-mümkündür. Bu texnologiyalar artıq həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilmiş, ətrafımızı bütövlükdə çulğalamışdır. Əslində, informasiya texnologiyaları inkişafa aparan ən mühüm amillərdən biri və səmərəli vasitədir. Lakin əsas vəzifə böyüməkdə olan nəslə bu texnoloji imkanlardan doğru istifadə etməyi, "lazımlı olandan yapışmağı" öyrətməkdir.

Uşaqları vətənpərvərlik ruhunda böyütməliyik. Qəhrəmanlarımız, qazilərimiz, şəhidlərimiz, şanlı Qarabağ savaşımız və qazanılan böyük zəfər haqqında çəkilmiş filmləri, süjetləri izləmək, bu barədə yazılan məlumatları oxumaq onların milli şüurunun formalaşması üçün vacibdir. Çünki vətən sevgisi həm pedaqogikanın, həm də elmin əsas məğzi, canıdır. Vətəni və yurdu sevmədən kamil vətəndaş yetişdirmək mümkün deyil.

**– Müsahibimiz onu da qeyd etdi ki, müasir dövrdə uşaqların intellektual və mənəvi inkişafında bədii ədəbiyyatın rolu əvəzsizdir:**

Müasir kitablarda artıq informasiya texnologiyaları, kosmik aləmin sirləri və dünyanın möcüzələri haqqında mövzular geniş yer alır. Uşağın formalaşmasında kitabın rolu hər zaman birinci dərəcəlidir; hətta ən sadə kitabdan belə uşaq nəsə öyrənir, nəsə əxz edir. Bu, isbata ehtiyacı olmayan həqiqətdir. Ona görə də uşaqlar kiçik yaşlarından mütaliəyə cəlb olunmalıdırlar.

Bu yerdə bəzi nəşriyyatların – "Teas Press", "Qanun", "Altun Kitab" və "Zərdabi"nin fəaliyyəti həm də mədəni yaddaşın bərpasıdır. Xüsusilə MİMTA Fondunun və "Füyuzat" jurnalının bu sahədəki rolu misilsizdir. Nizami Gəncəvinin ölməz "Xəmsə"sindən seçilmiş hekayələrin uşaqlar üçün yenidən işlənməsi, o qədim hikmət xəzinəsinin qapılarını kiçik oxucuların üzünə açmaq deməkdir. Bu, böyük bir vətənpərvərlik nümunəsidir, çünki uşaq qəlbinə toxunan hər bir misra gələcəkdə mənəviyyatı bütöv şəxsiyyətin formalaşmasına xidmət edir. "Altun Kitab" nəşriyyatının Azərbaycanın tarixi şəxsiyyətləri və sərkərdələri haqqında silsilə nəşrləri isə gənc nəsildə milli qürur hissini və öz tarixinə bağlılığı gücləndirir. "Məktəblinin kitabxanası" seriyasında işıq üzü görən hər bir kitab əslində valideynlər, nənələr və babalar üçün bir yol xəritəsidir. Bu kitabların təbliği və uşaqlara sevdirilməsi cəmiyyətin mənəvi sağlamlığında həlledici rol oynayır, çünki kitabla böyüyən uşaq hər zaman işıqlı gələcəyə doğru addımlayır.

Qasım bəy Zakir və Seyid Əzim Şirvani kimi nəhəng sənətkarların yaradıcılığındakı təmsillər və nəsihətamiz hekayələr bu gün də aktuallığını itirmir. Bu əsərlər vasitəsilə uşaqlara dürüstlük, dostluq və ədalət kimi dəyərlər aşılamaq, onları milli köklərə bağlamaq ən vacib missiyadır. Klassiklərimizin qoyduğu bu yolu Mirvarid Dilbazi, Teymur Elçin və Zahid Xəlil kimi ustadların davam etdirməsi, müasir dövrdə isə Rafiq Yusifoğlu, Reyhan Yusifqızı, Səlim Babullaoğlu və Sevinc Nuruqızı kimi qələm sahiblərinin bu estafeti uğurla aparması ədəbi varislikdir. Onların əsərlərindəki saf uşaq dünyası, səmimi dostluq münasibətləri və müasir həyatın reallıqları ilə yoğrulmuş hekayələr bugünkü nəslin düşüncə tərzinə tam uyğundur.

Tərbiyəni şeir və hekayə dili ilə vermək uşağın dünyagörüşünü genişləndirməklə yanaşı, həm də onda kitaba qarşı sevgi yaradır. Səlim Babullaoğlunun "Oğlumla söhbət" poeması müasir Azərbaycan poeziyasında intellektual dərinliyi və mənəvi saflığı ilə seçilən nadir nümunələrdəndir. Süjet boyu hiss olunan o kədərli sevgi və gələcəyə duyulan nigaran ümid, müəllifin mənəvi irsə və dilin toxunulmazlığına olan sadiqliyini bir daha təsdiqləyir.



**"Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlunun fikrincə, müasir dövrün texnoloji imkanları nə qədər geniş olsa da, kitabın yerini və mahiyyətini tamamilə əvəz etmək iqtidarında deyil:**

– Bu səbəbdən klassik kitab mütaliəsi ilə rəqəmsal texnologiyalar arasında balans mütləq qorunmalıdır. Uzun müddət yalnız ekran qarşısında vaxt keçirmək həm fiziki, həm də zehni yorğunluğa səbəb olur. Kitabın verdiyi duyğunu və dərinliyi hiss etmək üçün ənənəvi mütaliəyə qayıtmaq zəruridir. Elektron cihazlar texniki nasazlıqlar və ya elektrik enerjisinin olmaması kimi amillərdən asılı olduğu halda, kitab hər zaman, hər şəraitdə sənə sadiq bir yoldaşdır. Əslində, rəqəmsal texnologiyalar kitabın inkişafına mane olmur, əksinə, ona xidmət edir. Sadəcə, bunu gənc nəslə düzgün aşılamaq lazımdır.

Bu gün ana dilimizdə həm məzmunu, həm də vizual tərtibatı və rəngarəngliyi ilə seçilən, uşaqların maraq dairəsinə uyğun xeyli sayda kitab tapmaq mümkündür. Lakin bu inkişafa rəğmən, cəmiyyətdə, xüsusən də valideynlər arasında kitab alma mədəniyyəti hələ də arzuolunan səviyyədə deyil. Kitab almaq hər bir ailənin gündəlik həyat tərzinin ayrılmaz hissəsinə çevrilməlidir. Məsələn, ailəvi gəzintilərin marşrutuna mütləq kitab dükanları da daxil edilməli, kitaba sadəcə əşya deyil, mənəvi ehtiyac kimi yanaşılmalıdır.

Uşağa alınan oyuncağın və ya hədiyyənin yanında mütləq bir kitabın da olması vacibdir və o da dərk etməlidir ki, oyuna ayırdığı vaxt qədər, kitab oxumağa da zaman ayırmaq gündəlik rejimin bir hissəsidir. Vaxtın düzgün idarə olunması isə insandan həm yüksək daxili intizam, həm də sarsılmaz iradə tələb edir.

Çağdaş ədəbi mühitimizdə yerli müəlliflərin yetişməsi və uşaq ədəbiyyatına yeni nəfəs gətirməsi qaçılmazdır. Hazırda bu sahədə yeni imzalar parlasa da, inanıram ki, yaxın illərdə Azərbaycan uşaq ədəbiyyatı intibah dövrünü yaşayacaq və çox güclü, peşəkar yazıçı nəsli formalaşacaq.

Etiraf etmək lazımdır ki, hazırda oxucu rəğbəti və satış göstəriciləri baxımından xarici uşaq ədəbiyyatı hələ də dominant mövqedədir. Xüsusilə dünya miqyasında fenomenə çevrilmiş "Harri Potter" seriyası mütaliə siyahılarında ilk pillədə qərarlaşır. Bununla yanaşı, "Persi Cekson" və "Molli Mun" kimi fantastik və macəra dolu əsərlər uşaqların ən çox müraciət etdiyi kitablardandır. Bu nümunələr göstərir ki, müasir uşaq oxucusu daha çox dinamik süjetlərə və sirli qəhrəmanlara meyillidir.

İstənilən sahəyə yatırılan sərmayə özlüyündə müəyyən risklər daşıdığı kimi, nəşriyyat işi də bu baxımdan istisna deyil. Bəzən böyük uğur qazanacağını gözlədiyimiz bir kitabın satış göstəriciləri gözləntiləri doğrultmaya bilir. Lakin kitab nəşri sadəcə biznes fəaliyyəti deyil, həm də mənəvi missiya, mədəniyyət quruculuğudur.

Bu missiya bizdən tələb edir ki, bəzi hallarda kommersiya baxımından böyük uğur vəd etməyən əsərlərin də nəşrinə yer ayıraq. Çünki elə fundamental biliklər və dəyərlər var ki, uşaqlar gələcəkdə daha rahat, asan və xoşbəxt həyat sürmək üçün onlarla mütləq tanış olmalıdırlar. Bu bilgilər onlara həm maddi rifah qazanmağın yollarını öyrətməli, həm də heç nəyə ehtiyac duymadan bəşəriyyətə və insanlığa faydalı şəxsiyyət kimi yetişmələrinə zəmin hazırlamalıdır.

Faydalı insan, ilk növbədə, sağlam məlumatlarla qidalanmalıdır. Düzgün informasiya və keyfiyyətli ədəbiyyatla bəslənməyən fərddən gələcəkdə cəmiyyət üçün xeyirli işlər gözləmək olmaz.

Lakin yaradıcılıq potensialımızın bu rəqabətə tab gətirəcəyinə və mütləq şəkildə öz layiqli yerini tutacağına böyük ümidlər var. Yerli müəlliflərimiz qlobal ədəbi tendensiyaları milli koloriti qorumaq şərtilə mənimsədikcə, Azərbaycan uşaq ədəbiyyatı da geniş oxucu kütləsi qazanacaq.

*Hazırladı:*
***Fidan ƏLİYEVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 54 (31023) 2 aprel 2026-cı il, cümə axşamı

# Əhməd bəy Ağaoğlu irsinin öyrənilməsinə töhfə

**İstanbul Universitetində Azərbaycan və Türkiyənin tanınmış ictimai xadimi, mütəfəkkir, yazıçı, hüquqşünas və şərqşünas-alim Əhməd bəy Ağaoğluna həsr edilən “Doğu ile Batı arasında bir mütefekkir: Ahmet Ağaoğlu” “Şərq ilə Qərb arasında bir mütəfəkkir: Əhməd Ağaoğlu” adlı kitabın təqdimatı keçirilib. Türkiyə türkcəsində işıq üzü görən nəşr Azərbaycan Mədəniyyət Mərkəzinin həyata keçirdiyi “Türkiyədə tanınmış azərbaycanlıların izi ilə” layihəsi çərçivəsində ərsəyə gəlib.**



Azərbaycanlı tarixçi, araşdırmaçı Dilqəm Əhmədin arxiv materialları əsasında hazırladığı kitabda Əhməd bəy Ağaoğlunun bu vaxtadək araşdırılmayan və çap olunmayan elmi-ədəbi məqalələri, xatirələri, digər yazıları, onun haqqında müsahibələr və tanınmış şəxsiyyətlərin fikirləri toplanıb. Topluda Prezident İlham Əliyevin Əhməd bəy Ağaoğlunun 150 illik yubileyinin qeyd olunması haqqında sərəncamı da yer alıb.

Mərasimdə Azərbaycan mədəniyyət nazirinin müavini Murad Hüseynov, İstanbul Universitetinin rektoru, professor Osman Bülənt, Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov, İstanbuldakı baş konsulluğumuzun konsulu Sevinc Süleymanova, Türkiyədəki səfirliyimizin müşaviri Füzuli Məcidli, ali məktəbin müəllim heyəti, ictimaiyyət nümayəndələri, soydaşlarımız iştirak ediblər.

Rektor Osman Bülent Azərbaycan – Türkiyə qardaşlığının formalaşıb möhkəmlənməsində görkəmli şəxsiyyətlərin böyük rol oynadıqlarını, ölkələrimizin bugünkü ortaq maraqlarına yön verdiyini bildirib.

Kitabın müəllif Dilqəm Əhməd nəşrin hazırlanması və Əhməd Ağaoğlunun həyatı barədə iştirakçılara məlumat verib. Sonda müəllif yeni kitabın nüsxələrini oxucular üçün imzalayıb.

*XQ*

## İDMAN

### Böyük İpək yolu turniri

**Bu gün Bakıda qadın və kişi boksçular arasında Böyük İpək Yolu beynəlxalq turniri start götürəcək. Boks Mərkəzində təşkil olunacaq ənənəvi yarışda Azərbaycan, Avstraliya, Əlcəzair, Bolqarıstan, Gürcüstan, Macarıstan, Qazaxıstan, Moldova, Türkiyə və Özbəkistan milli komandaları mübarizə aparacaqlar.**




Azərbaycan Boks Federasiyasından verilən məlumata görə, 14 dəst (10 çəkidə kişi, 4 çəkidə qadın) medal uğrunda 126 boksçu gücünü yoxlayacaq. Turnirin qaliblərinin adına aprelin 7-də aydınlıq gələcək.

Azərbaycan kişilərin yarışında 37, qadınların mübarizəsində 6 boksçu ilə təmsil olunacaq.

Qeyd edək ki, turnirin supervayzeri Svetoslav Sapoundjiyev (Bolqarıstan), baş hakimi Anar Babanlı (Azərbaycan) olacaq. Görüşləri azərbaycanlı hakimlərlə yanaşı, Əlcəzair, Bolqarıstan, Qazaxıstan, Moldova, Türkiyə və Özbəkistandan olan referilər də idarə edəcəklər.

### FİDE-nin yeni reytinqi

**Beynəlxalq Şahmat Federasiyasının (FIDE) aprel ayı üçün reytinq cədvəli açıqlanıb.**



FIDE-nin rəsmi saytının yaydığı məlumatına görə, reytinqdə Azərbaycan şahmatçıları arasında ən yaxşı göstərici Şəhriyar Məmmədyarova məxsusdur. 40 yaşlı qrosmeyster 2715 xalla 27-ci sırada qərarlaşıb. Teymur Rəcəbov (2698) 37-ci, Aydın Süleymanlı (2653) 64-cü, Eltac Səfərli (2648) 67-ci, Rauf Məmmədov isə (2636) 87-cidir.

Azərbaycanın qadın şahmatçılarından Ülviyyə Fətəliyeva (2431) 29-cu pilləyə yüksəlib. Günay Məmmədzadə (2374) 64-cü, Gövhər Beydullayeva (2358) 85-ci, Xanım Balacayeva (2350) isə 92-ci pillədə yer alıblar.

Siyahıya əvvəlki mövqeyini qoruyan norveçli şahmatçı Maqnus Karlsen (2840) başçılıq edir. ABŞ təmsilçilərindən Hikaru Nakamura (2810) 2-ci, Fabiano Karuana (2793) 3-cüdür.

### DÇ-2026-nın pley-off mərhələsi

**Türkiyə millisi Futbol üzrə dünya çempionatının Avropa zonası üzrə pley-off mərhələsində Kosovanın qonağı olub. Matçın həlledici qolunu 53-cü dəqiqədə Kerem Aktürkoğlu vurub.**



Beləliklə, Türkiyə yığması 24 il sonra dünya çempionatının final mərhələsinə vəsiqə qazanıb. Belə ki, milli komanda sonuncu dəfə DÇ-də 2002-ci ildə oynayıb və turnirdə üçüncü yeri tutub.

Pley-off mərhələsinin digər görüşündə Bosniya və Herseqovina İtaliya yığması ilə qarşılaşıb. Görüşün əsas və əlavə vaxtı 1:1 hesabı ilə başa çatıb. Penaltilər seriyasını daha dəqiq yerinə yetirən (4:1) Bosniya və Herseqovina millisi sensasiyaya imza ataraq İtaliya yığmasını turnirdən kənarlaşdırıb.

Digər görüşlərdə İsveç – Polşa– 3:2, Çexiya – Danimarka – 2:2 (penaltilər: 3:1).

*Qabil YUSİFOĞLU*
*XQ*

*Sirli-soraqlı kainat*

# Yer kürəsi necə yaranıb?

**Planetimizin alimlərin düşündüyündən daha sadə şəkildə formalaşdığı müəyyən edilib. Araşdırmalara görə, Yer demək olar ki, tamamilə Günəş sisteminin yerli maddəsindən yaranıb və uzaq aləmlərin bu prosesə ciddi töhfəsi olmayıb. Bu nəticə planetlərin necə yarandığına dair mövcud təsəvvürləri yenidən nəzərdən keçirməyə səbəb olub.**



İndiyədək hesab edilirdi ki, Yer mürəkkəb kosmik birləşmə nəticəsində formalaşıb. Planetimizə düşən meteoritlər iki əsas qrupa bölünür: bir qismi Günəşə yaxın, digərləri isə Günəş sisteminin kənar hissələrində yaranıb. Yerin kimyəvi tərkibi bu iki qrup arasında aralıq mövqe tutduğuna görə alimlər düşünürdülər ki, planet formalaşarkən xarici bölgələrdən də xeyli maddə alıb. Bu maddələrlə birlikdə su və uçucu elementlərin də Yerə gəldiyi ehtimal edilirdi. Bəzi modellərdə bu pay onlarla faiz hesablanırdı və Yerin yaranma prosesi daha çox miqrasiya və xaotik birləşmə kimi izah olunurdu.

İsveçrənin Sürix Ali Texniki Məktəbinin əməkdaşı Paolo A. Sossinin rəhbərlik etdiyi tədqiqat qrupu daha geniş yanaşma tətbiq edib. Onlar bir neçə göstərici ilə kifayətlənmək əvəzinə, planetlər yaranmazdan əvvəl formalaşmış maddənin “izləri” sayılan 10 müxtəlif izotop sistemini müqayisə ediblər. İzotop fərqləri maddənin protoplanetar diskdə hansı bölgədən gəldiyini müəyyən etməyə imkan verir.

Tədqiqatçılar əvvəlcə əsas komponentlər analizi ilə məlumatları sadələşdiriblər, sonra isə nəticələri Bayes statistik üsulu ilə dəqiqləşdiriblər. Bu yanaşma əvvəlcədən məlum olan məlumatları nəzərə alaraq ehtimalları daha dəqiq qiymətləndirməyə kömək edir. Beləliklə, ölçmə xətaları da nəzərə alınıb və erkən Günəş sistemində maddənin paylanması daha aydın görünüb.

Nəticələr göstərib ki, Yer Günəş sisteminin daxili hissəsində formalaşmış cisimlər - məsələn, Mars və bəzi meteorit növləri üçün xarakterik olan xətti uyğunluğa tam uyğundur. Bu uyğunluq isə xarici bölgələrdən gələn materialla kəsişmir.

Başqa sözlə, Yerin kimyəvi tərkibini Günəş sisteminin kənarından maddə gətirmədən də izah etmək mümkündür. Hesablamalar göstərir ki, xarici maddənin payı çox azdır - bir neçə faizdən də aşağı, bəzi hallarda isə onda bir faizdən azdır. Bu göstərici əvvəlki qiymətləndirmələrdən xeyli kiçikdir.

“Nature Astronomy” jurnalında dərc olunan nəticələr, həmçinin göstərir ki, Yer eyni tərkibli maddədən formalaşıb. Bu, ya planetin milyonlarla il ərzində demək olar dəyişməyən material topladığını, ya da ilkin fərqlərin sonradan nüvə və mantiyanın formalaşması zamanı aradan qalxdığını göstərir. Hər iki halda, Yerin yaranma prosesi əvvəl düşünüldüyündən daha nizamlı olub.

Alimlər modeldən istifadə edərək digər planetlərin tərkibini də proqnozlaşdırıblar. Onların hesablamalarına görə, Venera və Merkuri erkən protoplanetar diskdə maddənin paylanmasını daha kəskin əks etdirən izotop xüsusiyyətlərinə malik olmalıdır. Bu nəticələri gələcək kosmik missiyalar, - həmin planetlərdən nümunələr gətirəcək layihələr, - yoxlaya bilər.

Beləliklə, yeni araşdırma planetlərin yaranması ilə bağlı yanaşmanı dəyişir. Maddənin bütün Günəş sistemi boyunca birləşməsi əvəzinə, Yer, ehtimal ki, orbitinin yaxınlığında olan materialdan lokal şəkildə formalaşıb. Bu kəşf planetlərin yaranma modellərini sadələşdirir və suyun mənşəyi ilə Yer kürəsində həyat üçün uyğun şəraitin necə yarandığına dair sualları yenidən gündəmə gətirir.

*S.ELAY*
*XQ*

***✓ 2023-cü il fevralın 2-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğu tərəfindən Şəmkir Hərbi Prokurorluğunun müstəntiqi, ədliyyə baş leytenantı İsaqlı Zamiq Zakir oğlunun adına verilmiş 062-23 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.***

***✓ Xaçmaz rayonunun Ağaşirinoba kənd sakini Baxışov Akif Mayıl oğluna Gəncə DAİM-dən verilmiş “AZMAŞ LİZİNQ” MMC-dən lizinqlə aldığı traktorun AZ014132 nömrəli texniki pasportu itdiyi üçün etibarsız sayılır.***

## HAVA

# Gecə yağıntılı, gündüz dumanlı...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Səhər ayrı-ayrı yerlərdə duman olacaq. Mülayim cənub-qərb küləyi əsəcək.**

Havanın temperaturunun gecə 10-12, gündüz 14-18 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 762 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecəyə doğru bəzi yerlərdə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 8-12, gündüz 20-25, dağlarda gecə 2-7, gündüz 12-17 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Hidayət Orucov Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi, hakimləri və aparat əməkdaşları Konstitusiya Məhkəməsinin hakimi Rauf Quliyevə atası

**RƏHİM QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova əzizi

**SARA HÜSEYNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevə anası

**FLORA ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Azərbaycanın tarixi demoqrafiyası elmi qrupu, tarixin nəzəriyyəsi, mənbəşünaslıq və tarixşünaslıq və Azərbaycanın beynəlxalq əlaqələri şöbələrinin əməkdaşları tarix elmləri doktorları Tofiq Nəcəfliyə və Güntəkin Nəcəfliyə əzizləri, BDU-nun genetika kafedrasının müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent

**MÖHÜBBƏT NƏCƏFLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2912
SİFARİŞ 399
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00